

**“Seçdiyimiz yol, yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Yanvar - Mart (2017-ci il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 14.04.2017
60x84 1/8 formatda 108 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2017

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**17** M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**18** Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

**22** Prezident İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

**25** Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**26** Prezident İlham Əliyev Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşdə iştirak edib

**31** Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Hərbi Prokurorluq tərəfindən səmərəli işlər görülüb

**41** Prezident İlham Əliyevin 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbriki

**42** Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

**43** Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

**53** "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturu"nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

## RƏSMİ TƏDBİRLƏR

**54** Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilib

**56** Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

**61** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

**64** Prezidentin Sərəncamından irəli gələn vəzifələr Baş Prokurorluqda müzakirə edilib

**66** Azərbaycan ilə Ukrayna arasında hüquqi əməkdaşlıq daha da genişlənir

**69** AŞPA-nın Azərbaycan üzrə məruzəçisi Baş Prokurorluqda olub

**70** Avropa Şurasının nümayəndə heyəti Baş Prokurorluqda olub

**70** Avropa Şurası Katibliyinin nümayəndə heyəti Baş Prokurorluqda olub

**71** AŞPA-nın həmməruzəçiləri ilə Baş Prokurorluqda görüş keçirilib

**72** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## TƏBRİKLƏR

**75** Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi ilə əlaqədar Baş prokuror Zakir Qaralov təbrik ünvanlayıb

## DİGƏR ÖLKƏLƏRİN TƏCRÜBƏSİ

**77** Rusiyada şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olan inzibati xəta haqqında iş üzrə məhkəmə qərarı prokurorun protestinə əsasən ləğv edilib

## MƏHKƏMƏ-İSTİNTAQ TƏCRÜBƏSİ

**79** Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qondarma rejimin təşviq edilməsi, maddi-mədəni irsin və təbii sərvətlərin talan olunması faktları üzrə cinayət işi başlanılıb

**79** Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində hüquqi şəxslərin qanunsuz iqtisadi fəaliyyətlə məşğul olması faktları üzrə cinayət işi başlanılıb

**80** Aleksandr Lapşinin Rusiyanın Azərbaycandakı səfirliyinin əməkdaşları ilə görüşü təmin edilib

## İCTİMAİYYƏTƏ HESABAT

**81** Namiq Əsgərov: Prezidentin Sərəncamı dövlətimizin humanist siyasətinin növbəti təzahürüdür

**82** Korrupsiyaya qarşı mübarizə tədbirləri uğurla davam etdirilir

**85** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Azərbaycan üçün qəbul edilmiş hesabatı təqdim olunub

**87** Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla hüquqi əməkdaşlığa böyük önəm verir

**88** Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstə üzvlərinin iştirakı ilə seminar keçirilib

**88** Tabe rayon (şəhər) prokurorluqlarında "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması" mövzusunda seminarlar keçirilib

## BEYNƏLXALQ ƏLAQƏLƏR

**89** Azərbaycan Prokurorluğunun nümayəndə heyəti Rusiya Prokurorluğunun 295-ci illiyinə həsr olunan rəsmi tədbirində iştirak edib

**89** Azərbaycan Prokurorluğu kibercinayətkarlıq, cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələlərində beynəlxalq hüquqi əməkdaşlığa həsr edilmiş beynəlxalq konfransda təmsil olunub

## HÜQUQİ AKTLAR

**90** Qanunvericiliyə dəyişikliklər

**104** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib**

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlət başçısı iclasda giriş nitqi söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi



– Bu gün biz 2016-cı ilin yekunlarını müzakirə edəcəyik və bu il görüləcək işlər haqqında danışacağıq.

2016-cı ili təhlil edərkən əlbəttə ki, biz regionda və dünyada gedən prosesləri nəzərə almalıyıq. 2016-cı ildə dünyada və yaşadığımız regionda təhlükələr, risklər, təhdidlər artmış, qanlı münaqişələr, müharibələr davam etmiş, yeni münaqişə ocaqları yaranmışdır. Bir sözlə, yaşadığımız bölgədə sabitlik pozulmuşdur və iqtisadi inkişafla bağlı vəziyyət ağırlaşmışdır. 2016-cı ildə dünyanın müxtəlif yerlərində təhlükəli proseslər müşahidə

olunurdu. Avropada miqrantlar böhranı dərinləşmişdir, MDB məkanında gedən proseslər narahatlıq doğururdu. Yaşadığımız bölgədə və Yaxın Şərqdə, qeyd etdiyim kimi, qanlı toqquşmalar, müharibələr, terror aktları, əfsuslar olsun ki, bölgədəki sabitliyə çox böyük zərbə vurmuşdur.

O ki qaldı, bizim ölkəmizə – Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirmişdir, ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır. Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir. Bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biridir. Əlbəttə ki, gördüyümüz bütün bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur.

2016-cı ildə ölkə qarşısında duran demək olar ki, bütün əsas vəzifələr təmin edildi. Bildiyiniz kimi, Azərbaycan neftlə zəngin olan digər ölkələr kimi, neftin qiymətinin aşağı düşməsindən əziyyət çəkirdi. Ancaq neft ixrac edən bütün ölkələrin addımlarına nəzər salsaq görərik ki, Azərbaycan o ölkələrdəndir ki, bu böhranlı vəziyyətdən də uğurla çıxa bilmişdir. Neftlə zəngin olan bir neçə başqa ölkə var ki, bizim kimi bu vəziyyətdən uğurla çıxa bilmişdir. Neftin qiyməti isə 3-4 dəfə aşağı düşmüşdür.

Bu, o deməkdir ki, əsas gəlir mənbəyimiz olan neft bizə 3-4 dəfə az gəlir gətirmişdir. Biz əlbəttə ki, bu böhranlı vəziyyətdən çıxış yolunu tapmalı idik və hesab edirəm ki, tapmışıq. Bütün çətinliklərə, itkilərə baxmayaraq, biz iqtisadi sabitliyimizi qoruya bildik, bu ağır vəziyyətdən şərəflə çıxa bildik. 2016-cı ildə də ölkəmizdə iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılmışdır. Bir daha qeyd etmək istəyirəm, hər bir ölkənin inkişafı üçün əsas şərt təhlükəsizlikdir, sabitlikdir, vətəndaş həmrəyliyidir. Bu da bizdə var. Təhlükəsizlik qorunur, bir daha demək istəyirəm ki, xalqın iradəsinə əsaslanan sabitlik, vətəndaş birliyi və həmrəyliyi 2016-cı ildə daha da artmışdır. Bütün Azərbaycan xalqı vahid amal uğrunda birləşib ki, ölkəmizi daha da inkişaf etdirək və müstəqilliyimizi daha da möhkəmləndirək.

2016-cı ildə biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik və bu gözəl bayramı yaxşı nəticələrlə, uğurlarla qarşılamışıq.

İqtisadi sahədə 2016-cı ildə önəmli addımlar atılmışdır. 2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Bu il ərzində qəbul edilmiş qərarlar, qanunlar, mənim tərəfimdən imzalanmış sərəncamlar iqtisadi islahatları daha da dərinləşdirir və bizə imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına inkişaf edək. Qəbul edilmiş qərarlar artıq öz nəticəsini verməkdədir. Əminəm ki, bu nəticələr bu il və bundan sonrakı illərdə daha da qabarıq şəkildə özünü göstərəcək.

Ümumi daxili məhsul aşağı düşsə də, – bunun da əsas səbəbi neftin qiymətinin 3-4 dəfə aşağı düşməsidir və bundan irəli gələn investisiyaların, dövlət investisiyalarının azalmasıdır, – digər önəmli göstəricilər bizi sevindirir. Xüsusilə, ölkəmizdə qeyri-neft sənaye istehsalı keçən il 5 faiz artmışdır. Bu, o deməkdir ki, bizim uzun illər ərzində apardığımız siyasət öz nəticəsini göstərir. Sənayeləşmə, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, bax, bu, gözəl nəticəni təmin edibdir. Böhranlı ildə qeyri-neft sənayemizin 5 faiz artması, hesab edirəm ki, çox böyük göstəricidir.

Digər önəmli göstərici kənd təsərrüfatının inkişafıdır. Çünki hər bir ölkənin əsas inkişaf dinamikasını şərtləndirən sənaye və kənd təsərrüfatıdır. Kənd təsərrüfatında da görülmüş operativ tədbirlər nəticəsində inkişaf təmin edilmiş və kənd təsərrüfatı Azərbaycanda 2,6 faiz artmışdır.

Bax, bu iki rəqəm deməyə əsas verir ki, biz bu çətin və böhranlı şəraitdən şərəflə çıxa bildik və artıq görülmüş işlər və bu il görüləcək işlər bu dinamikanı daha da gücləndirəcək. İqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft sektorumuz inkişaf edəcək, yeni iş yerlərinin yaradılması təmin ediləcək və əminəm ki, biz dediyim bütün hədəflərə çatacağıq.

Baxmayaraq ki, gəlirlərimiz 3-4 dəfə aşağı düşüb, Azərbaycanda yaradılmış gözəl sərmayə iqlimi hesabına biz ölkəmizə 8 milyard dollar xarici investisiya cəlb edə bilmişik. Bu da çox gözəl göstəricidir. Çünki bu gün bütün dünyada iqtisadi böhran yaşanır, maliyyə çətinlikləri müşahidə olunur və belə vəziyyətdə xaricdən investisiya gətirmək çox çətin məsələdir. Biz bunu təmin

etmişik və ölkə iqtisadiyyatına 8 milyard dollar xarici sərmayə qoyulmuşdur. Daxili sərmayə isə 3,7 milyard dollar olmuşdur. Əvvəlki illərlə müqayisədə bu, daha aşağı rəqəmdir. Ancaq bu, başadüşüləndir, bunun səbəbi də bəllidir. Beləliklə, ölkə iqtisadiyyatına keçən il 11 milyard 700 milyon dollar sərmayə qoyulmuşdur. Bir daha demək istəyirəm ki, bu, çox gözəl göstəricidir. Bu göstəricinin mütləq rəqəmləri də çox böyükdür. Əgər bunu adambaşına hesablasaq görərik ki, biz bəlkə də dünya miqyasında ən qabaqcıl yerlərdən birini tuturuq.

2016-cı ildə əsas vəzifələrdən biri valyuta ehtiyatlarımızı, xüsusilə Neft Fondunun vəsaitini qorumaq idi. Biz buna nail ola bilmişik. Mən indi dünyada gedən proseslərə xalqımızın diqqətini bir daha yönəltmək istəyirəm. Demək olar ki, neftlə zəngin olan bütün ölkələrin valyuta gəlirləri böyük dərəcədə aşağı düşüb. Neft fondları, suveren fondlar, digər fondlar, pensiya fondları, bunların müxtəlif adları var. Bu fondlarda yığılan vəsait kəskin şəkildə aşağı düşmüşdür. Azərbaycanda isə biz demək olar ki, Neft Fondunun gəlirlərini qoruya bildik. Neft Fondunun gəlirləri cəmi 4 faiz aşağı düşmüşdür. Çünki biz valyuta ehtiyatlarımızın şaxələndirilməsi istiqamətində vaxtilə addımlar atmışıq. Bizim valyutamız həm dollarda, həm avroda, həm Britaniya funtunda saxlanılır. Dolların möhkəmlənməsi, avronun, funtun aşağı düşməsi nəticəsində bax, dollar ekvivalentində bizim Neft Fondumuzun valyuta ehtiyatları 4 faiz aşağı düşmüşdür. Əgər bu məzənnə fərqi olmasaydı, biz o az səviyyəli tənəzzülə də uğramazdıq. Yəni, bu gün Azərbaycan Dövlət Neft Fondunda 33 milyard dollar vəsait var. Biz bunu qorumuşuq, qoruyacağıq və əminəm ki, bu il bunu daha da artıracağıq.

Əlbəttə, böhrandan çıxmaq üçün ən asan yol valyuta ehtiyatlarını xərcləməkdir və biz bunu bəzi yerlərdə görürük. Ancaq biz gələcəyi düşünürük. Biz uzunmüddətli strategiyamızı qururuq. Biz illər boyu valyuta ehtiyatlarımızı qorumuşuq, yığmışıq, ölkə üçün lazım olan infrastruktur, sosial layihələrə yönəltmişik və bu gün də qoruyuruq, artırırıq və artırmalıyıq.

Bizim gördüyümüz işlər dünyanın aparıcı, mötəbər beynəlxalq iqtisadi və maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Bu da çox vacibdir. Çünki biri var bunu biz özümüz deyirik, biri də var ki, bunu beynəlxalq qurumlar qeyd edir. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 65-ci yerdədir. Bu, yaxşı göstəricidir. Əlbəttə, biz çalışmalıyıq ki, daha yüksək pilləyə çıxaq. Ancaq indiki şəraitdə dediyim bütün o amilləri nəzərə alaraq hesab edirəm ki, bu, kifayət qədər yüksək göstəricidir. Dünyanın aparıcı iqtisadi beynəlxalq forumunun – Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabət qabiliyyətliliyinə görə 3 pillə irəliləyərək 40-cı pillədən 37-ci pilləyə qalxmışdır. Bu da hesab edirəm ki, rekord göstəricidir. Biz MDB məkanında yenə də birinciyik və bu birinciliyi saxlamışıq. Bax, budur, beynəlxalq aparıcı iqtisadi qurumların hesabatları.

Düzdür, müxtəlif qeyri-hökumət təşkilatları var, hamımız bilirik ki, onlar haradan maliyyələşir, onların hədəfi bizə ləkə vurmaq, bizi qaralamaq, bizim işimizə kölgə salmaqdır. Onların illər boyu apardıqları antiazərbaycan kampaniyaları heç bir nəticə vermir. Onların reytinqlərinə heç fikir verməyə də dəyməz. Eyni zamanda, özlərini böyük iqtisadiyyatçı adlandıran bəzi yerli nümayəndələr də müxtəlif çıxışlar edirlər, müxtəlif qiymətlər verirlər. Tamamilə cəfəng fikirlərdir, bizim gözəl atalar sözü var: "İki uzunqulağın arpasını bölə bilməyən, bizə dərs öyrədir". Yəni, bütün bunlara fikir vermək lazım deyil. Əsas bizim uğurlu inkişafımızdır, aparıcı beynəlxalq iqtisadi qurumların qiymətidir və bizim reallığımızdır. Reallıq isə ondan ibarətdir ki, biz 2016-cı ildə bu böhranlı vəziyyətdən şərəflə çıxa bildik, ölkəmizdə 100 mindən çox daimi iş yeri açılmışdır, kənd təsərrüfatının, qeyri-neft sənayemizin inkişafı bizə imkan verir ki, biz gələcəyə nikbinliklə baxaq. Biz bu gün görüləcək işlər haqqında da danışacağıq. Bizim planlarımız kifayət qədər böyükdür və onların icrası nəticəsində ölkə iqtisadiyyatı öz dinamikasını sürətləndirəcək.

2016-cı ildə sosial məsələlər də öz həllini tapıb. Sosial siyasət daim bizim əsas prioritetlərimizdən biri olmuşdur. 2016-cı ildə maaşlar 7 faiz, pensiyalar 8 faiz artmışdır. Yenə də artmalıdır. Hesab edirəm ki, 2017-ci ildə də bu istiqamətdə müsbət dinamika olacaqdır. Biz ünvanlı sosial yardım ilə bağlı çox önəmli addımlar atmışıq. Yəni, ehtiyac içində yaşayan vətəndaşlara dövlət həmişə öz yardımını göstərir və göstərəcək. Bu yardımın məbləği artır və artmalıdır. Eyni zamanda, sosial ədalətlə bağlı 2016-cı ildə çox önəmli

addımlar atılmışdır, xüsusilə kommunal tariflərlə bağlı. Yenə də deyirəm, ehtiyac içində yaşayanlara dövlət öz yardım əlini uzadır və daim bunu edəcəkdir. Orta təbəqənin maraqlarının qorunması üçün çox ciddi institusional islahatlar aparılır, iş yerlərinin yaradılması ilə bağlı addımlar atılır.

Varlı təbəqə isə dövlətdən dotasiya, hansısa yardım gözləməməlidir. Ona görə kommunal tariflərin diferensiasiyası da bax, bu sosial ədalət prinsipini əsas prinsip kimi götürmüşdür və hesab edirəm ki, sosial məsələlərin həlli işində biz 2016-cı ildə əldə edilmiş uğurlarla fəxr edə bilərik. Gəlirlərimiz azalır, ancaq insanların maaşları artır. Sosial infrastruktur layihələri icra edilmişdir. 485 məktəb təmir edilmişdir, 29 yeni məktəb tikilmişdir, 41 xəstəxana tikilmiş və ya təmir edilmişdir. Bax, biz bu layihələrə lazımi qədər vəsait ayırırıq və bu, bir daha bizim sosial siyasətimizi göstərir.

Keçən il məcburi köçkünlərin problemlərinin həlli üçün yeni addımlar atılmışdır, yeni qəsəbələr salınmışdır. Bu il də bu proses davam edəcək, yəni, bu məsələ daim diqqət mərkəzindədir. Əlimizdən gələni edirik və edəcəyik ki, məcburi köçkünlərin vəziyyətini daha da yaxşılaşdıraq.

2016-cı ildə ictimai xidmətlər sahəsində işlər uğurla gedib, "ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatıb. Son illər ərzində 13 milyon müraciət olmuşdur və vətəndaşların bəyənmə əmsalı təxminən 100 faizə yaxındır. Bu da ictimai xidmətlər, ümumiyyətlə, ictimai münasibətlər sahəsində bir inqilab idi və bu, artıq Azərbaycan brendidir. Artıq bəzi ölkələr bizim təcrübəmizi tətbiq etməyə başlamışlar. Keçən il "ASAN xidmət" öz funksiyalarını genişləndirdi, "ASAN Kommunal", "ASAN Qatar", "ASAN Viza" təşəbbüsləri irəli sürüldü. Onu da qeyd etməliyəm ki, "ASAN Viza"nın fəaliyyəti nəticəsində ölkəmizə gələcək turistlərin sayı bundan sonra da artacaq. 2016-cı ildə biz bu istiqamətdə dönüş yarada bildik. Ümumiyyətlə, turistlərin axını dünyada mövcud olan iqtisadi durumla bağlıdır. Əgər vəziyyət yaxşıdırsa, daha çox insanlar xarici ölkələrə turist kimi gedirlər. Ancaq bu gün dünyada, dünyanın demək olar ki, bütün bölgələrində iqtisadi böhran yaşanır. Buna baxmayaraq, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 11 faiz artmışdır və əminəm ki, bu il daha da artacaq.

Keçən il ölkəmizdə 35 mehmanxana tikilmişdir, 25 mehmanxana tikilməkdədir, ümumiyyətlə, mehmanxanaların sayı Azərbaycanda 500-dən çoxdur. Amma tələbat daha da artır, daxili turizm inkişaf edir. Mən çox şadam ki, Azərbaycan vətəndaşları daha çox Azərbaycanda istirahət etməyə üstünlük verirlər. Bizdə gözəl təbiət, gözəl şərait, gözəl mehmanxanalar, istirahət zonaları var. Bu gün bütün dünyadan turistlər Azərbaycana axışırlar. Bu da ölkə iqtisadiyyatına böyük mənfəət gətirir. Biz gələcəkdə turizmdən milyardlarla dollar vəsait qazanacağıq və bu, bizim iqtisadi vəziyyətimizə çox böyük dəstək olacaqdır.

Keçən il bizim beynəlxalq əlaqələrimiz daha da genişləndi. Azərbaycan uzun illər ərzində beynəlxalq aləmdə artıq çox etibarlı, ləyaqətli tərəfdaş kimi tanınır. Xüsusilə son illər ərzində dünyada böhranların, müharibələrin, qeyri-sabit vəziyyətin genişləndiyi bir şəraitdə bizim nümunəmiz əlbəttə ki, daha çox diqqət cəlb edir və bizə daha böyük rəğbətlə yanaşırlar.

Azərbaycan çox böyük müsbət beynəlxalq imicə malikdir. Beynəlxalq təşkilatlarda bizim sözümüz keçir və təsirimiz artır. Biz beynəlxalq əlaqələrimizi bu il də genişləndirəcəyik. Keçən il ölkəmizə 20-yə yaxın dövlət və hökumət başçısı rəsmi və işgüzar səfərlər etmişdir. Bu da bir göstəricidir. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işləmişik. İslam Əməkdaşlıq Təşkilatı Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel ayında Azərbaycana Ermənistan tərəfindən edilən təcavüzlə bağlı kontakt qrupu yaratdı. Bu qrup artıq fəaliyyətə başlayır. Bu, bizim böyük uğurumuzdur. Son illər ərzində bizim fəaliyyətimiz nəticəsində Qoşulmama Hərəkatı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı qətnamələr qəbul etmişdir.

Dağlıq Qarabağ münaqişəsinin həlli yolları bəllidir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bizim ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bütün işğalçı qüvvələr bizim torpaqlarımızdan çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Keçən il ATƏT də bu məsələ ilə bağlı öz ciddi sözünü demişdir – status-kvo qəbuledilməzdir. Bu, aksiomdur və bu, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması deməkdir. Budur, münaqişənin həlli yolları. Bunun başqa yolu ola bilməz. Azərbaycan heç vaxt öz torpağında ikinci qondarma erməni dövlətinin

yaranmasına icazə verməyəcək. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. İşğalçı rejim, Ermənistan rəhbərliyi bunu nə qədər tez dərk etsə, bu, onlar üçün o qədər də yaxşı olacaq.

2016-cı ilin aprel ayında Azərbaycan dövləti və Azərbaycan Ordusu işğalçılara çox ciddi zərbələr vurmuşdur. Növbəti erməni hərbi təxribatına cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu, bizim şanlı tarixi qələbəmizdir. Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir. Bir daha onu göstərir ki, biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik. Minlərlə hektar torpaq işğalçılardan boşaldıldı. İndi orada təmizlik işləri, bütün mənalarda təmizlik işləri aparılır. Azərbaycan Ordusu indi on minlərlə hektar torpağa nəzarət edir. İndi o ərazilərdə işğalçıların izi-tozu qalmayıb. Biz o bölgələrdə lazımi tədbirləri görəcəyik ki, vətəndaşlarımız oraya qayıtsınlar və artıq bu proses başlayır.

Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Biz hərbçilərimizlə fəxr edirik. Bu döyüşlər zamanı Azərbaycan xalqı bir daha öz birliyini nümayiş etdirmişdir. Beləliklə, hesab edirəm ki, 2016-cı il münaqişənin həlli ilə bağlı çox önəmli il olmuşdur. Çünki qarşı tərəf – Ermənistan təşviş içində idi, vasitəçilərdən xahiş edirdi ki, tezliklə bu döyüşlər başa çatsın və onlar danışıqlar prosesinə qayıtmağa hazır olduqlarını bildirmişlər. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, onlar müxtəlif beynəlxalq təşkilatlara, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmişlər. Baxmayaraq ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu məsələ ilə heç bir əlaqəsi yoxdur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına bu vaxta qədər rəhbərlik etmiş şəxslər sadəcə olaraq, böyük siyasi səhv buraxaraq ermənipərəst mövqe və qəbuledilməz fikirlər ifadə etmişlər. İndi biz hamımız onların aqibətinin necə olduğunu yaxşı bilirik. Yəni, aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda, illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Xaricdən silahlar, pullar, digər yardımlar olmasa, onlar bir həftə ərzində bizim qabağımızda duruş gətirə bilməzlər. Bunu özləri də etiraf edirlər. Biz bunu çoxdan bilirdik.

Biz həmişə olduğu kimi, konstruktiv mövqe tuturuq, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq normaları da həmçinin. Tarixi həqiqət də bizim mövqeyimizi möhkəmləndirir. Hərbi güc də, iqtisadi potensial da, siyasi nüfuz da bizdədir. Yəni, biz məsələni istədiyimiz kimi həll edəcəyik. Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını qaldırmaqdır. Budur, bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik. Aprel döyüşləri bu istiqamətdə çox önəmli tarixi addım olmuşdur.

Keçən il digər vacib hadisələr baş verdi. Biz enerji siyasətimizin təkmilləşdirilməsi istiqamətində növbəti addımlar atdıq. "Cənub" qaz dəhlizinin icrası uğurla davam etdirildi. Baxmayaraq ki, neft gəlirlərimiz üç-dörd dəfə azaldı, biz xaricdən kreditlər aldıq, eyni zamanda, daxili vəsait hesabına "Cənub Qaz Dəhlizi" və "Şahdəniz-2" layihələrinin icrası ilə bağlı bütün lazımi addımları atdıq. Deyə bilərəm ki, "Şahdəniz-2" layihəsi üzrə, – bu gün "Şahdəniz" dünya miqyasında ən böyük qaz-kondensat yataqlarından biridir, – işlərin 90 faizi artıq tamamlanıb və gələn il tamamilə başa çatacaq. TANAP layihəsinin böyük hissəsi icra edilib və "Cənub" qaz dəhlizinin digər seqmentləri istiqamətində də işlər gedir. Biz keçən il Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının ikinci toplantısını keçirdik. O toplantıda iştirak edən bütün ölkələr, Avropa Komissiyası, Amerika Birləşmiş Ştatları və "Cənub" qaz dəhlizinin bütün üzvləri qəbul edilmiş bəyanatda Azərbaycanın liderliyini bir daha göstərmişlər. Biz bu layihənin lideriyik, təşəbbüskarıyıq, aparıcı qüvvəsiyik. Biz o layihəni bütün dostlarımızla, tərəfdaş ölkələrlə və beynəlxalq təşkilatlarla birlikdə icra edirik.

Keçən il nəqliyyat sektorunda önəmli hadisələr baş vermişdir. Xüsusilə Şimal-Cənub dəhlizinin yaradılması istiqamətində çox ciddi addımlar atılmışdır. Keçən ilin yaz aylarında mən göstəriş vermişdim ki, ilin sonunadək bizim dəmir yolumuz İran sərhədinə qədər çatdırılmalıdır və artıq biz buna nail olduq. Təqribən 7-8 ay ərzində çatışmayan o hissəni inşa etdik və ondan əlavə, Astaraçay üzərində körpünü də biz tikdik və istifadəyə verdik. Yəni, Azərbaycan Şimal-Cənub dəhlizi ilə bağlı öz üzərinə düşən vəzifəni cəmi səkkiz ay ərzində yerinə yetirdi. İndi biz bu böyük layihənin işə düşməsi ilə bağlı əlavə təşəbbüslər irəli sürmüşük ki, bu prosesi sürətləndirək. Bu, həm bizə,

həm qonşu ölkələrə, bütün dünyaya lazımdır. Bu layihənin icrası nəticəsində Hindistandan, Pakistandan gələn yüklər Azərbaycan ərazisindən İrana, Rusiyaya, Şimali Avropaya və əks istiqamətdə gedəcəkdir. Bu, böyük nəqliyyat hərəkatına gətirib çıxaracaq. Milyonlarla ton yük ərazimizdən keçəcək və minlərlə iş yeri yaradılacaq. Biz bu layihənin icrası ilə, eyni zamanda, Naxçıvanı da dəmiryolu blokadasından çıxaracağıq. Naxçıvan İran ərazisindən dəmir yolu vasitəsilə Azərbaycanla birləşəcək. Yəni, bu, tarixi layihədir və biz bunu qonşu, dost ölkələrlə birlikdə icra edirik.

2016-cı ildə idmançılarımız da bizi böyük qələbə ilə sevindirdilər. Rio Olimpiya Oyunlarında biz tarixi qələbə qazanmışıq. On səkkiz medal qazanmışıq və medalların sayına görə biz dünya miqyasında 14-cüyük, Avropada 7-ci, keçmiş sovet respublikaları arasında Rusiyadan sonra 2-ci və müsəlman aləmində birinciyik. Bax, bu göstəricilər hesab edirəm ki, hər şeyi göstərir. Bu, bizim növbəti böyük qələbəmizdir.

Azərbaycan xalqı ötən il keçirilmiş referendumda bir daha öz iradəsini ifadə etdi, bizim siyasətimizə öz böyük dəstəyini verdi, bir daha göstərdi ki, apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Biz bunu bilirdik. Rəy sorğuları aparılır, ictimai fikir öyrənilir və ölkəmizdə hökm sürən ab-havanı əlbəttə ki, bilirdik. Ancaq referendum bunu həm bir daha bütün xalqımıza, eyni zamanda, dünyaya göstərdi. Referendumu müşahidə edən beynəlxalq təşkilatların nümayəndələri bir dənə də olsun pozuntu aşkar etməyiblər. "Exit-poll"ların nəticələri rəsmi nəticələrlə üst-üstə düşdü. Beynəlxalq təşkilatlar, xüsusilə Avropa Şurası referendumun keçirilməsinə çox müsbət qiymət verdi və sonra bunu Strasburqda öz qərarı ilə təsdiqlədi. Referendum şəffaf, ədalətli, azad şəkildə keçirildi. Bu, həm demokratiya istiqamətində növbəti addımdır, həm də onu göstərir ki, Azərbaycanda seçki prosesi böyük dərəcədə təkmilləşib. Eyni zamanda, bir daha demək istəyirəm ki, bu, xalq tərəfindən bizə verilən böyük dəstəkdir və o dəstək ki, ölkə iqtisadiyyatı üçün ən ağır il olan 2016-cı ildə göstərildi. Mən bu dəstəyə görə bir daha Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm və bir daha qeyd etmək istəyirəm ki, bundan sonra da Azərbaycan inamla inkişaf edəcəkdir.

Keçən il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu, hesab edirəm ki, dünya miqyasında nadir bir hadisə idi. Bilmirəm, bu vaxta qədər hansısa bir ölkədə "Multikulturalizm ili" elan edilmişdir, yoxsa yox. Ancaq söhbət ondan getmir. Söhbət ondan gedir ki, 2016-cı ili "Multikulturalizm ili" elan etməyimiz çox böyük məna daşıyırdı. Bu, həm bizim siyasətimizi, cəmiyyətimizin əhvali-ruhiyyəsini göstərir, gördüyümüz işləri, görüləcək işlərimizi əks etdirir. Azərbaycan doğrudan da dünya miqyasında multikulturalizmin mərkəzidir. Biz bu mövzu ətrafında söhbətlərə, beynəlxalq tədbirləri keçirməyə başlayanda hələ miqrantlar böhranı yox idi, hələ Avropada, başqa yerlərdə ayrı-seçkilik o qədər də özünü büruzə vermirdi. Keçən il bu, ifrat dərəcəyə çatdı. Keçən il biz bəzi Avropa ölkələrində miqrantlara qarşı alçaldıcı hərəkətləri, islamofobiya ilə bağlı artıq açıq-aşkar aqressiv siyasəti gördük. Belə bir fonda "Multikulturalizm ili" elan etmək və onu ləyaqətlə sona çatdırmaq bir daha bizim siyasətimizi, gücümüzü, niyyətimizi göstərir.

Biz keçən il bir neçə mötəbər tədbir keçirmişik. Mən onlardan BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusi qeyd etmək istəyirəm. Ənənəvi Bakı Beynəlxalq Humanitar Forumu da, digər tədbirlər də çox uğurla keçdi. Roma Papasının Azərbaycana səfəri və səfər zamanı verdiyi bəyanatlar da xüsusi qeyd edilməlidir. Bax, budur Azərbaycanın bu işə verdiyi töhfələri. Biz nəinki ölkə daxilində millətlərarası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya da nümunə göstəririk. Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk.

2016-cı ildə əlbəttə, çox hadisələr baş vermişdir. Bütün bu hadisələr, hətta önəmli hadisələr haqqında danışmaq üçün saatlarla vaxt lazımdır. Sadəcə mən vacib hesab etdiyim məqamları ifadə etdim, həm təhlil olaraq, həm də gələcək platforma kimi. Biz bundan sonra da bu yolla gedəcəyik.

***

Sonra Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyev və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov çıxış etdilər.

## Prezident İlham Əliyevin yekun nitqi

– Əminəm ki, ölkəmiz 2017-ci ildə uğurla inkişaf edəcək. Bütün sosial proqramlar icra ediləcək və iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılacaq.

2016-cı ilin iqtisadi göstəricilərini təhlil edərkən biz görürük ki, ümumi daxili məhsulun azalmasının əsas səbəbi dünya bazarlarında neftin qiymətinin aşağı düşməsidir və bundan irəli gələn dövlət investisiyalarının azalmasıdır. Ən çox tənəzzül inşaat sektorunda müşahidə olunurdu. İl ərzində görülmüş tədbirlər nəticəsində inşaat sektorunun canlandırılması istiqamətində önəmli addımlar atılmışdır. 2017-ci ildə də inşaat sektorunun inkişafı ilə bağlı lazımi tədbirlər görüləcək. Beləliklə, əminəm ki, Azərbaycanda bu il inşaat sektoru inkişaf edəcək.

Bir çox layihələrin icrası nəzərdə tutulur. Onların arasında xüsusilə Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətini qeyd etmək istərdim. Keçən ay Yasamal rayonunda Mənzil İnşaatı Dövlət Agentliyinin birinci layihəsinə start verildi. Əminəm ki, bu layihə uğurla icra ediləcək. Layihə çərçivəsində yeni bir şəhərcik yaradılacaq, hündürmərtəbəli 29 yaşayış binasının tikintisi nəzərdə tutulur. Məktəb, uşaq bağçası tikiləcək, infrastruktur yaradılacaq, yollar çəkiləcək. İki minə yaxın mənzil tikiləcək və güzəştli şərtlərlə vətəndaşlara, xüsusilə maddi imkanları məhdud olan ailələrə uzunmüddətli kreditlə veriləcək.

Bununla yanaşı, Bakı şəhərində köhnəlmiş mənzil fondunun aradan qaldırılması və yerində müasir binaların tikintisi prosesinə də start verildi. Əfsuslar olsun ki, şəhərimizin müxtəlif yerlərində vaxtı keçmiş, yöndəmsiz, bəzi hallarda qəzalı vəziyyətdə olan binaların sayı kifayət qədər çoxdur. Onların yerində yeni, müasir yaşayış binalarının tikintisi artıq başlanıb. Birinci layihə keçən ilin sonlarında Sabunçu rayonunda icra edildi və yeni gözəl bina istifadəyə verildi. Binanın açılışında şəxsən özüm iştirak etmişəm. Ona görə ki, buna çox böyük diqqət göstərirəm və hesab edirəm, bu birinci layihə rəmzi xarakter daşıyır. Bu, böyük yeniliyə start verən bir addımdır. Bu gün tikilməkdə olan, yaxuddakı sənədləri hazırlıq mərhələsində olan hündürmərtəbəli 60 yaşayış binasının mövcudluğu göstərir ki, bu proses şəhərimizdə geniş vüsət almışdır. Söhbət ondan gedir ki, yararsız, qəzalı vəziyyətdə olan evlərin, binaların yerində hündürmərtəbəli müasir binalar tikilsin. Köhnə mənzillərdə yaşayan vətəndaşlar müvəqqəti olaraq kirayədə qalacaqlar və onlara kirayə pulu veriləcək. Yeni binalar tikiləndən sonra həmin vətəndaşlar yeni binalarda, Sabunçu rayonundakı kimi daha da böyük mənzillərə sahib olacaqlar. Orada bəzi vətəndaşların mənzil sahəsi iki dəfə böyükdür. Həm də ki, onlar təmirli və gözəl mənzillərdə yaşayacaqlar.

Bu layihənin, bu təşəbbüsün çox böyük mənası var. Çünki ilk növbədə biz köhnəlmiş mənzil fondunu aradan götürürük. Digər tərəfdən, yeni binalar mövcud binaların yerində tikiləcək və beləliklə, yeni yerlərə ehtiyac olmayacaq. Mən bunu xüsusi qeyd etmək istəyirəm ki, bundan sonra Bakı şəhərində və digər böyük şəhərlərdə boş yerlərin ayrılmasına çox ciddi nəzarət ediləcək.

Əgər sahibkarlar yaşayış binası tikmək istəyirlərsə, getsinlər vətəndaşların razılığını alsınlar, onların bütün məsələlərini həll etsinlər, kompensasiya ödəsinlər, yaxuddakı kirayə vəsaiti versinlər və o yerlərdə şəhər planına uyğun şəkildə, bütün memarlıq normalarına riayət etməklə binalar tiksinlər. Bax, yanaşma belə olmalıdır və çox ciddi nəzarət olmalıdır. Müvafiq göstərişlər, qərarlar verilmişdir.

Biz keçən ay “Ağ şəhər” layihəsinin beş illiyini qeyd etmişik. Beş il ərzində şəhər içində şəhər yaratmışıq. Dağılmış, neftlə çirklənmiş “Qara şəhər” ərazisində indi ekoloji təmiz, müasir layihə artıq icra edilir. Onun bir hissəsi artıq icra edilib. Növbəti mərhələdə “Ağ şəhər” ərazisində əlavə 60 yaşayış binası da tikiləcək.

Beləliklə, mən üç layihəni qeyd etdim. Üç layihə çərçivəsində şəhərimizdə hündürmərtəbəli 150 yaşayış binası tikiləcək. Bundan əlavə, indi onlarla tikinti meydançasında işlər gedir. Beləliklə, biz inşaat sektorunu canlandıracağıq. Bu, bizə nə verəcək? İlk növbədə, mənzil fondu yeniləşir. Digər tərəfdən, şəhər daxmalardan, “naxolstroy” adlandırılan qanunsuz binalardan təmizlənəcək. Şəhərin görkəmi daha da yaxşılaşacaq. Tikinti materialları sektoru canlanacaq. Biz artıq böyük bir sənaye sahəsini yaratmışıq. İnşaat materiallarının bir çoxu Azərbaycanda istehsal olunur. Yəni, burada yerli materiallardan söhbət gedir. İdxaldan asılılıq böyük dərəcədə azalıb. Bu, tikinti materialları sektorunun da inkişafına xidmət

göstərəcək. Təkcə sadaladığım layihələrin icrası nəticəsində minlərlə, on minlərlə yeni iş yeri yaradılacaq. Biz bilirik ki, keçən il bir neçə min iş yeri ixtisar olunub, xüsusilə inşaat sektorunda. Qeyd etdiyim kimi, inşaat sektorunda tənəzzül olmuşdur. Ona görə, biz bir neçə hədəfi güdmüş oluruq və şəhərimizin gözəlləşməsi, abadlaşması prosesi daha da sürətlə gedəcək. Bakı şəhəri indi dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu hamı etiraf edir. Mən istəyirəm ki, Bakının hər bir guşəsi, hər bir yeri, hər bir mikrorayonu şəhərin mərkəzində olan mənzərəyə uyğun olsun və biz buna nail olacağıq.

Digər inşaat layihələrinin icrası nəzərdə tutulur. Xüsusilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının arxasındakı ərazidə təmizlik, köçürmə işlərinin birinci mərhələsi başa çatıb. O yerlərdə yaşayış binaları tikilməyəcək. O yerlərdə ictimai yerlər yaradılacaq. Yeni yol infrastrukturu yaradılacaq. Bu il ərzində artıq təsdiqlənmiş layihə tam icra edilməlidir.

Biz yeni, böyük bir ictimai parkı şəhər sakinlərinə hədiyyə edəcəyik. Həmçinin ən müasir, geniş yol infrastrukturu da yaradılacaq. Eyni zamanda, bizim tarixi, dini abidəmiz olan Təzəpir məscidinin mənzərəsi tam fərqli olacaq. Təzəpir məscidinin qabağında böyük park yaradılacaq, ətrafı abadlaşdırılacaq. Beləliklə, həm məscidə giriş asanlaşacaq, eyni zamanda, kənardan da baxanda bizim tarixi, dini abidəmizin əzəməti daha da gözəl görünəcək.

İnşaat sektorunun inkişafı bütün bölgələrdə də nəzərdə tutulmalıdır. Bölgələrdə, şəhərlərdə hündürmərtəbəli binaların, sənaye zonalarının tikintisi prosesi getməlidir. Həm dövlət öz dəstəyini göstərəcək, həm də təbii ki, özəl sektor da burada fəal olmalıdır. Bununla bərabər, mən xüsusilə sahibkarlara müraciət edirəm, bax, dediyim layihələr çərçivəsində çox böyük işlər görüləcək. Ona görə, biz özümüzü hələ ki, hansı inşaat materialları ilə təmin edə bilmirik o sahələr yaradılmalıdır. İndi bizim İqtisadiyyat Nazirliyimizdə bütün məlumatlar var. Biz bir çox növlər üzrə inşaat materialları ilə özümüzü təmin edirik, bəzi malları idxal edirik. Bax, o malların istehsalı Azərbaycanda qurulmalıdır, həm idxaldan asılılıq azalacaq, həm də ki, özəl sektor, iş adamları buradan mənfəət götürəcəklər.

Bu il Azərbaycanda makroiqtisadi sabitlik təmin edilməlidir, inflyasiya birrəqəmli olmalıdır. Hesab edirəm ki, biz buna nail olacağıq. Makroiqtisadi sabitlik hər bir ölkənin iqtisadi dayanıqlılığı üçün əsas şərtlərdən biridir.

Mən giriş sözümdə qeyd etdim, baxmayaraq ki, neftin qiyməti kəskin şəkildə aşağı düşdü, biz valyuta ehtiyatlarımızı, xüsusilə Neft Fondunun ehtiyatlarını qoruya bilmişik. Bu il də valyuta ehtiyatlarımızı qorumalıyıq və əminəm ki, biz valyuta ehtiyatlarımızın artımına da nail olacağıq.

Keçən il bank sektorunun sağlamlaşdırılması istiqamətində önəmli addımlar atılmışdır, nəzarət gücləndirilmişdir, şəffaflıqla bağlı tədbirlər görülmüşdür, cəza tədbirləri, inzibati tədbirlər görülmüşdür. Bizim iqtisadiyyatımıza ən böyük zərbə vuran bank sektoru olmuşdur. Ona görə, bu sektorun təmizlənməsi, sağlamlaşdırılması, şəffaflaşması, beynəlxalq standartlara uyğunlaşması istiqamətində bu il də ciddi addımlar atılacaq. Qanunu pozan şəxslərə qarşı bundan sonra da ciddi mübarizə aparılacaq.

Mən qeyd etdim ki, baxmayaraq, 2016-cı il ağır il olmuşdur, qeyri-neft sənaye istehsalı artmışdır. Bu il sənaye potensialının inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır. Bizim artıq bir neçə sənaye parkımız var. Onların sırasında Sumqayıtdakı iki parkın fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm – Texnologiyalar Parkı və Kimya Sənaye Parkı. Sumqayıt Kimya Sənaye Parkında böyük müəssisələrin yaradılması prosesi davam edir. Oraya qoyulan investisiyaların həcmi bir milyard dolları ötüb. Keçən il Mingəçevir Sənaye Parkının təməli qoyuldu. Hesab edirəm ki, gələn aydan etibarən burada artıq bütün inşaat işləri də başlanmalıdır. Mingəçevir Sənaye Parkında – o, yüngül sənayeyönümlüdür, – birinci mərhələdə doqquz müasir fabrik tikiləcək və minlərlə iş yeri yaradılacaq.

Keçən il Pirallahıda dərman preparatlarının istehsalı ilə bağlı təməlqoyma mərasimi keçirilmişdir. Pirallahı adasında həm yeni sənaye zonası, həm də turizm infrastrukturu yaradılır. Əminəm ki, bu il bu istiqamətdə ciddi addımlar atılacaq. Neftçala sənaye zonasının inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. İranlı tərəfdaşlarımızla birlikdə avtomobil istehsalı zavodunun təməli qoyuldu. Digər bir neçə zavodun tikintisi nəzərdə tutulur. Balaxanı Sənaye Parkında yaxşı işlər gedir. Masallı şəhərində sənaye zonası üçün yer ayrılıb və indi infrastruktur işləri gedir. Mən də-

fələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, hər bir şəhərdə xüsusi sənaye sahəsi, sənaye parkı, zonası yaradılmalıdır. Artıq bu proses başlayır və digər şəhərlərdə də yerli icra orqanları, sahibkarlar əlbəttə ki, dövlətin dəstəyi ilə bu işləri görməlidirlər.

Keçən il kənd təsərrüfatının inkişafında uğurlu il olmuşdur. Biz artıma nail ola bildik. Bu il bu artım hesab edirəm ki, daha da böyük rəqəmlərlə ölçülməlidir. Kənd təsərrüfatı ilə bağlı bir neçə əsas istiqaməti qeyd etmək istərdim. Mən çox şadam ki, biz ilk növbədə Azərbaycanda uzun illər ərzində tənəzzülə uğrayan pambıqçılığı bərpa edə bilmişik. Artıq bərpa prosesi başlayıb. Biz pambıqçılığın şöhrətini qaytarırıq. Keçən il bir qədər gecikməyimizə baxmayaraq, biz yaxşı nəticələr əldə etdik.

Əgər 2015-ci illə müqayisə etsək, – 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdir, – görərik ki, 2016-cı ildə artıq 51 min hektarda pambıq əkilmişdir. Əgər 2015-ci ildə 35 min ton pambıq tədarük olunubsa, keçən il təxminən 90 min tona yaxın pambıq tədarük edilib. Bu il üçün bizim böyük planlarımız var. Bu planlar bu yaxınlarda qəbul ediləcək Dövlət İnvestisiya Proqramında da öz əksini tapacaq. Biz bu il pambıq sahələrini yenə də artırmalıyıq. Əgər keçən il 51 min hektarda pambıq əkilibsə, bu il ən azı 120 min hektarda pambıq əkilməlidir. Yəni, bu, real rəqəmdir, bir qədər az, bir qədər çox ola bilər, amma biz işimizi təxminən bu rəqəmlər ətrafında qurmalıyıq. Bütün lazımi tədbirlər görülüb, keçən il texnikalar alınıb, bu il də alınacaq. Lazımi aqrotexniki tədbirlər görülür. Yeni torpaq sahələrinə suyun verilməsi təmin edilir. Burada həm Prezident Administrasiyası, yerli icra orqanları, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Meliorasiya və digər qurumlar fəal işləyiblər. Biz bu il daha da yaxşı nəticələr gözləyirik. Ancaq bu il icra ediləcək bu layihə çərçivəsində 200 minə yaxın insan işə cəlb ediləcək. Biz subsidiyaları da, pambıq tarlalarında işləyənlərin tariflərini də qaldırmışıq və məşğulluğu da təmin edəcəyik. Qeyd etməliyəm ki, hazırda 27 rayonda pambıqçılıq inkişaf edir və biz bu il təxminən 200 min ton, ondan da çox pambıq tədarükünü gözləyirik.

Keçən il baramaçılıqla bağlı çox ciddi addımlar atılmışdır. Mən burada da bir neçə rəqəmi qeyd etmək istərdim. Əfsuslar olsun ki, bu sahə də tamamilə yaddan çıxmışdır. Əfsuslar olsun ki, əvvəlki illərdə tut bağlarının böyük hissəsi kəsilmişdir, dağıdılmışdır. İndi biz bunu bərpa edirik. 2015-ci ildə 200 kiloqramdan bir qədər çox barama tədarük edilmişdir, təkcə bir rayonda, Şəki rayonunda. 2016-cı ildə görülmüş tədbirlər nəticəsində bu rəqəm 70 tona çatıb. Bu il barama tədarükü keçən ilə nisbətən ən azı iki dəfə artmalıdır. Keçən il 1 milyon 700 min tut tingi əkilmişdir. Bölgələrdə bu sahəyə çox böyük maraq var. 30-40 gün ərzində insanlar yaxşı pul qazanırlar. Hazırda 37 rayonda baramaçılıq inkişaf edir. Əgər 2015-ci ildə bir rayonda idisə, hazırda 37 rayondadır və əlbəttə ki, bu coğrafiya da genişlənməlidir. Bax, əkilən bu tinglərin nəticəsində biz 2019-cu ildə 1300 ton barama istehsalını gözləyirik. Biz Şəki ipək kombinatının tam gücü ilə işləməsini də təmin edəcəyik.

Bizə kənd təsərrüfatı məhsulları arasında ən çox valyuta gətirən fındıqçılıqdır və xurma bağlarından əldə edilən məhsulun ixracıdır. Ona görə, biz bu iki istiqamətə də çox ciddi fikir vermişik. Keçən il 13 min hektarda fındıq bağları salınmışdır. Müqayisə üçün deyə bilərəm ki, bizim ümumi fındıq bağlarının sahəsi təxminən 30 min hektara yaxındır. Yəni, onun üçdəbir hissəsindən çoxunu biz bir il ərzində salmışıq və bu proses davam edir. Qarşıya məqsəd qoyulub ki, 2016-cı ildən başlayaraq bir neçə il ərzində biz əlavə 40 min hektarda fındıq bağları salaq və bu proses gedir. Bu, fermerlərin də böyük marağına səbəb olub. Bu, yaxşı gəlir mənbəyi olacaqdır. Burada da dövlət öz üzərinə böyük vəzifə götürüb. Çünki bütün bu lazımi avadanlıq, texniki tədbirlər və tinglərin alınması dövlət hesabına həyata keçirilir. Dövlət bunu alır və fermerlərə pulsuz verir. Bax, dövlətin bir daha demək istəyirəm ki, siyasəti özünü bu istiqamətdə də göstərir. Biz fındıqçılığın coğrafiyasını da genişləndiririk və hazırda 13 rayonda bu sahədə işlər gedir.

Valyuta gətirən ixrac məhsullarından biri olan badam Azərbaycanda əfsuslar ki, çox az istehsal edilir. Biz hətta özümüzü bu məhsulla təmin edə bilmirik. Cəmi 1000 hektar badam bağlarımız var. Onların da böyük əksəriyyəti Naxçıvan Muxtar Respublikasındadır. Halbuki Abşeron yarımadasında, Bakıətrafı qəsəbələrdə və digər bölgələrdə badamçılıq üçün çox münbit təbii iqlim var. Ona görə, bu istiqamətdə də işlər görülməlidir, lazımi

tədbirlər görülür, göstərişlər verilib, bax, bu sahə də inkişaf edəcək.

Zeytunçuluq. Əfsuslar olsun ki, biz özümüzü zeytunla təmin edə bilmirik. Yeni zeytun massivləri, plantasiyaları salınacaq və yığım tam təmin edilməlidir. Bəzi hallarda zeytun ya ağaclarda qalıb çürüyür, ya da yerə tökülüb zay olur. Burada da bütün işlər tənzimlənməlidir. Biz nəinki özümüzü tam təmin etməliyik, hətta böyük ixrac potensialımız da yaradılmalıdır.

Tütünçülüklə bağlı tədbirlər görülür. Artıq biz quru tütünü ixrac etmək üçün müvafiq danışıqlar aparmışıq və razılaşmalar əldə edilibdir. Keçən il 3500 ton quru tütün tədarük edilib. Bizim məqsədimiz birinci mərhələdə onu 3 dəfə artırmaqdır. Yəni, Azərbaycanda 10 min ton quru tütün istehsal olunmalıdır, oluna bilər. Sovet vaxtında 50-60 min ton quru tütün istehsal olunurdu. Bunun ərazisi də bəllidir və həmin torpaqdır. Sadəcə olaraq, fermerlərə kömək etmək lazımdır. Bu köməyi edirik və ondan sonra biz bunun ixracını da təmin etməliyik. Yeni ixrac bazarlarının axtarılması ilə bağlı çox ciddi addımlar atılır. Bu da valyuta gətirən sahədir.

Nar, xurma bağlarının genişləndirilməsi istiqamətində işlər gedir. Üzümçülüklə bağlı hesab edirəm ki, daha da ciddi işlər aparılmalıdır və mənim tərəfimdən müvafiq göstərişlər verilib. Burada da həm yeni üzüm bağlarının salınması, eyni zamanda, şərab zavodlarının səmərəli fəaliyyəti, keyfiyyətin artırılması vahid bir kompleks yaratmalıdır.

Mən statistika ilə maraqlandım. Azərbaycanda il ərzində 20 milyon butulka şərab istehsal olunur. İxrac isə çox azdır. Bizim sahibkarlar şərab ixracından cəmi 2-3 milyon dollar pul əldə edirlər. Ona görə, Azərbaycan şərabını dünya bazarlarına çıxarmaq üçün çox ciddi addımlar atılıb. Biz bir neçə beynəlxalq sərgidə iştirak etmişik, kontraktlar bağlanıbdır. Dost, tərəfdaş ölkələrlə biz birbaşa bu danışıqları aparırıq ki, onlar öz bazarlarında bizim şərabımız üçün kvota ayırsınlar, biz öz şərabımızı ixrac edə bilək. Sahibkarlar da burada daha da fəal olmalıdırlar, onların marağındadır. Amma bizdə şərabçılıqla bağlı olan bu vəziyyət ciddi təhlil edilməlidir, həm iqtisadi qurumlar, həm Vergilər Nazirliyi və hüquq-mühafizə orqanları tərəfindən. Çünki burada çox qəribə bir mənzərə üzə çıxır. Bizim mövcud şərab zavodlarımızın illik istehsal gücü 100 milyon butulkadır. Bu zavodların böyük əksəriyyəti son illər ərzində tikilib, oraya böyük vəsait də qoyulub və müasir avadanlıq quraşdırılıb. Necə ola bilər ki, 100 milyon butulka istehsal gücü olan zavodlarda cəmi 20 milyon butulka şərab istehsal olunur. Ya bu pulu qoyan sahibkar pulunun qədrini bilmir, ya da ki, orada istehsal daha da böyükdür, o qeydiyyata düşmür. Necə deyərlər, orada qanunsuz istehsal baş verir. Ona görə, bu məsələ ciddi araşdırılmalıdır və qeyd etdiyim kimi, bütün müvafiq qurumlar mənə arayış hazırlasınlar və bu sahədə də qayda-qanun yaradılmalıdır. Bu, böyük gəlir gətirə biləcək bir sahədir. Vaxtilə Ulu Öndərin dövründə, 1970-ci illərdə 2 milyon ton üzüm yığılırdı. Kəndlilər böyük vəsait əldə etmişdilər. Əfsuslar olsun ki, sonra həm sovet rəhbərliyi, həm də ki, sovet rəhbərliyinin xoşuna gəlmək istəyən yerli rəhbərlər üzüm bağlarının bir hissəsini qırmışlar. Ancaq biz indi bərpa edirik. Bərpa edərkən biz gərək bütün zənciri nəzərə alaq, yoxsa üzüm bağlarını salacağıq, sonra hara satacağıq, harada emal olunacaq, harada satılacaq? Bax, bu vahid kompleks tədbirlər görülməlidir və burada aydınlıq olmalıdır.

Biz çayçılığı da bərpa edirik. İndi yüzlərlə hektar çay bağları salınıb, çayçılıqla bağlı yeni texnologiyalar var və bu da cənub zonasının iqtisadi inkişafını təmin edəcək. Biz özümüzü keyfiyyətli çayla təmin etməliyik və xaricə də Azərbaycanda yetişdirilən çay ixrac etməliyik. Çünki hazırda biz daha çox xaricdən gətirilən çayı burada paketləyib ixrac edirik. O da yaxşıdır. Hər halda çayı idxal etməkdən daha yaxşıdır. Ancaq çalışmalıyıq ki, bizim emal müəssisələri yerli məhsul əsasında fəaliyyət göstərsin və bu, təkcə çayçılığa aid deyil. Biz çalışmalıyıq ki, Azərbaycanda məhsullar yerli xammal əsasında istehsal olunsun və ixrac edilsin. Bax, məqsəd bundan ibarətdir.

Keçən il heyvandarlıqla bağlı ciddi addımlar atılıb. İndi yeni layihələr icra edilir. Biz bundan sonra heyvandarlığı ancaq qapalı şəraitdə inkişaf etdirməliyik. Bu, daha səmərəlidir və eyni zamanda, bizə imkan verəcək ki, bu gün səmərəsiz istifadə olunan örüş torpaqlarından səmərəli şəkildə istifadə edək. Onların təyinatı dəyişdirilməlidir. İndi harada mümkündür işlər gedir və biz onları da əkinə cəlb etməliyik.

Bir sözlə, kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir. Ona görə, mən bu sahəyə bu gün də ümumiyyətlə çox böyük diqqət ayırıram. Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm ixracdır. Biz ixracı şaxələndirməliyik və ilk növbədə kənd təsərrüfatı məhsulları hesabına. Biz realist olmalıyıq. Biz indi texnologiya ixrac edə bilmirik və edə bilmərik, vaxt lazımdır. Biz istədiyimiz səviyyədə maşın, mexanizm ixrac edə bilmirik. Heç özümüzü də təmin edə bilmirik. Biz nəyi ixrac edə biliriksə, diqqətimizi o real sektora yönəltməliyik. Burada kənd təsərrüfatı, emal sahəsi əlbəttə ki, ən böyük potensiala malikdir. Torpaqlardan səmərəli istifadə etməliyik və ixracımızı şaxələndirməliyik. Hesab edirəm ki, biz görüləcək tədbirlər sayəsində kənd təsərrüfatı məhsulları ixracını iki dəfə artıra bilərik. Bu, ölkəmizə daha çox valyuta, kənddə yaşayanlara isə əlavə vəsait gətirəcək.

Əlbəttə ki, bütün bu işləri görmək üçün infrastruktur olmalıdır və son illərdə bu istiqamətdə çox böyük addımlar atılmışdır. Qeyd etməliyəm ki, elektrik enerjisi ilə bağlı addımlar atılır. Qazlaşdırma Azərbaycanda 92 faizə çatıb. Düzdür, hələ ki, mindən çox kənddə qaz yoxdur. Onu da biz bilməliyik. Bu proses – kəndlərin qazlaşdırılması prosesi gedir, bu il də, gələn illərdə də gedəcək. Ancaq, ümumiyyətlə, ölkəmizdə qazlaşdırılmanın səviyyəsi 92 faizə çatıb. Bu da hesab edirəm ki, çox gözəl göstəricidir.

Kənd yollarının tikintisi keçən il də uğurla aparılmışdır. Bu il 40 layihənin həyata keçirilməsi nəzərdə tutulur. Yəni, 40 layihə, ən azı 40 kənd yolu layihəsi, – əlbəttə ki, kəndlərin sayı daha da çox olacaq, çünki hər bir layihə bir neçə kəndi birləşdirir, – ən azı 40 layihə bu il icra ediləcək və lazımi səviyyədə vəsait də bu məqsədlər üçün ayrılacaq. Bu, həm insanların rahatlığı deməkdir, həm də kənd təsərrüfatının inkişafı üçün lazımdır.

İçməli su layihələrinin icrası bu il də davam edəcək. Artıq bir çox şəhərlərimizdə içməli su layihələri başa çatıb.

Hərbi potensialımızın gücləndirilməsi üçün əlavə tədbirlər görüləcək. Büdcədə kifayət qədər vəsait ayrılıb. Hərbi xərclər bizim büdcə xərcləri arasında birinci yerdədir. Bu, belə də olmalıdır. Biz müharibə şəraitində yaşayırıq. Bütün böhranlara, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, biz ordumuzu ən müasir silah-sursat, texnika ilə təmin edirik. Keçən il çox önəmli addımlar atılmışdır. Ən müasir silahlar ölkəmizə gətirilmişdir və bu il də bu proses davam edəcək. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, həm döyüş qabiliyyəti, həm təminat-təchizat baxımından. Bizim yüksək dəqiqliyə, dağıdıcı qüvvəyə malik olan ən müasir silahlarımız var. Onların bir hissəsi nümayiş etdirilib, bir hissəsi isə nümayiş etdirilməyib. Lazım olan vaxtda, lazım olan yerdə onlar nümayiş etdiriləcək.

Sosial infrastrukturun yaradılması bu il davam etməlidir. Mən qeyd etdim ki, keçən il 500-dən çox məktəb tikilib, təmir edilib. Bizim məqsədimiz ondan ibarətdir ki, 2017-2018-ci illərdə Azərbaycanda bir dənə də olsun qəzalı vəziyyətdə məktəb qalmasın. Bax, qarşıya belə məqsəd qoyulub. Bu layihələri biz iki ilə bölürük, bu il və gələn il. Vəsait nəzərdə tutulur. Təhsil Nazirliyi yeni layihələr təqdim edib. Xüsusilə ucqar kəndlərdə bütün müasir avadanlıqla təmin edilən və tezliklə istifadəyə verilə bilən modul tipli məktəblərin tikintisi getməlidir. Səhiyyə ocaqları da həmçinin. Biz demək olar ki, bütün şəhərlərdə ən müasir xəstəxanaları tikmişik, yaxud da ki, əsaslı təmir etmişik. Harada lazımdırsa, yenə də bu işlər davam etdiriləcək.

Ekoloji tədbirlər bu il də aparılmalıdır. Çirklənmiş ərazilər təmizlənməlidir. Modul tipli sutəmizləyici qurğular yaradılmalıdır. Yüzlərlə kənddə bu qurğular quraşdırılıb və bu proses davam etdirilməlidir.

Son bir neçə il ərzində ölkəmizdə ağacəkmə kampaniyası çox geniş vüsət almışdır. Bu il də bu işlər aparılmalıdır. Ancaq hesab edirəm ki, bundan sonra daha çox dekorativ ağaclar yox, yəni, barverən ağaclar əkilməlidir. Ona görə bütün rayonlarda da iqlimə uyğun şəkildə ağacəkmə prosesi davam edəcək. Ancaq bunun həm iqlimə, ekologiyaya, həm də ki, iqtisadiyyata müsbət təsiri olmalıdır. Ona görə müvafiq tədbirlər görülməlidir, tinglər tədarük edilməlidir. Yaxud da harada ki, çatışmır xaricdən gətirilməlidir, bu işlərə vəsait ayrılmalıdır.

Mən hesab edirəm ki, 2017-ci il turizmlə bağlı daha da uğurlu olacaq. Baxmayaraq ki, bu il turistlərin sayı 11 faiz artıb. Ancaq görülən tədbirlər nəticəsində əminəm ki, bu il daha da çox turist gələcək. Burada əlbəttə ki, bir neçə amil var. İlk

növbədə ölkəmizə gəlmək üçün indi heç bir problem yoxdur. Bütün süni əngəllər aradan götürüldü və burada məruzə edildi. "ASAN Viza" və digər xidmətlər vasitəsilə turistlər Azərbaycana maneəsiz gələcək. Bu, ölkə iqtisadiyyatına çox böyük dəstək olacaq. Həm Bakıda, həm bölgələrdə böyük canlanma olacaqdır. Bizim turizm infrastrukturu da buna hazır olmalıdır. Yenə də sahibkarlar, bax, bu amili nəzərə alsınlar. İkiulduzlu, üçulduzlu otellərin tikintisinə daha çox fikir verilməldir. Çünki bu gün turistlər hara gedir? Harada ki, təhlükəsizlik, əmin-amanlıq, xaricilərə xoş münasibət, gözəl mənzərə, tarixi abidələr, yaxşı xidmət, yaxşı otellər var. Bunların hamısı bizdə var. Bəziləri bizə tarixdən qalıb, bəzilərini biz özümüz yaratmışıq. Ona görə Azərbaycanı dünyada daha çox tanıyırlar. Bizim keçirdiyimiz beynəlxalq tədbirlərin məqsədi budur. Biz ildə bir neçə mötəbər beynəlxalq tədbir keçiririk. Qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışlarını keçiririk, Avropa Oyunları, "Eurovision", Formula-1 ki, 500 milyon auditoriyası var. İndi Formula-1 kimi bizim turizm potensialına dəstək verən ikinci beynəlxalq tədbir ola bilməz. Çünki ikinci belə beynəlxalq tədbir ancaq Yay Olimpiya Oyunları ola bilər. Amma Yay Olimpiya Oyunları bir dəfə keçirilir. Özü də o qədər böyük – milyardlarla vəsait tələb edir. Ancaq Formula-1 hər il keçirilir. Artıq bütün infrastruktur var. Əlbəttə ki, turizmin inkişafı bundan sonra da sürətlə getməlidir.

"ASAN xidmət"lə bağlı burada məruzədə planlar haqqında deyildi. Qeyd etməliyəm ki, biz coğrafiyanı bundan sonra da genişləndirəcəyik və "ASAN xidmət"in funksiyalarını da genişləndirəcəyik. Çünki o, öz səmərəliliyini artıq göstərib. Vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndirilir. Ona görə hər bir dövlət qurumunda və ictimai sahədə şəffaflıq "ASAN xidmət"dəki kimi olmalıdır.

Bu il biz "Cənub" qaz dəhlizinin yaradılması ilə bağlı çox böyük işlər görəcəyik. Bu il həlledici il olacaq. Bu nəhəng layihəni maliyyələşdirmək üçün bizim kifayət qədər öz vəsaitimiz var. Beynəlxalq maliyyə qurumları da bu layihəyə vəsait ayırırlar. Ona görə yox ki, bizə belə xüsusi xoş münasibət bəsləyirlər. Ona görə ki, bu, səmərəli layihədir. İndi beynəlxalq maliyyə qurumları elə layihələri axtarırlar ki, o layihələr pul gətirsin. Bax, "Cənub Qaz Dəhlizi" o layihələrdəndir. Bu layihə həm iqtisadi cəhətdən çox səmərəlidir, həm də ki, enerji təhlükəsizliyi baxımından bir çox ölkələrin maraqlarını təmin edəcək, ilk növbədə Azərbaycanın. Ona görə, əgər kimsə düşünürsə ki, bu layihənin icrası ilə bağlı bizdə problem olacaq, o, səhv edir. Mən nəyə görə bunu deyirəm? Çünki bilirəm ki, bəzi siyasi dairələr neftin qiymətinin düşməsi ilə bağlı yaranmış vəziyyətdən istifadə edərək deyirlər ki, Azərbaycanın indi pulu azalıb, Azərbaycan indi ağır, çətin vəziyyətə düşüb, "Cənub" qaz dəhlizini maliyyələşdirmək üçün pulu yoxdur, ona görə, gəlin Azərbaycana təzyiq edək, öz tələblərimizi qoyaq, öz maraqlarımızı təmin edək ki, o şərtlə biz Azərbaycana kredit verə bilərik. Bax, bu, keçən il ərzində müşahidə edilən mənzərə idi, çox ucuz, necə deyərlər, çox ləyaqətsiz hərəkətlər idi.

İlk növbədə, heç bir kənar qüvvə bizi istəmədiyimiz layihəyə cəlb edə bilməz, bu, birincisi. Bizim üçün əsas dövlətimizin, xalqımızın maraqlarıdır. İkincisi, heç kim bizə heç nəyi diktə edə bilməz. Bunu yaxın tarix artıq göstərib, bütün bu səylər əbəsdir. Bizi bu vəziyyətlə şantaj etmək istəyənlər, sadəcə olaraq, özlərinə hörmət etmirlər və onlara olan-qalan, azalan inamı da tamamilə aradan götürürlər. Biz "Cənub Qaz Dəhlizi"ni də, bütün başqa layihələri də icra edəcəyik. Yenə də deyirəm, bu layihənin icrası bizə də, Avropaya da lazımdır. Bu layihənin icrası nəticəsində onların enerji təhlükəsizliyi təmin ediləcək. Ona görə, belə ucuz şantaj hərəkətləri yersizdir. Ancaq onu da qeyd etməliyəm ki, biz təkcə Avropa maliyyə qurumları ilə işləmirik, biz Asiya maliyyə qurumları ilə də işləyirik və daha da səmərəli işləyirik, daha asan yolla vəsait əldə edirik. Misal üçün, Asiya İnkişaf Bankı bu layihəyə böyük vəsait ayırır, özü də qısa müddət ərzində. Asiya İnfrastruktur Bankı da – biz özümüz də bu bankın təsisçisiyik, qısa müddət ərzində böyük vəsait ayırıb. Bu qaz Asiyaya getməyəcək, Avropaya gedəcək, ancaq vəsaiti biz Asiyadan alırıq. Ona görə, əgər kimsə düşünürsə ki, biz indi çətin, çıxılmaz vəziyyətdəyik və bizim qarşımızda hansısa əsassız tələb qoyula bilər, tamamilə yanlış yanaşmadır. Heç kim bizim qarşımızda heç bir tələb qoya bilməz. İstəyirlər əməkdaşlıq etsinlər, istəmirlərsə bizə də lazım deyil. "Cənub" qaz dəhlizini biz icra edəcəyik və vaxtında.

Nəqliyyat sahəsində görüləcək əsas işlərlə bağlı bir neçə kəlmə demək istəyirəm. Bilirsiniz ki, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ilə bağlı Azərbaycanın üzərinə düşən vəzifə yerinə yetirildi. Biz bütün məsələləri həll etdik. Ümid edirik ki, bu il artıq bu layihə icra ediləcək. Bizdən nə asılı idisə hər şeyi etmişik, həm investisiyaları qoymuşuq, kreditlər vermişik, 700 milyondan çox. Yəni, nə lazımdırsa etmişik və gözləyirik ki, bu layihə tamamlansın. Bununla bərabər, Şimal-Cənub layihəsi ilə bağlı da bir il ərzində bizim üzərimizə düşən bütün vəzifələri icra etdik. Nəyi demişiksə, onu da etmişik. İran sərhədinə qədər dəmir yolunu uzatdıq, körpünü tikdik, əlavə tədbirlər görüldü. Bu il bu layihənin maliyyələşməsində də iştirak etməyə hazırıq və bunu bildirmişik. İndi danışıqlar gedir ki, hansı formada Azərbaycan öz maliyyə resurslarını bu layihənin tam icrası üçün səfərbər edə bilər. Ələt Beynəlxalq Dəniz Limanının birinci mərhələsinin tikintisi bu il başa çatmalıdır. Həm bütün infrastruktur, tikinti işləri, o cümlədən avadanlıq, bütün bu tədbirlər dövlət investisiya proqramında nəzərdə tutulur və icra ediləcək. Sadəcə olaraq, bu layihənin podratçıları da öz məsuliyyətini dərk etməlidirlər. İl ərzində bu məsələ ilə bağlı mənim böyük iradlarım olub, hökumət üzvləri bunu bilir. Bəzi icraçılar bu məsələyə çox laqeyd yanaşmışlar, baxmayaraq ki, dövlət vəsaiti ayrılmışdır, 2016-cı ildə o vəsaitdən tam istifadə edilməyib. Bu, dözülməzdir. Ona görə, əgər o məsuliyyəti dərk etmirlərsə, əgər dövlətin verdiyi sifarişi yerinə yetirməyə laqeydlik göstərirlərsə, bundan sonra dövlət sifarişlərindən məhrum ediləcəklər, qoy bunu bilsinlər. Ona görə, bu ilin payızına qədər Ələt Beynəlxalq Dəniz Limanının birinci mərhələsi bütün avadanlıqlarla, kranlarla təmin edilməlidir, əks halda özlərindən küssünlər.

Biz "Multikulturalizm ili"ni uğurla keçirdik. Azərbaycan bir daha dünyaya göstərdi ki, multikulturalizm, onun ideyaları yaşayır və yaşamalıdır. Azərbaycan kimi ölkələrin sayı getdikcə artmalıdır. Keçən il və ondan əvvəlki illərdə multikulturalizmlə bağlı bədbin fikirlər səslənib. Əfsuslar olsun ki, bəzi dünya səviyyəli siyasətçilər də özlərinə rəva bilib multikulturalizmlə bağlı çox təhlükəli ifadələr işlətmişlər. Ümid edirəm ki, bu sahədə də müsbətə doğru dönüş yaranacaq və beynəlxalq ictimaiyyət daha dərindən dərk edəcək ki, dünyanın multikulturalizmdən başqa yolu yoxdur. Azərbaycan öz tərəfindən bu istiqamətdə əlbəttə ki, səylərini davam etdirəcək.

Bu il Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçiriləcək. Bu da çox önəmli beynəlxalq tədbirdir, bütün müsəlman aləminin həmrəylik oyunlarına biz ev sahibliyi edəcəyik. Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarını keçirmişdir. Yəni, bir ölkədə, bir şəhərdə iki il ərzində həm Avropa Oyunları keçirilib, həm də İslam Həmrəyliyi Oyunları keçiriləcək. Bu, təkcə idman tədbiri deyil. Əgər kimsə hesab edir ki, İslam Həmrəyliyi Oyunları idman tədbiridir, səhv edir. Bu, böyük siyasi tədbirdir, bu, böyük mədəni tədbirdir, bu, böyük ictimai hadisədir. Bu, bir daha Azərbaycanı müstəqil, öz dəyərlərinə, İslam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda, müasir ölkə kimi göstərir və bu gün İslama qarşı çirkin kampaniya aparanlara da bir cavab olacaq. Çünki onlar İslam haqqında rəy formalaşdırırlar ki, İslam geridə qalmış sivilizasiyadır. Onlar öz imkanları hesabına həm mediada, həm ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, İslam dünya üçün təhlükədir, İslamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər. Avropa İttifaqına üzv olan bəzi ölkələrin rəhbərləri "Stop İslam" deyirlər. Bəziləri deyirlər ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlmanları yox. Bu, faşizmdir və faşizm harada yaranıb biz yaxşı bilirik və unutmamışıq. Faşizm İslam aləmində yaranmayıb. Ona görə, İslam Həmrəyliyi Oyunlarının çox böyük mənası var. Biz bu Oyunları keçirməklə bir daha gücümüzü, imkanlarımızı göstərəcəyik, dini dəyərlərimizə sadiqliyimizi nümayiş etdirəcəyik, çalışacağıq ki, İslam aləmini birləşdirək. Bizi bölmək, aramıza nifaq salmaq, bir-birimizə qarşı qoymaq istəyənlər öz hədəflərinə çatmamalıdırlar.

Azərbaycan İslam aləmində çox böyük hörmətə malik bir ölkədir. Baxın, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri bizim ölkəmizə necə yüksək qiymət verirlər. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz.

Bütün bunları nəzərə alaraq, mən 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edirəm.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# M.A.ƏLİYEVANIN AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ TƏYİN EDİLMƏSİ HAQQINDA

Azərbaycan Respublikası Konstitusiyasının $103^{1}$-ci maddəsinin I hissəsini rəhbər tutaraq **qərara alıram:**

**Mehriban Arif qızı Əliyeva** Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 fevral 2017-ci il.

# Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

**Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib**



Fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

İclasda Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı təqdim edərək deyib:

– Bu gün mənim Sərəncamımla Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib. Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır.

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat ki-

mi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir.

Digər layihələr ölkəmizin hərtərəfli inkişafına xidmət göstərmişdir. Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilmişdir. Bir çox hallarda bu məsələlər ictimaiyyət üçün açıqlanmır. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən az müdafiə olunan vətəndaşlara imkan daxilində öz dəstəyini göstərsin.

Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur.

Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.

Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ərzində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır.

Təsadüfi deyil ki, bu il keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevaya həvalə edilib. Bu Oyunların Təşkilat Komitəsinin sədri də odur və hazırlıq işləri yüksək səviyyədə aparılır. Əminəm ki, biz İslam Həmrəyliyi Oyunlarını da yüksək səviyyədə keçirəcəyik.

Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azər-



baycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.

Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən onu təbrik edirəm və ona yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxış edərək dedi:

– Hörmətli cənab Prezident.

Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam.

Mənim fəaliyyətim haqqında dediyiniz sözlərə, verdiyiniz qiymətlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mənim üçün belə bir qiymətə layiq olmaq böyük şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, Sizin dəstəyiniz durur.

Ötən illər ərzində Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin ma-



raqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi. Bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.

Rəhbərlik etdiyim Heydər Əliyev Fondu artıq 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, biz 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Hörmətli cənab Prezident.

Hörmətli Təhlükəsizlik Şurasının üzvləri.

Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

Göstərdiyiniz etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

***

İclasda Təhlükəsizlik Şurasının üzvləri Azərbaycan Respublikası Prezidentinin qərarını dəstəklədiklərini bildirdilər və Mehriban Əliyevaya fəaliyyətində uğurlar arzuladılar.

# Prezident İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

**Prezident İlham Əliyev yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad edib**




Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.



Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş



SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

***

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# XOCALI SOYQIRIMININ İYİRMİ BEŞİNCİ İLDÖNÜMÜ HAQQINDA

Bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciədən 25 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeritmiş, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Həmin hərbi-siyasi təcavüz zamanı 613 həmvətənimiz, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca həlak olmuş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır.

BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini bu günədək tapmamışdır.

2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan ordusu tərəfindən torpaqlarımızın bir qisminin işğalçılardan azad edilməsi ölkəmizin ərazi bütövlüyünü hərbi yolla bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz olduğunu bir daha sübuta yetirmiş, beynəlxalq ictimaiyyətə mövcud status-kvonun qəbuledilməzliyini nümayiş etdirərək işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması tələbini yenidən gündəmə gətirmişdir.

Geniş vüsət almış “Xocalıya ədalət” kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, belə ağır hərbi cinayət beynəlxalq miqyasda hələ ki öz hüquqi qiymətini almamışdır.

Xocalı faciəsinin iyirmi beşinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 yanvar 2017-ci il.

# Prezident İlham Əliyev Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşdə iştirak edib

**Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib**



XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından başlayan və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırasında Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın olduqları yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başladılar.

Ümumxalq yürüşünün iştirakçıları əllərində qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların




və qocaların portretləri, 25 il bundan əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis, fransız dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və balkonlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı – XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı – 25 il" və s. çağırışlar və şüarlar nümayiş etdirilirdi.

İnsanların hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 25 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerlə-yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, Heydər Əliyev abidənin önünə tər güllər qoydular.




Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

***

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin törətdikləri dəhşətli hadisələr xalqımızın tarixinə qanlı hərflərlə yazılıb. O gecə silahlı erməni dəstələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın bu qədim şəhəri üzərinə hücum edib və onun dinc əhalisinə amansızcasına divan tutublar.

Xocalı soyqırımının qanlı statistikası belədir: Hücum zamanı şəhərdə olmuş 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb və insanı alçaldan işgəncələrə məruz qalıb, 197 nəfərin taleyi hələ də məlum deyildir. Səkkiz ailə tamamilə məhv edilib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə – azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər.

Ermənilərin bu cəza tədbiri hərtərəfli planlaşdırılıb və yeganə bir məqsədlə törədilib – dinc sakinləri milli mənsubiyyət əlamətinə görə qismən və ya tamamilə məhv etmək. Beynəlxalq hüquqa görə belə hərəkətlər “soyqırımı” anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifələrindən biridir. “Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında” Azərbaycan Prezidentinin 2017-ci il 24 yanvar




tarixli Sərəncamında deyilir: "Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır".

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, o cümlədən uşaqları belə qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Ruminiya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının




icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada keçirilən mitinqlər, bir sıra ölkələrdə anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Bu yürüş həm də dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu ötən il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən bu qələbə sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

***

Fevralın 26-da bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.

# Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Hərbi Prokurorluq tərəfindən səmərəli işlər görülüb

Müstəqilliyimizin bizə bəxş etdiyi çox mühüm töhfələrdən biri də tarixi həqiqətlərimizi, bütövlükdə tariximizi obyektiv şəkildə araşdırmaq, gerçək tarixi faktları gələcək nəsillərə olduğu kimi çatdırmaq və dünya ictimaiyyətini real tarixi faktlar əsasında doğru-düzgün məlumatlandırmaqdan ibarətdir.

1992-ci il fevralın 26-na keçən gecə Azərbaycan xalqına qarşı törədilən Xocalı soyqırımı ermənilər tərəfindən həyata keçirilən kütləvi qırğınlar və soyqırım cinayətlərinin davamı olmaqla yanaşı təcavüzkar və cinayətkar Ermənistan və onun himayədarlarının yeritdikləri işğalçılıq siyasətinin nəticəsidir. XX əsrin sonunda törədilmiş bu soyqırım təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətlərdən hesab olunur.

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra xalqımıza qarşı erməni vandalları tərəfindən törədilmiş etnik təmizləmə, soyqırımı cinayətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında yeni bir səhifə açılmışdır.

Məhz, ümummilli liderin və ondan sonra möhtərəm Prezidentimiz İlham Əliyevin titanik səyləri nəticəsində XX əsrdə azərbaycan xalqına qarşı törədilmiş bu dəhşətli cinayətlərin dünyanın ən mötəbər tribunalarından ifşa olunmasına başlanıldı.

Prezident İlham Əliyev bütün beynəlxalq ictimaiyyətə, həmçinin təcavüzkar ölkəyə birmənalı bəyan edib ki, Azərbaycanın ərazi bütövlüyünün tanınması bu gün Ermənistanın qarşısına şərt kimi qoyulub və o, bu şərti qəbul etməyə məhkumdur. Çünki Azərbaycan öz haqqını diplomatik yönümdən əlavə, hərbi sahədə tam təmin etmək iqtidarındadır.

24.01.2017-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən «Xocalı Soyqırımının iyirmi beşinci ildönümü haqqında» Sərəncam imzalanmışdır.

Qeyd olunan Sərəncamın icrası ilə bağlı həm respublika, həm də beynəlxalq səviyyədə bir çox tədbirlər keçirilmiş, əsrin faciəsinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Sərəncamın icrası ilə bağlı Respublikanın Hərbi Prokurorluq orqanları tərəfindən də bir sıra tədbirlər həyata keçirilmiş, həmçinin hərbi prokurorluğun əməkdaşları faciənin iyirmi beşinci ildönümü ilə bağlı müxtəlif dövlət qurumları tərəfindən təşkil olunmuş anım tədbirlərində, elmi-praktik konfranslarda iştirak etmişlər.

Bildiyimiz kimi, ölkəmizin prokurorluq və digər hüquq-mühafizə orqanları 1988-ci ildən erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində, həmçinin Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovlara dözülməz işgəncələr verilməsi, onların bir qisminin öldürülməsi, şikəst edilməsi, təxribat və terror aktlarının törədilməsi, əhalinin məcburi köçürülməsi, yaşayış məntəqələrində maddi sərvətlərin, tarixi mədəniyyət abidələrinin dağıdılması, habelə ermənilərin törətdikləri digər ağır cinayət faktları ilə əlaqədar ayrı-ayrı cinayət işləri başlayaraq istintaq aparıblar. Xalqımıza qarşı törədilmiş bu ağır cinayətlərin istintaqı və onlara hüquqi qiymətin verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş təqsirkar şəxslərin müəyyənləşdirilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb olunması, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 18 dekabr 2003-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokurorunun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmış, qeyd edilən cinayətlərlə bağlı müxtəlif vaxtlarda icraatı dayandırılmış cinayət işləri üzrə icraat təzələnməklə istintaqın davam etdirilməsi həmin qrupa həvalə olunmuşdur.

2005-ci ilin mayından etibarən cinayət işinə prosessual rəhbərliyin həyata keçirilməsi Respublika Hərbi prokuroruna həvalə edilmişdir.

Cinayət təqibi üzrə toplanmış materialların həcminin böyüklüyü, şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxslərin, həmçinin araşdırılmalı olan xüsusatların sayının çoxluğu, eyni zamanda, həmin cinayətlərin törədilmə üsul və vasitələri, xarakteri nəzərə alınaraq istintaqın soyqırım, isgəncə, terror və dəymiş maddi ziyanla bağlı 4 əsas istiqamət müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı»na müvafiq olaraq Respublika Baş Prokurorunun 30 mart 2009-cu il tarixli əmrinə əsasən, Respublika Hərbi Prokurorluğunda Xüsusi istintaq şöbəsi yaradılmış və yuxarıda göstərilən cinayət işinin istintaqı həmin şöbəyə həvalə edilmişdır. Bundan sonra beynəlxalq hüquq normalarına uyğun soyqırımı, deportasiya, işgəncə və digər epizodlar üzrə hərtərəfli istintaq hərəkətləri aparılaraq 248 nəfər, habelə ümumi cinayətlər kateqoriyasına aid banditizm, qəsdən adamöldürmə və digər cinayətlər törətmiş 48 nəfər – cəmi 296 nəfərin təqsirləndirilən şəxs qismində cəlb edilməsinə dair qərarlar çıxarılaraq barələrində həbs qətimkan tədbiri seçilib, axtarışlarının elan edilməsi ilə bağlı müvafiq sənədlərin aidiyyəti orqanlara göndərilməsi təmin olunmuşdur.

Erməni millətçilərinin xüsusi amansızlıqla və qəddarlıqla törətdikləri kütləvi qırğınların, bəşəriyyət və sülh əleyhinə soyqırımı cinayətlərinin tarixin yaddaşına həkk olunması, bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və zəngin faktik materialların verilməsi mühüm elmi-siyasi və praktiki əhəmiyyətə malikdir. Bununla bağlı Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralov 2013-cü il iyulun 19-da Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Soyqırım Muzeyinin yaradılması barədə əmr imzalamışdır. Muzeyin yaradılması məqsədilə Respublika Hərbi Prokurorluğunda işçi qrupu təsis edilmişdir. İşçi qrupu tərəfindən qısa müddətdə toplanmış zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında Soyqırım Muzeyi yaradılmışdır.

Muzey XX əsrin əvvəllərindən bəri erməni-bolşevik silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar və soyqırımları nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə həsr edilmişdir.

Muzey 4 bölmədən – tarix, deportasiyalar-repressiyalar, soyqırımları və terror bölmələrindən ibarət olmaqla 320 kvadratmetrlik sahəni əhatə edir.



**Muzeyin soyqırım bölməsi**



**Muzeyin terror bölməsi**



**Muzeyin tarix bölməsi**

Soyqırım muzeyində Quba, Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında ermənilərin törətdikləri soyqırım vəhşilikləri haqqında dolğun məlumatlar olmaqla muzeyin guşələrində həmin qəzaların əhalisi, müdafiəçiləri, qırğınların və vurulan ziyanın miqyasını müəyyən etmək məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının məlumatları və sənədləri, Rusiya imperiyası və İran arasında bağlanmış, Azərbaycanı ikiyə bölən Gülüstan və Türkmənçay müqavilələrinin mətnləri, 1930-cu illərdə repressiya qurbanı olmuş Azərbaycan ziyalıları və xalqımızın görkəmli şəxsiyyətləri haqqında cinayət işlərindən götürülmüş fraqmentlər, azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından son deportasiyasını əks etdirən fotoşəkillər nümayiş etdirilir.

Muzeyin soyqırım və terror bölmələrində erməni silahlı birləşmələri və keçmiş sovet ordusunun 366-cı alayının 1992-ci il fevralın 26-na keçən gecə Xocalı şəhərinə birgə hücumunu, habelə Xocalı və ətraf əraziləri əks etdirən 1:7500 miqyasında maket və fotolar, fakt üzrə aparılan cinayət işinin cildlərinin, hadisə yerinə baxış protokollarının surətləri, erməni təcavüzkarlarının törətdikləri vəhşilikləri sübut edən əşyalar, ekspert rəylərinin, ifadələrin, meyitlərin fotoşəkillərinin surətləri və eləcə də Xocalıda, Meşəlidə, Qaradağlıda və digər yaşayış məntəqələrində törədilmiş cinayətlərin izlərini özündə əks etdirən əşyalar yer almışdır. Soyqırım Memorial Muzeyi Azərbaycan xalqının gələcək nəsilləri üçün qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edən mükəmməl və möhtəşəm tarixi abidədir.

İnsanlığa qarşı törədilmiş soyqırım cinayətlərinin unudulmaması və beynəlxalq aləmdə tanıdılması istiqamətində həyata keçirilmiş tədbirlərdən biri də Memorial Soyqırım Muzeyindən bəhs edən «Soyqırım Muzeyi» kitabının nəşri olmuşdur.

Belə ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğu ilə A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə layihəsi olan və İnstitutun direktoru Yaqub Mahmudov və Respublikanın Hərbi prokuroru Xanlar Vəliyevin birgə müəllifliyi ilə çapa hazırlanmış 152 səhifədən ibarət, nəfis şəkildə tərtib olunmuş kitabı quruluş olaraq 3 hissəyə bölmək olar. Kitabın tarixi hissəsində Çar Rusiyasının Azərbaycan torpaqlarını işğalı, ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi, XX əsrin əvvəllərində erməni vandallarının torpaqlarımızda törətdikləri qətliamlar, 1918-ci ildə Azərbaycanın müxtəlif qəzalarında erməni vəhşiləri tərəfindən törədilmiş soyqırımları, Sovet İmperiyası Azərbaycanı işğal etdikdən sonra Azərbaycana qarşı aparılan etnik təmizləmə siyasəti, azərbaycanlıların öz tarixi torpaqlarından deportasiya olunmaları, müstəqilliyimiz elan olunduqdan sonra Dağlıq Qarabağ və ətraf ərazilərin erməni qəsbkarları tərəfindən işğalı və Xocalı Soyqırımı barədə olduqca dəyərli tarixi faktlar öz əksini tapmışdır. Kitabın 2-ci hissəsi Respublika Hərbi Prokurorluğunda yaradılmış Soyqırım muzeyində eksponatların təsviri və onların şəkilaltı yazılarından ibarət olmaqla oxucuda muzey və muzeydə saxlanılan eksponatlar haqqında dolğun təsəvvür yaradır.

Azərbaycan həqiqətlərinin, xüsusilə də Xocalı soyqırımına dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən işlər, o cümlədən Fondun birinci vitse-prezidenti Leyla xanım Əliyevanın birbaşa rəhbərliyi ilə həyata keçirilən və hazırda da uğurla davam etdirilən «Xocalıya ədalət» kompaniyası çərçivəsində görülən işlər olduqca təqdirəlayiqdir.

Bunu nəzərə alaraq kitabın 3-cü hissəsi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən və bu gün də uğurla davam etdirilən «Xocalıya ədalət» kompaniyası və həmin kompaniya çərçivəsində görülmüş tədbirlərə dair tam, hərtərəfli və dolğun məlumatları özündə əks etdirir.

Fevralın 16-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında Milli Məclisin deputatları, Hərbi Prokurorluğun məsul işçiləri, Tarix İnstitutunun əməkdaşları və kütləvi informasiya vasitələrinin iştirakı ilə kitabın təqdimat mərasimi keçirilmişdir.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev tədbir iştirakçılarına Respublika Hərbi Prokurorluğunda yaradılmış «Soyqırım Muzeyi» barədə ətraflı məlumat verərək muzeyin yaradılmasında əsas məqsədin XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırım cinayətləri barədə tarixi həqiqətləri əyani şəkildə gələcək nəsillərə çatdırmaq və ictimaiyyət arasında təbliğini genişləndirməkdən ibarət olduğunu qeyd edərək Soyqırım Muzeyindən bəhs edən «Soyqırım Muzeyi» kitab-albomunun son 200 ildə erməni vandallarının




**«Soyqırım Muzeyi» kitab-albomu**

öz havadarlarının köməyi ilə Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırım və deportasiya siyasətinin miqyasını xronoloji ardıcıllıqla, sistemli şəkildə tarixi sənədlər, istintaq materialları əsasında əks etdirdiyini və XX əsrin əvvəllərindən bəri erməni-bolşevik silahlı dəstələri tərəfindən Azərbaycan torpaqlarında həyata keçirilmiş kütləvi qırğın və soyqırımlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə həsr olunduğunu bildirmişdir. Tədbirdə iştirak edən Prezident kitabxanasının direktoru Mayıl Əhmədov, Tarix İnstitutunun direktoru, millət vəkili, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov, digər millət vəkilləri və qonaqlar «Soyqırım Muzeyi» haqqında hazırlanmış bu kitabın insanlığa qarşı törədilmiş soyqırım cinayətlərinin unudulmaması və beynəlxalq aləmdə tanıdılması üçün görüləcək işlərin bundan sonra da ardıcıl surətdə davam etdirilməsinə mühüm təkan verəcəyini bildirərək kitabın ingilis dilinə və digər xarici dillərdə də hazırlanmasına ehtiyac olduğunu qeyd etmişlər.

Daha sonra tədbir iştirakçılarına «Soyqırım Muzeyi» kitab-albomu barədə ətraflı məlumat verilmişdir.

Bundan başqa, həyata keçirilmiş tədbirlər çərçivəsində fevralın 22-də Respublika Hərbi Prokurorluğunun Soyqırım Muzeyində «Xocalı Soyqırımının iyirmi beşinci ildönümü» ilə bağlı elmi-praktik konfrans keçirilmişdir. Elmi-praktik konfransda Milli Qeyri-Hökumət təşkilatları Forumunun prezidenti Rauf Zeyni, Respublika Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin mühüm işlər üzrə böyük müstəntiqi Ülvi Əhmədov, Milli Qeyri-Hökumət Təşkilatları Forumunun vitse-prezidenti, tarix elmləri üzrə fəlsəfə doktoru Nüşabə Məmmədova, Milli Qeyri-Hökumət Təşkilatları Forumunun idarə heyətinin sədri Qorxmaz İbrahimli, «Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri» İB-nin sədri Mehdi Mehdiyev çıxış etmişlər. Konfrans zamanı Respublikanın Hərbi prokuroru Xanlar Vəliyev tərəfindən Azərbaycan Respublikasının Hərbi Prokurorluğu ilə A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə layihəsi olan «Soyqırım Muzeyi» kitabının təqdimatı keçilmiş və kitab barədə ətraflı məlumatlar verilmişdir. Konfransda «əsrin faciəsi» rəqəmsal video filmi nümayiş etdirilmiş, «AZTV», «CBC», «İctimai TV» kimi telekanalların,





«AZƏRTAC», «APA», «REPORT» və bir sıra informasiya agentliklərinin müxbirləri tərəfindən foto və video çəkilişlər aparılmışdır.

Xocalı Faciəsinin iyirmi beşinci ildönümü ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində Azərbaycan Respublikası Hərbi prokurorunun müavini Rasim Kazımov fevralın 21-də Azərbaycan Milli Kitabxanasında «Soyqırım Muzeyi» kitabının, «Əsrin faciəsi» filminin və Milli Kitabxana tərəfindən hazırlanmış «Xocalı






Soyqırımı» adlı Elektron məlumat bazasının təqdimat mərasimində iştirak edərək tədbir iştirakçılarına Respublika Hərbi Prokurorluğunda yaradılmış Soyqırım Muzeyi barədə və həmin Muzeylə bağlı hazırlanmış «Soyqırım Muzeyi» kitab-albomu ilə bağlı ətraflı məlumat vermiş, Soyqırım Muzeyinin və





çap edilmiş «Soyqırım Muzeyi» kitab-albomunun Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasında mühüm rol oynayacağına əminliyini vurğulamışdır.

Tədbirdə iştirak edən Milli Kitabxananın direktoru Kərim Tahirov, Mədəniyyət və Turizm nazirinin 1-ci müavini Vaqif Əliyev və digər qonaqlar Xocalıda baş vermiş faciənin təfərrüatlarının dünyaya və gələcək nəsillərə çatdırılması baxımından «Soyqırım Muzeyi» kitabının əhəmiyyətli mənbə olduğunu qeyd etmişlər.



Respublika Hərbi prokurorunun müavini Rasim Kazımov Xocalı Soyqırımının 25-ci ildönümü ilə bağlı Ermənistan hərbçiləri və terrorçu quldur birləşmələri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayət əməllərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədi ilə fevralın 23-27-də Türkiyə Respublikasının Ankara şəhərində uydurma erməni soyqırımı iddialarına qarşı mübarizə aparan «Tələt Paşa» Komitəsində təşkil olunmuş konfransda nümayəndə heyətinin tərkibində iştirak etmişdir.

Konfransda «Xocalı soyqırımı bəşəriyyətə qarşı qanlı cinayətdir» mövzusunda Rasim Kazımov tərəfindən çıxış edilmiş, ermənilərin xalqımıza qarşı zaman-zaman törətdikləri soyqırımları, xüsusilə öz vəhşiliyinə və cəza üsullarının ağlasığmaz qəddarlığına görə ən qanlı kütləvi qırğınlardan biri kimi tarixə düşmüş Xocalı soyqırımından ətraflı bəhs olunmuş, tədbir iştirakçılarına Respublika Hərbi Prokurorluğunda soyqırım ilə bağlı istintaq olunan cinayət işi haqqında məlumat verilmiş, bu dəhşətli cinayət barədə Azərbaycan həqiqətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə hazırlanmış metodiki vəsaitlər, o cümlədən Respublika Hərbi Prokurorluğu və A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə layihəsi olan «Soyqırım Muzeyi» kitabı, həmçinin Hərbi Prokurorluqda fəaliyyət göstərən Soyqırım Muzeyi barədə ətraflı məlumat verilmişdir. Səfər çərçivəsində fevralın 24-də Türkiyənin «Ulusal TV» kanalında Azərbaycan nümayəndə heyəti ilə birgə Xocalı Soyqırımının 25-ci ildönümünə həsr olunmuş dəyirmi masa keçirilmiş, dəyirmi masada AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudov, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədr müavini Eldar Səmədov, «Tələt Paşa» Komitəsinin sədri Ali Erdinç ilə birgə iştirak etdiyi dəyirmi masada Ermənistanın Azərbaycana qarşı 200 ilə yaxın davam edən təcavüzü, o cümlədən Xocalıda baş vermiş soyqırımı, insanlıq əleyhinə cinayətlərin və terrorçuluğun müasir dünyanın faciəsi olması barədə dünya ictimaiyyətinin məlumatlandırılması ilə bağlı təbliğat işlərinin aparılması müzakirə olunmuşdur.

Dəyirmi masada çıxış edən Rasim Kazımov Respublika Hərbi Prokurorluğunda ermənilər tərəfindən törədilmiş cinayətlərlə bağlı aparılan cinayət işinin istintaqı barədə məlumat vermiş, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra erməni millətçiləri tərəfindən xalqımıza qarşı törədilmiş terror və soyqırım cinayətləri barədə həqiqətlərin dünya ictimaiyyətinə

çatdırılması, həmin cinayətlərə düzgün siyasi və hüquqi qiymət verilməsi üçün məqsədyönlü işlərin görülməsi, «Soyqırım» – cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülmüş və görülməli olan işləri özündə ehtiva etməsi, eyni zamanda bu sahədə Heydər Əliyev Fondunun, xüsusilə onun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və Fondun birinci vitse-prezidenti Leyla xanım Əliyevanın məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq Xocalı Soyqırımı ilə bağlı real və konkret faktların daha dolğun şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, həmçinin «Xocalıya ədalət» kompaniyası çərçivəsində görülmüş tədbirlərin əhəmiyyətini vurğulamışdır.




Martın 29-də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin və AMEA-nın Tarix İnstitutunun təşkilatçılığı ilə Ombudsman Aparatında keçirilmiş 31 mart – Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş elmi-praktiki konfransda da «Soyqırım Muzeyi» kitabının təqdimatı keçirilmişdir.



Təqdimatda iştirak etmiş Respublika Hərbi prokurorunun müavini Rasim Kazımov «Azərbaycanlılara qarşı soyqırım cinayətləri» mövzusunda çıxış etmişdir. Tədbirdə iştirak edən İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova və digər şəxslər kitabın xalqımızın başına gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacağını vurğulamışlar.

**Hərbi Prokurorluq**

# Prezident İlham Əliyevin 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbriki

## 8 mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyin, həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti vardır. Ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə etmişlər. Bu ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atmışlar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır.

Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir. Milli varlığımızın ifadəsi olaraq əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adıyla bağlıdır.

Ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, vətən torpağını və dilimizi təcəssüm etdirmişdir. Analarımız azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər. İndi ürəyi ölkəmizə hədsiz sevgiylə dolu, vətəni ana qədər müqəddəs bilərək torpaqlarımızın hər qarışını qorumağa hazır olan, müstəqilliyimizlə yaşıd bir nəsil yetişmişdir. Bu, Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən böyük töhfəsidir.

İnanıram ki, yüksək mənəviyyatınız və qurub-yaratmaq əzminizlə siz cəmiyyətimizin həyatına bundan sonra da yeni çalarlar gətirərək daim yeniləşən ölkəmizin müstəqillik salnaməsinə parlaq səhifələr yazacaqsınız.

*Dərin hörmət və ehtiramla,*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 mart 2017-ci il.

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Əziz həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə can sağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlamış bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunmuşdur. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Qloballaşma dalğasının geniş vüsət aldığı və dünyanı sürətli dəyişikliklərə məruz qoyduğu bir vaxtda o, tükənməz mənəvi gücü sayəsində dini-mənəvi dəyərlərimizə, tarixi-mədəni irsimizə bağlılığımızın təntənəsinə çevrilmişdir. Yaz bayramı yeniləşdirici ruhu və ilıq nəfəsiylə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti vardır. Ən yüksək dəyərləri özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer almışdır.

Mən torpaqlarımızın müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə bayram təbriklərimi yetirirəm. Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini bir daha ehtiramla yad edərək onlara Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.

Dünya azərbaycanlılarının həmrəyliyinin rəmzi Novruz bayramını xaricdə yaşayan soydaşlarımızın milli məfkurə işığında bizimlə birgə qeyd etmələri onlarda yurdumuza bağlılıq hisslərini gücləndirir.

Arzu edirəm ki, öz gəlişiylə bu gözəl bayram hər evə, hər ocağa bol ruzi-bərəkət gətirsin və hamınıza yeni sevinclər bəxş eləsin.

Xalqımızın əziz Novruz bayramı mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 mart 2017-ci il.

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

## Novruz bayramı münasibətilə Bakıda ümumxalq şənliyi keçirilib



Martın 18-də Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Novruz şənliyində iştirak ediblər.

Bakıda keçirilən V Qlobal Bakı Forumunun yüksək səviyyəli iştirakçıları da Novruz şənliyinə qatılıblar.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Bahar qız Azərbaycan Prezidentinə Novruz xonçası təqdim etdi, dövlətimizin başçısına və xanımına bayram münasibətilə təbriklərini çatdırdı.



Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyu Novruz bayramını əziz tutub. Azərbaycanda hər il mart ayında qeyd edilən Novruz baharın gəlişi, təbiətin canlanması, torpağın oyanması ilə bağlıdır. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər üzərində qurulub. Hər il olduğu kimi, bu il də Azərbaycanda Novruz bayramı təntənə ilə qeyd olunur. Bu da xalqımızın bayram sevincinə gözəl ovqat qatır.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

– Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına əmin-amanlıq, yeni uğurlar arzulayıram. Novruz bayramı bizim sevimli bayramımızdır. Əsrlər boyu xalqımız bu bayramı qeyd edir.

Azərbaycan dövləti möhkəm milli-mənəvi dayaqlar üzərində qurulubdur. Biz öz mədəniyyətimizi, incəsənətimizi, ana dilimizi, bayramlarımızı qoruyuruq, yaşadırıq. Iyirmi beş illik müstəqillik dövrü onu göstərir ki, ancaq milli köklər üzərində qurulmuş dövlətlər uğur qazana bilər və o dövlətlərin gələcəyi var. Azərbaycan dəyərləri, milli-mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Şadam ki, gənc nəsil də bu ruhda, vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alır və bu gün Vətəni sevən hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Vətəni ilə fəxr edir.



Azərbaycanda əldə edilmiş uğurlar ölkəmizi gücləndirir, gələcəyə nikbinliklə baxmaq üçün əsas verir, eyni zamanda, dünya miqyasında qiymətləndirilir. Daxili vəziyyətimiz sabitdir. Bu sabitliyin qarantı, təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və sabitliyin əsas amili də məhz budur. Hər şey müqayisədə ölçülür.

Bu gün regionumuzda, dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmalar, müharibələr, əlbəttə ki, bizi çox narahat edir. Çünki biz təcridolunmuş vəziyyətdə yaşamırıq, bizim bölgəmizdə əgər vəziyyət gərginləşirsə, risklər artırsa, əlbəttə ki, bizə də bunun mənfi təsiri ola bilər. Ona görə bizim əsas vəzifəmiz ölkəmizi, xalqımızı mövcud olan və gələcək risklərdən qorumaqdır və biz buna nail oluruq. Ona görə bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq, vətəndaş birliyi, həmrəyliyi əlbəttə ki, bizim böyük sərvətimizdir və biz bunu qoruyuruq. Yenə də qeyd etmək istəyirəm, bunu ancaq xalq-iqtidar birliyi qoruya bilər.

Azərbaycanda təhlükəsizlik təmin edilib, xalqımız rahat şəraitdə, təhlükəsizlik şəraitində yaşayır. Qurub-yaratmaq üçün bütün imkanlar var. İndiki dövrdə həm bölgəmizdə, həm Avrasiya qitəsində vəziyyət əfsuslar olsun ki, gərginləşib. Biz əlbəttə ki, ölkəmizdə mövcud olan təhlükəsizliyi daha da möhkəmləndirməliyik. Azərbaycanda daxili risklər, təhlükələr demək olar ki, yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq. Biz özümüzü həm fiziki risklərdən, həm mümkün olan ideoloji risklərdən qoruyuruq.

Azərbaycan xalqı bu 25 il ərzində açıq-aydın görür ki, bizim siyasətimiz ən düzgün siyasətdir. Biz öz taleyimizin sahibiyik. Biz siyasətimizi özümüz müəyyən edirik. Biz hər hansı bir kənar təsirə davam gətirə bilirik və yaxın tarix bunu göstəribdir. Eyni zamanda, yaxın tarix onu da göstərib ki, biz əgər hansısa kənar qüvvənin istəyi, diktəsi ilə hərəkət etsəydik, böyük problemlərlə üzləşə bilərdik.

Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizim müstəqil siyasətimiz qürur mənbəyimizdir. Bu, onu göstərir ki, Azərbaycan xalqı öz gələcəyini özü müəyyən edir. Eyni zamanda, müstəqil siyasətimiz bizi mövcud olan risklərdən də qoruyur. Hələ 5-6 il bundan əvvəl yaxın bölgələrdə vəziyyət tam başqa idi. Heç kim təsəvvür edə bilməzdi ki, bu bölgələrdə münaqişə, müharibə ocaqları yaranacaq, yüz minlərlə insan həlak olacaq, milyonlarla insan qaçqın-köçkün vəziyyətinə düşəcək. Ancaq bütün bunlar artıq reallıqdır. Nəyə görə bu, baş verdi?! Əlbəttə ki,

xarici müdaxiləyə görə. Biz bunu bilirik və mən həmişə bütün bu məsələlərlə bağlı öz mövqeyimi bildirmişəm. Eyni zamanda, o ölkələr müstəqil həyata hazır deyildilər. O ölkələrdə xalq-iqtidar birliyi yox idi. O ölkələrdə kütləvi narazılıq var idi. Ona görə belə acınacaqlı, bədbəxt hadisələr baş verdi. Bütün bunlar bizim gözümüzün önündə baş verir və bir daha həm xalqımıza, həm bütün dünyaya göstərir ki, bu gün Azərbaycan doğrudan da dünya miqyasında öz siyasəti ilə fərqlənən və bir çox ölkələr üçün nümunəyə çevrilən bir ölkədir.

Bizim beynəlxalq mövqelərimiz də möhkəmlənir. Yanvar ayının ortalarından bu günə qədər mənim xarici səfərlərimin coğrafiyasına nəzər salsaq görərik ki, Azərbaycan çoxşaxəli və uğurlu xarici siyasət aparır. Son iki ay ərzində mən 7 dəfə xaricə səfər etmişəm. Azərbaycan dünyanın aparıcı, ən mötəbər Davos Forumunda və Münxen Konfransında ləyaqətlə təmsil olunub. Dünyanın həm biznes, həm də siyasi elitasından bizə olan hörmət göz qabağındadır. Avropa Komissiyasına mənim uğurlu səfərim olubdur. Bu səfər nəticəsində Avropa Komissiyası ilə Azərbaycan arasında yeni sazişlə bağlı danışıqlara start verildi. Onu da qeyd etməliyəm ki, bu da nadir hadisədir. Bu danışıqların aparılması üçün layihəni Azərbaycan təqdim edib və bu layihə qəbul edilibdir. Ümid edirəm ki, yaxın zamanlarda danışıqlarda fəal proses başlanacaq və tezliklə bu mühüm saziş bağlanacaq.

Qətərə, Pakistana, İran İslam Respublikasına mənim rəsmi səfərlərim olubdur. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz möhkəmlənir. Xalqımız yaxşı bilir ki, Azərbaycan İslam həmrəyliyi üçün çox böyük işlər görür, çox böyük töhfələr verir. Bunu İslam aləmi qiymətləndirir. İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri dəfələrlə bizim siyasətimizə ən yüksək qiymət vermişlər. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşündə fəal iştirak edib. Biz son 5 ildə bu təşkilata uğurlu sədrlik etmişik. Bu yaxınlarda Fransaya rəsmi səfərim də çox uğurlu keçdi. Fransa dünyanın aparıcı ölkələrindən biridir və mənim səfərimi izləyən vətəndaşlar gördülər ki, ölkəmizə çox böyük hörmət, çox böyük maraq var. Biz həm siyasi, həm iqtisadi, həm enerji sahələrində və digər sahələrdə uğurlu əməkdaşlıq edirik. Onu da qeyd etməliyəm, Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb.

Xarici siyasətimizin və ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, bu məsələnin həlli istiqamətində ciddi irəliləyiş yoxdur. Mən bunun səbəbləri haqqında dəfələrlə bildirmişəm. Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir, işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Ona görə biz və beynəlxalq ictimaiyyət, vasitəçilər onları məcbur etməlidirlər. Bunun başqa yolu yoxdur. Çünki indi Ermənistan danışıqları boykot etməyə çalışır, özünü təcrid vəziyyətinə salır. Vasitəçilər, Minsk qrupunun həmsədr ölkələri artıq açıq bəyan edirlər ki, tezliklə substantiv, yəni, mənalı danışıqlar bərpa edilməlidir. Ona görə hesab edirəm ki, Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilməyəcəyini nə qədər tez anlasa, bu, onlar üçün də o qədər yaxşı olacaq. Biz bu vəziyyətlə barışmayacağıq. Biz gücümüzü artırırıq. Hərbi gücümüzü, siyasi gücümüzü, beynəlxalq mövqelərimizi möhkəmləndiririk.

Bu günlərdə Bakıda V Qlobal Forum keçirilir. Forumda 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak edirlər. Azərbaycan nəinki bölgədə, artıq dünya miqyasında önəmli ölkəyə çevrilib. Ermənistan isə bütün ümidlərini itirmiş, depressiyada yaşayan bir ölkədir və bunun səbəbi Ermənistanı qanunsuz yollarla zəbt etmiş kriminal xunta rejimidir. Erməni xalqı üçün ən böyük təhlükə elə Ermənistanın indiki rəhbərliyidir.

Biz öz səylərimizi davam etdirəcəyik. Dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Bölgədə vəziyyət bizim xeyrimizə işləyir. İqtisadi, hərbi potensial da aydındır ki, bizim tərəfimizdədir. Keçən ilin aprel hadisələri bunu bir daha göstərdi. Ona görə biz daha da güclü olmalıyıq, daha da güclənməliyik və bunu edirik.

Ermənistan isə xarici yardımsız yaşaya bilmir. Əgər aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini sarsıdıb. O sarsıntının fəsadları bu günə qədər orada hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. Bu, hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa-olsun ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu etmək üçün əlbəttə ki, biz uğurlu siyasət aparırıq, hər gün, hər il biz o günü yaxınlaşdırırıq. Bilirsiniz ki, Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq.

Son illərin beynəlxalq münasibətləri göstərir ki, əfsuslar olsun, beynəlxalq təşkilatlar artıq o qədər də ciddi təsirə malik deyillər. Böyük dövlətlər isə öz maraqlarını güdürlər, beynəlxalq hüququ istədikləri kimi təhrif edirlər. Belə olan halda güc əsas amildir və biz bunu bilirik.

İqtisadi vəziyyətimiz yaxşılaşır. Keçən il, – mən ötən il burada demişdim, - iqtisadi sabitləşmə, dərin iqtisadi islahatlar ili idi. Bu islahatlar öz bəhrəsini verməyə başlamışdır. Bu il isə artıq inkişaf ilidir. İlin iki ayının göstəriciləri bunu təsdiqləyir. Böyük olmasa da, iqtisadi artım var. Ümumi daxili məhsul 0,4 faiz artıbdır. Qeyri-neft sənayemiz isə 5 faiz, kənd təsərrüfatı 3 faizdən çox artıb. Yəni, bu, iqtisadi inkişafımızın əsas göstəriciləridir. Neft-qaz ixrac edən bir çox başqa ölkələrdən fərqli olaraq, keçən il biz öz valyuta ehtiyatlarımızı qoruya bilmişik, xərcləməmişik. Halbuki, xərcləyə bilərdik. Ancaq biz ölkəmizin uzunmüddətli maraqları haqqında düşünürük. Biz hər il valyuta ehtiyatlarımızı artırmalıyıq. Buna nail oluruq. Bu gün bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfədən çox artıqdır. Bəlkə də dünya miqyasında çox az ölkə tapılar ki, bu göstərici bu səviyyədə olsun.

Bizim iqtisadi inkişafımız Davos Dünya İqtisadi Forumu tərəfindən də yüksək qiymətləndirilib. Bu il ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycan 37-ci yerə layiq görülüb. Keçən il biz 40-cı yerdə idik. Yəni, bu, onu göstərir ki, hətta neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Dünya İqtisadi Forumu bizim iqtisadiyyatımızı daha da yüksək pilləyə qaldırıb.

Əlbəttə ki, dünya miqyasında iqtisadi rəqabətliliyə görə, ən inkişaf etmiş 40 ölkə sırasında olmağımız uğurlu iqtisadi siyasətimizi əks etdirir. Onu göstərir ki, biz bu uğuru təkcə neft, qaz hesabına deyil, ciddi şaxələndirmə və islahatlar hesabına əldə etmişik.

Davos Forumunun ikinci önəmli reytinqi inkişafda olan ölkələrin inkişaf səviyyəsidir. Biz burada da bütün inkişaf edən ölkələr arasında birinci-ikinci yerləri bölüşürük. Bu, bizim siyasətimizə, iqtisadi siyasətimizə verilən ən gözəl qiymətdir.

Əminəm ki, bu il iqtisadi inkişaf davam etdiriləcək. Çox böyük planlarımız var. İnvestisiya proqramı real sektorun inkişafına xidmət göstərəcək. Bu il kənd təsərrüfatında il ərzində 150 min hektardan çox torpağa su veriləcək. Bu, 100 minlərlə iş yerinin yaradılması deməkdir. Bu, kənd təsərrüfatının və ixracın artırılması deməkdir. Biz ilin iki ayında ancaq dövlət sektorunda 40 mindən çox yeni iş yeri yaratmışıq. Nəyə görə? Ona görə ki, işsizlik artmasın. Çünki keçən il dövlət investisiyaları azalmışdır, xüsusilə tikinti sektorunda. Bəzi vətəndaşlar işlərini itirmişlər. Bank sektorunda da problemlər yaşandı. Bəzi banklar bağlandı, vətəndaşlar işlərini itirdilər. Ona görə, mən biznes qurumlarına da çağırış etdim ki, hər bir şirkət heç olmasa bir-iki nəfəri işə götürsün. Bəlkə bu, onlara o qədər də lazım deyil, ancaq biznes də sosial məsuliyyətini dərk etməlidir. Bizim dövlət şirkətlərimiz və yerli icra orqanları üçün xüsusi büdcə ayrılıb. İndi 40 mindən çox insan ictimai işlərə və digər təmir-tikinti işlərinə cəlb edilib. Ona görə, əminəm ki, bu il Azərbaycan öz iqtisadi inkişafını davam etdirəcək.

Sosial sahədə də böyük planlarımız var. Bu il ənənəvi olaraq beş milyon insan pulsuz diaqnostikadan, müayinədən keçir. Hesab edirəm ki, bu da dünya miqyasında nadir təşəbbüsdür. Artıq bunu etmək üçün hər cür imkan var. Hər bir rayonda müasir tibb müəssisələri yaradılıb. Son illər ərzində 600-dən çox tibb ocağı təmir olunub və tikilib.

Biz bu il İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bu, növbəti dəfə ölkəmizin potensialını göstərəcək və eyni zamanda, İslam həmrəyliyinə də növbəti töhfəmiz olacaq. Çünki buna böyük ehtiyac var. Bu Oyunlar təkcə idman yarışı deyil. Bu Oyunlar bütün İslam aləmini bir araya gətirəcək. Əfsuslar olsun ki, bəzi müsəlman ölkələri arasında münasibətlər, yumşaq desək, lazımi səviyyədə deyil. Azərbaycan isə çalışır ki, müsəlman aləmində birlik möhkəmlənsin, güclənsin. Bu, bizim ailəmizdir. Biz bu ailənin üzvüyük. Ona görə, biz istəyirik ki, bu ailədə əmin-amanlıq, inkişaf olsun, müharibələrə, münaqişələrə son qoyulsun.

Yəni, biz uğurlu siyasətimizlə ölkəmizi gücləndiririk. Əgər bütün tariximizi götürsək, Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bizim uğurlu siyasətimiz, regional təşəbbüslər, enerji, nəqliyyat layihələri geniş mənada beynəlxalq əməkdaşlığı formalaşdırır. Biz beynəlxalq əməkdaşlığa öz fəlsəfəmizi gətirmişik. Beynəlxalq əməkdaşlıq hər bir iştirakçı üçün uğurlu olmalıdır. Bu, zorla ola bilməz. Heç bir ölkəni zorla, məcburən hansısa təşəbbüsə cəlb etmək olmaz. Bunun heç bir effekti olmayacaq. Ölkələr bəlkə buna müqavimət göstərə bilmirlər, ancaq daxilən narahat olacaqlar ki, onları nəyəsə məcbur edirlər. Ona görə, bizim beynəlxalq əməkdaşlıq doktrinamız əməkdaşlıq və qarşılıqlı dəstək üzərində qurulub. Məhz buna görə biz Cənub Qaz Dəhlizi kimi həm maliyyə, həm texniki, həm siyasi cəhətdən mürəkkəb olan bir layihəni icra edirik. Üçüncü dəfədir ki, Bakıda Məşvərət Şurası keçirilib və iştirak edən bütün ölkələr öz mənfəət payını alacaqlar. Biz bir çox layihələri icra etmişik və vəsait də xərcləmişik. Əlbəttə, bu vəsait həm vəsait olaraq, həm siyasi divident kimi qayıdacaq, həm də ki, bölgədə yeni əməkdaşlıq mühiti yaranmışdır.

Azərbaycan bütün bu önəmli nəqliyyat və enerji layihələrinin təşəbbüskarıdır. Vaxt keçdikcə dünyada ölkəmiz haqqında daha da dolğun məlumat yayılır. Bizə böhtan, şər atan, bizə pis gözlə baxan qüvvələr yavaş-yavaş sıradan çıxırlar. Artıq onların bir çoxu siyasi səhnədən kənarlaşdırılıb. İndi dünyada yeni inkişaf dinamikası yaranır. Azərbaycan müasir, müstəqil, inkişafda olan ölkə kimi dünyada daha çox tanınır.

Əziz dostlar, mən bu gözəl bayram ərəfəsində hər bir Azərbaycan ailəsinə uğurlar, cansağlığı arzulamaq istəyirəm. Arzu edirəm ki, ölkəmizdə həmişə sülh, inkişaf olsun, xalqımız rahat, firavan yaşasın. Bayramınız mübarək olsun. Sağ olun!







Sonra Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ümumxalq şənliyinin iştirakçıları Dənizkənarı Milli Parka gəldilər.

Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının çıxışları maraqla qarşılandı.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Prezidenti və xanımını Kosa və Keçəl bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram konsertinə baxdılar.




Dövlətimizin başçısı, xanımı, xarici qonaqlar və ümumxalq şənliyinin digər iştirakçıları “Novruz” yarmarkası ilə tanış oldular.

Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilirdi. Yarmarkada ölkəmizin iqtisadi rayonlarından onlarla şirkət öz məhsullarını təqdim edirdi. Son dövrlərdə ölkəmizdə aparılan siyasət nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ona görə də ekoloji cəhətdən təmizliyi ilə seçilən Azərbaycan məhsullarına dünyada böyük tələbat var.

Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə, Azərbaycan xalçalarına baxdılar, pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, aşıqların, “Nənələr”, “Rəfti” özfəaliyyət kollektivlərinin, “Natiq” ritm qrupunun, Azərbaycan Dövlət Kukla Teatrının nəzdindəki “Oyuq” teatr-studiyasının kollektivinin ifalarını dinlədilər.

Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasına Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də vardı. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli



bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlətimizin başçısının hər il xalqa ünvanladığı təbriklər də onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsini və milli ruhunu özündə əks etdirir.

2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər





qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

Dövlətimizin başçısına və xanımına "İctimai Wi-Fi" layihəsi barədə təqdimat nümayiş olundu.

Bildirildi ki, ilkin mərhələdə əhalinin daha çox sıx istirahət etdiyi yerlər seçilib. Dənizkənarı Milli Park və Dövlət Bayrağı Meydanı, həmçinin "İçəri şəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ictimai internetdən istifadəni təmin edən avadanlıq quraşdırılıb. Növbəti mərhələdə Heydər Əliyev Mərkəzinin ətraf ərazilərində işlər həyata keçiriləcək.

Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Mötəbər beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edən Azərbaycanda bu ilin mayında IV İslam Həmrəyliyi Oyunları, iyunda Formula-1 Azərbaycan Qran-Prisi keçiriləcək.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qonaqlar burada Formula-1 yarışlarının bolidinə baxdılar.

Dövlətimizin başçısına və xanımına IV İslam Həmrəyliyi Oyunlarının ilk biletləri təqdim olundu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Olimpiya çempionları, Formula-1 Azərbaycan Qran-Prisinin və IV İslam Həmrəyliyi Oyunlarının könüllüləri ilə görüşdülər.

Ümumxalq şənliyinin iştirakçıları müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin ləziz təamlarından, bu bayramın rəmzi olan şirniyyat nümunələrindən daddılar.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın yüksək səviyyəli qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturu"nda dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 428; 2004, № 1, maddə 19, № 12, maddə 1061; 2006, № 9, maddə 809; 2008, № 3, maddə 200; 2009, № 10, maddə 791; 2010, № 1, maddə 42; 2014, № 3, maddə 247, № 7, maddə 892) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturu"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı hissədə "Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin" sözləri "Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin" sözləri ilə əvəz edilsin.

**2.** 12-ci hissədən "və informasiya" sözləri çıxarılsın.

**3.** Aşağıdakı məzmunda 12-1-ci və 13-1-ci hissələr əlavə edilsin:

**"12-1.** İnformasiya-kommunikasiya texnologiyaları idarəsi

**13-1.** Mətbuat xidməti (şöbə səlahiyyətli)".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 dekabr 2016-cı il.

# Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilib

**Azərbaycanın prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirib**



Yanvarın 6-da Baş Prokurorluqda 2016-cı ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan əməliyyat müşavirəsi keçirilib.

Müşavirədə çıxış edən Baş prokuror Zakir Qaralov qeyd edib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı – Prezident cənab İlham Əliyevin müdrik rəhbərliyi sayəsində dünyada baş verən iqtisadi böhrana baxmayaraq, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilib, iqtisadi sabitlik təmin edilib və aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar ölkənin gələcək inkişafı üçün perspektivlər açıb. Həyata keçirilən islahatlar nəticəsində bütün sosial proqramlar uğurla icra edilib, qeyri-neft sənayesi 5 faiz, kənd təsərrüfatı 2 faiz, əhalinin pul gəlirləri 7 faiz, orta əmək haqqı 9 faiz artıb.

Bildirilib ki, ötən il ölkəmizin hərtərəfli inkişafına zəmin yaradan qərarların qəbul edilməsi, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi, ordumuzun aprel döyüşlərində

şanlı qələbələri, Bakının Avropa və dünya miqyaslı siyasi, iqtisadi və humanitar tədbirlərə ev sahibliyi etməsi ilə yadda qalıb.

Diqqətə çatdırılıb ki, 2016-cı il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu olub. Hüquq-mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub. Prokurorluq orqanlarının səyləri Prezident cənab İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, prokurorluqda islahatların yeni məzmunda davam etdirilməsinə, işin səmərəliliyinin artırılmasına, mövcud çatışmazlıqlar və neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilib.

Hesabat ilində qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması və onları törətmiş şəxslərin müəyyən olunub məsuliyyətə cəlb edilmələri üçün zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin qurumları ilə həyata keçirilən birgə istintaq-əməliyyat tədbirləri nəticəsində 178 qəsdən adam öldürmə cinayətindən 172-nin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş 64 cinayətin isti izlərlə açılması təmin olunub. Cinayətlərin 96,6 %-nin (2015-ci ildə 95,5 %) açılması təmin edilib.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq ötən dövrlərdə olduğu kimi 2016-cı ildə də ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə uğurla davam etdirilib.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən dövlət və özəl sektorun 313 vəzifəli şəxsi barəsində 201 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib. Həmin işlər üzrə vurulmuş 202 milyon 430 min manat maddi ziyandan 31 milyon 752 min manatının ödənilməsi təmin edilib, 78 milyon 283 min manat məbləğində əmlakın üzərinə həbs qoyulub.

Xüsusilə vurğulanıb ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin vəzifəli şəxslərinin dövlət əmlakının mənimsənilməsi və digər qanunsuz əməllərinə dair cinayət işi üzrə istintaq yekunlaşdırılaraq 11 vəzifəli şəxs barəsində cinayət işi baxılması üçün məhkəməyə göndərilib. Vurulmuş ziyanın 18 milyon 778 min manatının ödənilməsi təmin edilib, 66 milyon 985 min manat məbləğində əmlakın üzərinə həbs qoyulub.

Qeyd edilib ki, Baş İdarənin səmərəli fəaliyyəti nəticəsində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi mötəbər beynəlxalq təsisatlar tərəfindən ölkəmizin 4-cü mərhələ üzrə dəyərləndirmə prosesi uğurla davam etdirilib; Azərbaycan Respublikası hər iki monitorinq qiymətləndirməsi üzrə uyğunluq reytinqi qazanıb.

Cinayətkar ekstremizm təzahürlərinə qarşı həyata keçirilən mübarizə tədbirləri də diqqət mərkəzində saxlanılıb, bu qəbildən olan cinayətlərdə iştirakı olan bütün şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb edilmələri, eyni zamanda həmin cinayətləri doğuran səbəb və şəraitin aşkarlanaraq müvafiq qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib.

Dövlət gənclər siyasətinin tələblərinə uyğun olaraq ədalətli və şəffaf prosedurlar əsasında gənc kadrların prokurorluqda qulluğa qəbulu istiqamətində tədbirlərin davam etdirilməsi, sonuncu müsabiqənin nəticələri də nəzərə alınmaqla qulluğa qəbul edilmiş gənc hüquqşünasların hazırda respublika prokurorluq orqanlarının kadr korpusunun 62 faizini təşkil etməsi, eləcə də prokurorluq orqanlarında yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində zəruri tədbirlərin görüldüyü barədə geniş məlumat verilib.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2016-cı ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqət və qayğı ilə yanaşılıb. Qeyd edilib ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin olunub.

Baş prokurorun birinci müavini Rüstəm Usubov hesabat ilində cinayətkarlığa qarşı mübarizə, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili sahəsində görülən işlər və qarşıda duran vəzifələr, Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov Baş Prokurorluğun 2016-cı ilin ikinci yarımilinə dair iş planının icra vəziyyəti və cari ilin birinci yarımili üçün iş planı barədə, Baş Prokurorluğun İnformasiya-kommu-

nikasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov hesabat ilində prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat veriblər.

Əvvəlki illərdə törədilib bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi, bu sahədə işlərin intensivliyinin artırılması, bu cinayətləri törətmiş şəxslərin müəyyən olunmasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Müşavirədə müsbət işlərlə yanaşı, işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil və ciddi tənqid olunmaqla, ibtidai istintaqın və ona prosessual rəhbərliyin həyata keçirilməsi zamanı yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi barədə konkret tapşırıqlar verilib.

Məlumat verilib ki, prokurorluqda çox ciddi tələbkarlıq və prinsipiallıq şəraitinin yaradılması 2016-cı ildə aparılmış xidməti yoxlamalar nəticəsində 49 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib, o cümlədən 9 nəfər prokurorluq orqanlarından xaric olunub.

Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələri, habelə digər struktur qurumların rəhbərlərindən tələb edilib ki, əməkdaşların fəaliyyətlərində aşkara çıxarılan neqativ təzahürlərə qarşı mübarizə xətti qətiyyətlə davam etdirilsin, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi məsələlərində prinsipiallıq daha da artırılsın. Eyni zamanda, 2016-cı il ərzində görülmüş işlərin vəziyyəti ümumiləşdirilməklə nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilib.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror ümidvar olduğunu bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2017-ci ildə də Prezident cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin reallaşdırılmasında, hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkardlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının, insan hüquq və azadlıqlarının qorunmasında zəruri tədbilərin görülməsini təmin edəcək.

**Baş Prokurorluğun Təşkilat-analitik idarəsi**

# Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

## 2016-cı ildə görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub

Fevralın 4-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon və şəhər, ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2016-cı ildə "Prokurorluq haqqında" qanunda nəzərdə tutulan fəaliyyət istiqamətləri üzrə görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş Kollegiya iclası keçirilib.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Baş prokuror Zakir Qaralov xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində 2016-cı ildə Azərbaycan iqtisadiyyatının dünyada baş verən iqtisadi böhrana baxmayaraq, öz dayanıqlılığını saxlaya bildiyini, iqtisadi sabitliyin təmin edildiyini, aparılan ciddi və hərtərəfli iqtisadi islahatların ölkənin gələcək inkişafı üçün perspektivlər açdığını diqqətə çatdırıb. Bildirib ki, bu islahatlar nəticəsində bütün sosial proqramlar uğurla icra edilib, qeyri-neft sənayesi 5 faiz, kənd təsərrüfatı 2 faiz, əhalinin pul gəlirləri 7 faiz, orta əmək haqqı 9 faiz artıb. Qəbul




edilən Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər regionlarda sahibkarlığın inkişafını sürətləndirib, iqtisadiyyatın tarazlı və davamlı inkişafına, infrastrukturun müasirləşdirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına etibarlı zəmin yaradıb.

Xüsusi vurğulanıb ki, ötən il ölkəmizin hərtərəfli inkişafına zəmin yaradan qərarların qəbul edilməsi, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi, ordumuzun aprel döyüşlərində şanlı qələbələri, Bakının Avropa və dünya miqyaslı siyasi, iqtisadi və humanitar tədbirlərə ev sahibliyi etməsi ilə yadda qalıb.

Bildirilib ki, son dövrdə ölkəmizdə həyata keçirilən mütərəqqi, ardıcıl iqtisadi təşəbbüslər, idarəetmə sistemində aparılan köklü dəyişikliklər, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın və ictimai nəzarətin artırılması ilə bağlı qəbul olunan strateji əhəmiyyətə malik innovativ qərarlar, vətəndaşlara dövlət orqanları tərəfindən yüksək səviyyəli xidmətin göstərilməsi üçün "ASAN xidmət" mərkəzlərinin sayının 11-ə çatdırılması, xidmətin funksiyalarının genişləndirilməsi və digər sosial xarakterli tədbirlər möhkəm təməl üzərində qurulmuş "İnkişafın Azərbaycan modeli"nin bariz göstəricisidir.

Diqqətə çatdırılıb ki, 2016-cı il Azərbaycan Prokurorluğu orqanları üçün də uğurlu olub. Daxili işlər, ədliyyə, məhkəmə və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub. Prokurorluq orqanlarının səyləri Prezident İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, prokurorluqda islahatların yeni məzmunda davam etdirilməsinə, işin səmərəliliyinin artırılmasına, mövcud çatışmazlıqlar və mənfi təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilib.

Hesabat ilində qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması və onları törətmiş şəxslərin müəyyənləşdirilib məsu-

liyyətə cəlb edilmələri üçün zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Daxili İşlər Nazirliyinin qurumları ilə birgə həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində 178 qəsdən adam öldürmə cinayətindən 172-sinin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş 64 cinayətin isti izlərlə açılması təmin olunub. Həmin cinayətlərin açılması 96,6 faiz (2015-ci ildə 95,5 faiz) təşkil edib.



Qeyd olunub ki, əlaqədar dövlət təsisatları tərəfindən cinayətkarlığa və onun mütəşəkkil təzahürlərinə qarşı mübarizə ilə bağlı həyata keçirilmiş qabaqlayıcı profilaktiki tədbirlər nəticəsində ötən il qeydə alınmış ağır və xüsusilə ağır, qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd, quldurluq, soyğunçuluq, odlu silahla törədilən, ictimai yerlərdə baş verən və sair cinayətlərin sayı 2015-ci illə müqayisədə əhəmiyyətli dərəcədə azalıb.

Daxili işlər orqanları ilə birgə həyata keçirilən qabaqlayıcı tədbirlərin, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarını tənzimləyən normativ aktların düzgün tətbiqinin və cəzanın labüdlüyünün təmin edilməsinin nəticəsində respublika ərazisində qeydə alınmış yol-nəqliyyat hadisələri 9,6 faiz, qəzalarda ölənlərin sayı 15,1 faiz, yaralananların sayı isə 11,6 faiz azalıb.

Cinayətkar ekstremizm təzahürlərinə qarşı həyata keçirilən mübarizə tədbirləri də diqqət mərkəzində saxlanılıb. Bu qəbildən olan cinayətlərdə iştirakı olan bütün şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb edilmələri, eyni zamanda həmin cinayətləri doğuran səbəb və şəraitin aşkarlanaraq müvafiq qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib.

Hesabat dövründə ümummilli lider Heydər Əliyevin ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi “28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında” 2016-cı il 20 may tarixli qərarın vaxtında icrasını təmin etmək məqsədilə Baş Prokurorluq tərəfindən zəruri işlər görülüb. Qərarın qüvvəyə mindiyi gündən dörd ay müddətində ümumilikdə 10 min 931 məhkum barəsində amnistiya aktı tətbiq edilib.

Xüsusi vurğulanıb ki, Azərbaycan Prezidentinin “Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında” 2009-cu il 22 iyun tarixli Fərmanında və 2016-cı il 27 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nda korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılması, ictimai nəzarətin gücləndirilməsi ilə əlaqədar prokurorluq orqanlarının üzərinə böyük məsuliyyət qoyulub.

Bildirilib ki, dövlətimizin başçısının siyasi iradəsinə uyğun olaraq, hesabat dövründə Azərbaycan Prokurorluğunun əlaqədar struktur qurumları, bütün tabe prokurorluqlar, ilk növbədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən mütəşəkkil cinayətkarlığın korrupsiya və rüşvətxorluq kimi təhlükəli təzahürlərinə qarşı mübarizənin gücləndirilməsi, belə cinayətlərin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində səmərəli tədbirlər görülüb. Baş İdarə tərəfindən rüşvətlə bağlı, vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı, vəzifədən sui-istifadə və sair faktlar üzrə 313 şəxs barəsində 201 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Həmin işlər üzrə vurulmuş maddi ziyandan istintaq dövründə 33 milyon manatın ödənilməsi təmin edilib, 78 milyon manat məbləğində əmlakın üzərinə həbs qoyulub. BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının, eləcə də Avropa Şurasının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) korrupsiya əleyhinə Konvensiyasının implementasiyası ilə




əlaqədar Baş İdarənin əməkdaşları 12 ölkədə antikorrupsiya qanunvericiliyinin vəziyyəti və tətbiqi ilə bağlı keçirilən monitorinqlərdə ekspert qismində iştirak ediblər. Cari ildə onların daha dörd ölkədə iştirakları nəzərdə tutulub.

Müşavirədə prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində səmərəliliyin artırılması məqsədilə zəruri tədbirlərin görülməsinin intensivləşdirilməsi, “Elektron sənəd dövriyyəsi” və “Elektron cinayət” proqramlarının bütövlükdə prokurorluq orqanları tərəfindən istifadəsinin təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası prokurorluğunun və arazi hərbi prokurorluqlarının vahid şəbəkəyə qoşulması, həmin proqramların beynəlxalq təcrübə nəzərə alınmaqla funksional imkanlarının və tətbiqi dairəsinin genişləndirilməsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, eyni zamanda, bu proqramların yerlərdə prokurorluq əməkdaşları tərəfindən istifadəsinin nəzarətdə saxlanılması barədə müvafiq tapşırıqlar verilib.

Hesabat dövründə Azərbaycanda uğurla reallaşdırılan dövlət gənclər siyasətinə və ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə edilməsi barədə dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, ədalətli və şəffaf prosedurlar əsasında gənc hüquqşünasların prokurorluğa qulluğa qəbulu istiqamətində tədbirlərin davam etdirilməsi, sonuncu müsabiqənin nəticələri də nəzərə alınmaqla işə qəbul olunan gənclərin hazırda prokurorluq orqanlarının kadr korpusunun 63 faizini təşkil etməsi və onların vəzifədə irəli çəkilməsi prokurorluqda aparılan kadr islahatının böyük uğuru kimi dəyərləndirilib.

Bildirilib ki, hesabat dövründə bir çox aktual və ictimaiyyətin maraq dairəsində olan cinayət işləri üzrə məhkəmələrdə dövlət ittihamı yüksək peşəkarlıqla müdafiə edilib.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq, 2016-cı ildə də prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə ya-

naşılıb. Respublikanın 11 rayonunda Baş Prokurorluğun rəhbərliyi tərəfindən 325 vətəndaş qəbul edilib. Yerlərdə müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkilində müəyyən çatışmazlıqlar diqqətə çatdırılıb. Tələb edilib ki, bu sahə gündəlik nəzarətdə saxlanılsın.

Qeyd olunub ki, prokurorluq orqanlarında ciddi tələbkarlıq şəraitinin formalaşdırılması istiqamətində həyata keçirilən qətiyyətli tədbirlərin nəticəsi olaraq, ötən il icra və əmək intizamının pozuntusuna, işində və xidmətdən kənar fəaliyyətdə kobud qanunsuzluqlara yol verdiklərinə görə 58 əməkdaş intizam məsuliyyətinə cəlb edilib. Prokurorluq işçisinə yaraşmayan və prokurorluqda xidmətlə bir araya sığmayan hərəkətlərə yol verdiklərinə görə 9 əməkdaş prokurorluq orqanlarından xaric olunub. Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələri, habelə Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının müvafiq qurumları, habelə bütün strukturların rəhbərləri və tabe prokurorlardan, mənfi təzahürlərə qarşı barışmaz mübarizə xəttinin bundan sonra da qətiyyətlə davam etdirilməsi, xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi məsələlərində prinsipiallığın artırılması tələb edilib.

Hesabat dövründə 6 qəsdən adam öldürmə cinayətinin, o cümlədən Bakının Sabunçu rayonunda 2, Gəncənin, Daşkəsən, Gədəbəy və Bərdə rayonlarının hər birində bir belə cinayətin bağlı qalması ciddi nöqsan kimi dəyərləndirilib. Baş Prokurorluğun əlaqədar struktur qurumlarına və tabe prokurorlara tapşırılıb ki, 2016-cı ildə və əvvəlki illərdə törədilən, lakin bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması üçün daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə zəruri tədbirlərin görülməsi davam etdirilsin.

Qeyd edilib ki, görülmüş müsbət işlərə baxmayaraq, cinayət işlərinin istintaqı və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində qüsurlar hələ də qalır. Cinayət-prosessual qanunvericiliyin tələblərinin, təqsirləndirilən şəxslərin müdafiə hüquqlarının pozulması, əsassız prosessual qərarların qəbul edilməsi hallarına yol verilir. İstintaq işinin düzgün təşkilinə cavabdeh olan sahəvi qurumların rəhbərləri tərəfindən həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması kimi mühüm prosessual hərəkətlərin icrası zamanı qanunvericiliyin tələblərinə dönmədən əməl olunması, istintaq işinin keyfiyyətinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin zəruri tələblər səviyyəsində təşkili üçün ciddi tədbirlərin görülməsi məqsədilə konkret tapşırıqlar verilib.

Kollegiya iclasında xüsusi vurğulanıb ki, ordu quruculuğu məsələlərinə dövlət səviyyəsində ən yüksək diqqət yetirilməsi, müdafiə sənayesi potensialının yaradılması və bu məsələlərə ayrılan büdcə vəsaitlərinin ilbəil artırılması Silahlı Qüvvələrin potensialının daha da yüksəlməsi ilə nəticələnib. Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən işin səmərəli təşkili, hərbi prokurorluq orqanlarının strukturunun təkmilləşdirilməsi və fəaliyyətinin müasirləşdirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunub. Müdafiə Nazirliyi ilə qarşılıqlı əlaqədə görülmüş işlərin nəticəsində bəzi hərbi cinayətlərin, o cümlədən qəsdən adam öldürmə, özünü öldürmə həddinə çatdırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə, fərarilik cinayətlərinin sayının əhəmiyyətli dərəcədə azalmasına, hərbi prokurorluq orqanları üzrə qeydə alınmış cinayətlərin 99,1 faizinin açılmasına, rüşvətxorluq və korrupsiya faktları üzrə cinayət işlərinin yüksək peşəkarlıqla istintaq edilərək təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsinə, erməni təcavüzkarları tərəfindən törədilmiş soyqırımı və digər ağır cinayətlərin araşdırılması istiqamətində məqsədyönlü istintaq və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə nail olunub. Əminliklə qeyd edilib ki, Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən hesabat ilində əldə edilmiş müsbət iş göstəricilərinin daha da möhkəmləndirilməsi və fəaliyyət istiqamətləri üzrə işin təkmilləşdirilməsi, artım tendensiyası müşahidə olunan cinayətlərin profilaktikası, cinayət əməlləri nəticəsində vurulmuş maddi ziyanın ödənilməsinə yönəldilmiş işlərin səmərəliliyinin artırılması, xidməti və icra intizamının daha da yüksəldilməsi istiqamətində zəruri tədbirlərin görülməsi təmin ediləcək.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən müvafiq dövlət təsisatları ilə əlaqəli şəkildə ötən il cinayətkarlığın bütün təzahürlərinə və qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, fəaliyyət sahələri üzrə işin təkmilləşdirilməsi, müsbət iş göstəricilərinə nail olunmaqla ciddi nizam-intizam yaradılması təmin edilib. Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarına işə növbəti qəbulun müvəffəqiyyətlə

həyata keçirilməsi, əməkdaşların peşə hazırlığı səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlər aparılan islahatların uğurlu nəticələri kimi dəyərləndirilib.

Bakı şəhər prokurorluğu tərəfindən də "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin düzgün təşkili və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində bir sıra səmərəli tədbirlərin həyata keçirilməsi təmin edilmiş, daxili işlər orqanları ilə əlaqəli şəkildə görülmüş məqsədyönlü tədbirlərin nəticəsi olaraq, şəhər üzrə qeydə alınmış ağır və xüsusilə ağır cinayətlərin, o cümlədən qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd, quldurluq cinayətlərinin, ölümlə nəticələnən yol-nəqliyyat hadisələri və həmin hadisələr nəticəsində ölənlərin sayının azalmasına nail olunmuş, konkret cinayət işləri üzrə peşəkarlıq səviyyəsində istintaq aparılıb.

Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Baş prokurorun müavini - Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavini Namiq Əsgərov, Baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Bakı şəhər prokuroru Əziz Seyidov, Gəncə şəhər prokuroru Fazil Həsənəliyev və Füzuli rayon prokuroru Ramazan Hadıyevin çıxışlarında ötən il cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində müvafiq tabe struktur qurumlar tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlar veriblər. Prokuror fəaliyyətinin səmərəliliyinin daha da artırılması, müasir məzmunda təkmilləşdirilməsi və bütün səylərə baxmayaraq hələ də mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş konkret təkliflər irəli sürülüb.

Kollegiya iclasına yekun vuran Baş prokuror əmin olduğunu bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə alaraq digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini bundan sonra da təmin edəcək, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və dövlətin daha da qüdrətlənməsi yolunda öz xidmətlərini göstərəcək.

**Baş Prokurorluğun Təşkilat-analitik idarəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

## 2016-cı ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib

Yanvarın 17-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2016-cı ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq, məruzəsində qeyd edib ki, Muxtar Respublika Prokurorluğu muxtar respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə həyata keçirilən quruculuq işlərinin əsas təminatlarından biri olan ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsini təmin etməyə çalışıb. Muxtar respublika ərazisində hesabat dövründə 15 az ağır, 9 ağır və 6 xüsusilə ağır cinayət hadisəsi qeydə alınması aidiyyəti rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməqdən qarşısının



alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməli, digər rayonların ərazilərində isə bundan sonra da cinayət hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Həyata keçirilən zəruri profilaktiki tədbirlərin nəticəsində yetkinlik yaşına çatmayanlar tərəfindən cinayət hadisəsi törədilməyib, əvvəllər məhkum olunanlar, narkomanlar və sərxoş vəziyyətdə olanlar tərəfindən cinayət hadisələri törədilməsi halları isə qeydə alınıb.

Qeyd olunub ki, daxili işlər orqanları ilə əlaqəli şəkildə həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində keçmiş illərdə baş verib qapalı qalan 2 cinayət hadisəsinin açılması təmin edilib. Bundan sonra da müvafiq şöbələr və tabe rayon (şəhər) prokurorları aidiyyəti orqanlarla əlaqəli şəkildə həmin cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyinin və kəsərliliyinin artırılması üçün konkret tədbirlər görməlidirlər.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 4 fakt qeydə alınıb. Lakin muxtar respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq rayon (şəhər) prokurorları bu sahəyə diqqəti artırmalı və profilaktiki işləri daha da gücləndirməlidirlər.

Prokurorluq orqanlarında 10 cinayət işi istintaq olunub ki, onlardan 8 iş ittiham aktı ilə məhkəməyə göndərilib, 2 iş növbəti ilə qalıq qalıb. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında prokurorluq orqanlarına 33 məlumat daxil olub ki, onların 8-i üzrə cinayət işi başlanıb, 21-i üzrə cinayət işi başlanması rədd edilib, 3-ü aidiyyatı üzrə göndərilib, 1-i isə növbəti hesabat ilinə qalıq qalıb, məlumatların baxılmasında müddət və qanun pozuntularına yol verilməyib, qəbul edilən qərarlardan ləğv ediləni olmayıb.

Qeyd olunub ki, dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 35 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilib, 31 iş üzrə ittiham hökmləri, 1 iş üzrə tibbi xarakterli məcburi tədbirlərinin tətbiq edilməsi barədə qərar çıxarılıb, 1 iş üzrə cinayət işinin icraatına xitam verilib, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 25 cinayət işi üzrə müvafiq qərarlar qəbul edilib. Məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə 21 işə baxılıb. “28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 20.05.2016-cı il tarixli qərarının icrası ilə əlaqədar 68 şəxsin barəsində amnistiya tətbiq olunub.

Daxili işlər orqanlarında istintaqı aparılan 24 cinayət işindən 15-i ittiham aktı ilə məhkəməyə göndərilib, 4-nün icraatına xitam verilib, 5 iş isə qalıq qalıb, həmçinin müddət pozuntusu ilə cinayət işi istintaq olunmayıb, istintaqı tamamlanan işlərdən məhkəmə və prokurorluq tərəfindən əlavə istintaqa qaytarılanı olmayıb, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə və tutma

hallarına yol verilməyib. Törədilmiş və ya hazırlanan cinayətlər barədə 40 məlumat daxil olmuş ki, onlardan 21-i üzrə cinayət işi başlanıb, 7-i üzrə cinayət işi başlanması rədd edilib, 11-i istintaq aidiyyəti üzrə göndərilib, 1-i isə qalıq qalıb. Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 5 şəxs barəsində 5 axtarış işi olub ki, onlardan 4-ü tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilib, 1 şəxsin tutulması isə təmin olunmadığından 1 yanvar 2017-ci il tarixə qalıq qalıb.

Qeydə alınan 20 yol nəqliyyat hadisəsi nəticəsində 20 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır. Cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi muxtar respublika ərazisində qeydə alınmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Dövlət Gömrük Komitəsində istintaq olunan 4 cinayət işindən 3-ü baxılması üçün məhkəməyə göndərilib, 1 iş isə növbəti ilə qalıq qalıb. Ədliyyə Nazirliyində istintaq olunan 2 cinayət işi üzrə icraat təqsirləndirilən şəxslərin yeri müəyyən olunmadığından dayandırılıb. Vergilər Nazirliyndə istintaq olunan 2 cinayət işindən 1-i baxılması üçün məhkəməyə göndərilib, 1 iş isə növbəti ilə qalıq qalıb. Dövlət Təhlükəsizliyi Xidmətində istintaq olunan 7 cinayət işindən 6 iş baxılması üçün məhkəməyə göndərilib, 1 iş isə növbəti ilə qalıq qalıb.

Qeyd olunub ki, prokurorluq orqanlarına vətəndaşlardan daxil olan 39 müraciətdən 9-u prokurorluqda həll edilib, 17-i aidiyyəti üzrə göndərilib, 13-ü isə istintaq olunan cinayət işlərinə əlavə edilib. Prokurorluğun elektron poçt ünvanına 1 müraciət daxil olub. 327 nəfər vətəndaş prokurorlar tərəfindən qəbul edilib, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülüb.

Prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 869 dəfə təbliğat işi aparılıb, kütləvi informasiya vasitələrində 385 dəfə, o cümlədən televiziyada 109, radioda 29, mətbuatda isə 247 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Naxçıvan televiziyasının "Qanunçuluq" televiziya proqramında 25 dəfə müxtəlif hüquqi mövzularda verilişlər efirə verilib, Babək və Culfa rayon prokurorluqları tərəfindən mətbuatla, Naxçıvan şəhər prokurorluğu tərəfindən isə televiziya ilə əlaqələr daha səmərəli təşkil olunub, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 oktyabr tarixli 2378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Tədbirlər Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Plan"nın icrası üzrə Azərbaycan dövlətçiliyinin qurulması və daha da möhkəmləndirilməsi, eləcə də demokratiyanın, milli dövlətçilik ideya və ənənələrinin inkişafı prosesində 25 ildə qazanılmış böyük uğurlar və onların əhəmiyyəti barədə 76 dəfə ictmaiyyətlə görüşlər keçirilib, kütləvi informasiya vasitələrində 27 dəfə, o cümlədən mətbuat orqanlarında 20, televiziyada 2, radioda isə 5 dəfə çıxışlar edilib. Azərbaycan Respublikası Baş Prokurorluğunun "Azərbaycan Respublikası Baş Prokurorunun "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 27 iyun 2005-ci il tarixli 09/62 saylı əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən görülən işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair 23.05.2016-cı il tarixli icmal məktubunda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunub.

Kadr işinin əsas istiqamətləri kimi kadrların seçilib yerləşdirilməsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub. Müvafiq əmrlərə əsasən 11 nəfər yuxarı təsnifat vəzifəyə təyin olunub, 10 nəfər həvəsləndirmə qaydasında mükafatlandırılıb, Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə 1 nəfərin barəsində intizam xarakterli tədbir tətbiq edilib, prokurorluq işçilərindən 1 nəfəri səhhəti ilə əlaqədar öz ərizəsi əsasında, 1 nəfəri isə prokurorluqda qulluqda olmanın yaş həddinə çatdığına görə tutduğu vəzifədən azad edilməklə prokurorluq orqanlarında qulluq keçmələrinə xitam verilib. Müxtəlif mövzular üzrə 459 tədris məşğələsi keçirilib.

Məruzə ətrafında çıxışlar olub.

Sonda əminliklə ifadə olunub ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan xalqına, onun dövlətçidiyinə və hakimiyyətə sədaqətlə xidmət edəcək.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Prezidentin Sərəncamından irəli gələn vəzifələr Baş Prokurorluqda müzakirə edilib




Fevralın 16-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda Prezident İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamından irəli gələn məsələlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Tədbirdə Baş prokuror Zakir Qaralov çıxış edərək xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevin humanist siyasətinin təzahürü olan həmin Sərəncamın mükəmməl şəkildə hazırlanmış strateji əhəmiyyətə malik sənəd olmaqla, ölkənin hüquq sisteminin əsaslı şəkildə yenilənməsinə və müasirləşməsinə imkan yaradacağını bildirib. Qeyd olunub ki, bu mühüm sənəd, eyni zamanda, cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması, cinayətlərin dekriminallaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsini nəzərdə tutmaqla, növbəti islahatların həyata keçirilməsinə mühüm təkan verəcək.

Xüsusi vurğulanıb ki, insan hüquqlarının daha etibarlı qorunmasına xidmət edəcək həmin Sərəncamın qəbul edilməsi ölkədə cəza siyasətinin həyata keçirilməsi sahəsində mövcud vəziyyətə dair təhlillərə əsaslanır. Aparılmış təhlillər göstərib ki, ibtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinami-



kasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur.

Bildirilib ki, Sərəncamda ölkənin hüquqi sistemində humanistlik prinsipinin tələblərinə xüsusi əhəmiyyət verilərək cəza sistemində cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyinin Probasiya xidmətinin yaradılması nəzərdə tutulub. Bundan başqa, sənəddə Ali Məhkəmə və Ədliyyə Nazirliyi ilə yanaşı, eyni zamanda, prokurorluq orqanlarının qarşısında mövcud qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə cinayətlərin dekriminallaşdırılması, alternativ cəzaların və qətimkan tədbirlərinin tətbiqi, həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması istiqamətlərində bir sıra mühüm vəzifələr qoyulub.

Qeyd edilib ki, Sərəncamda Ədliyyə Nazirliyinə Baş Prokurorluqla birgə elektron nəzarət vasitələrinin tətbiqi məqsədilə normativ hüquqi aktlara dəyişikliklərin edilməsinə dair təkliflərin hazırlanıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılıb.

Eyni zamanda bildirilib ki, Sərəncamda Baş Prokurorluğa həbs qətimkan tədbirinin seçilməsi barədə vəsatətlərə baxılarkən ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün araşdırılması və böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatların müstəsna hallarda və həbsin tətbiq edilməsinə dair cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş əsaslar mövcud olduqda verilməsi üçün tədbirlər görülməsi tövsiyə olunub.

Prokurorluq orqanları tərəfindən üzərlərinə düşən vəzifələrin vaxtında və keyfiyyətli icrası məqsədilə geniş tərkibdə işçi qrupu yaradılıb və qrupa konkret tapşırıqlar verilməklə 20 gün ərzində müvafiq qanun və normativ aktların layihələrinin hazırlanması tapşırılıb.

Əməliyyat müşavirəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin sektor müdiri Vüsal İsayev, Baş prokurorun müavini Namiq Əsgərov, Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifov, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Daxili İşlər Nazirliyinin baş istintaq və təhqiqat idarəsinin rəisi Sərvər Mehrəliyev, Ədliyyə Nazirliyinin təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov, Dövlət Təhlükəsizlik Xidmətinin istintaq baş idarəsinin rəisi Həsən Mansurov, Baş prokurorun böyük köməkçisi Mübariz Əhmədov Sərəncamdan irəli gələn məsələlər ətrafında çıxışlar edib, sənədin icrası ilə əlaqədar görüləcək işlər müzakirə olunub.

Tədbirə yekun vuran Baş prokuror dövlət başçısının verdiyi tapşırıqların vaxtında və keyfiyyətlə icrasını təmin etmək üçün rəy və təkliflərin hazırlanaraq qısa müddət ərzində işçi qrupuna təqdim olunması, eləcə də mövcud nöqsanların aradan qaldırılması və gələcəkdə təkrarlanmaması ilə bağlı konkret göstərişlər verib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycan ilə Ukrayna arasında hüquqi əməkdaşlıq daha da genişlənir





Ukraynanın Baş prokuroru Yuri Lutsenkonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanın Baş prokuroru Zakir Qaralovun dəvəti ilə ölkəmizə səfərə gəlib.

Fevralın 19-da nümayəndə heyəti Fəxri xiyabana gəlmiş, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülüb.

Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzərək “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Daha sonra nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilib.

Qonaqları səmimi salamlayan Baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Petro Poroşenkonun müstəsna xidmətlərini xüsusi qeyd edib. Strateji müttəfiqliyə əsaslanan bu münasibətlərin ölkələrimizin daha da yaxınlaşması, hər iki respublikanın müxtəlif dövlət təsisatları, o cümlədən prokurorluq orqanları arasında faydalı əməkdaşlıq əlaqələrinin inkişafında stimul olduğu



bu əlaqələr çərçivəsində 1994-cü il mayın 17-də “Ukrayna Baş Prokurorluğu və Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında hüquqi yardım və əməkdaşlıq haqqında” Sazişin imzalanmasının ölkələrimizin prokurorluq orqanları arasında münasibətlərin məzmunca yeni müstəviyə qaldırılmasında mühüm rol oynadığını diqqətə çatdıraraq, sön dövrlər Ukraynada yaşayan azərbaycanlılara qarşı törədilmiş cinayətlərin istintaqını şəxsi nəzarətinə götürdüyünə görə Yuri Lutsenkoya təşəkkürünü bildirib.

Görüşdə Baş prokuror Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin qarşıda duran digər vəzifələr barədə ətraflı məlumat verib.

Yüksək qonaqpərvərliyə görə dərin təşəkkürünü bildirən Ukraynanın Baş prokuroru Yuri Lutsenko Azərbaycanda uğurla həyata keçirilən hüquqi islahatlara böyük maraq göstərdiyini, hüquqi sahədə əməkdaşlığın geniş perspektivlərə malik olduğunu vurğulayaraq, ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin sürətlə inkişaf etdiyini, xüsusilə iki ölkə prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsinin qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət etdiyini bildirib.

Azərbaycan ilə Ukrayna arasında dostluq əlaqələrinin sıx olduğunu bildirən qonaq ölkələrimizin demokratik inkişaf yolu ilə inamla irəlilədiyini vurğulayıb, eyni zamanda respublikamızın çox qısa zamanda yüksək nailiyyətlər əldə etməsini xüsusi qeyd edərək, məhkəmə sisteminin



müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri alqışlayıb.

Görüşdə hər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa, o cümlədən terrorçuluq və ekstremizmə qarşı birgə mübarizə sahəsində geniş fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

Nümayəndə heyəti sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan dövləti, onun hüquq sistemi, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş guşə və eksponatlar, dövlət başçısının rəhbərliyi altında həyata keçirilən islahatlar, Azərbaycan Prokurorluğunun zəngin tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materiallardan ibarət guşə onlarda xüsusi təəssürat oyadıb.

Qonaqlar daha sonra Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olublar.

Nümayəndə heyətinə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən institusional tədbirlər barədə, habelə Baş İdarənin strukturu və fəaliyyət istiqamətlərinə dair ətraflı məlumat verildi.

Sonra qonaqlar milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə

Baş İdarəsinin inzibati binasında müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, kriminalistika otağı, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı ilə yaxından tanış olublar.

Baş İdarədə yaradılmış yüksək iş şəraitindən məmnunluğunu ifadə edən Ukraynanın Baş prokuroru Yuri Lutsenko ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirib.

Görülmüş işlər böyük marağa səbəb olduğundan gələcəkdə korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinə sonda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən kitablar təqdim edilib.

Görüşlərdə Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişenko iştirak edib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə məruzəçisi Baş Prokurorluqda olub

Fevralın 10-da Baş prokuror Zakir Qaralov Avropa Şurası Parlament Assambleyasının (AŞPA) hüquqi işlər və insan hüquqları komitəsinin Azərbaycan üzrə məruzəçisi Alan Desteksin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Baş prokuror AŞPA ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dinamik inkişaf etdiyini bildirərək Prezident cənab İlham Əliyevin ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı mütərəqqi qanunvericilik aktları, həyata keçirilən islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün yaradılmış normativ-hüquqi baza və korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlər barədə ətraflı məlumat verib.

Baş prokuror Ermənistan silahlı qüvvələri tərəfindən 25 ildən artıq müddət ərzində beynəlxalq hüququn normalarının pozularaq Azərbaycan ərazilərinin işğal altında saxlanılması, 1 milyondan artıq azərbaycanlının öz torpaqlarından didərgin salınaraq qaçqın və məcburi köçkünə çevrilməsi, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması barədə 4 qətnaməsinin bu günədək icra edilməməsini diqqətə çatdırıb.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Alan Desteks ətraflı məlumata görə təşəkkürünü bildirib. O, Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığını təqdir edərək, məhkəmə-hüquq sistemində aparılan islahatlardan məmnunluğunu vurğulayıb.

Söhbət zamanı insan haqlarının müdafiəsinin daha da gücləndirilməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda qonaqlara Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan, Xocalı soyqırımının 25-ci ildönümünə həsr edilən "Xocalıya ədalət!" kitabı təqdim olunub.

Görüşdə Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov iştirak edib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Avropa Şurasının nümayəndə heyəti Baş Prokurorluqda olub

Martın 15-də Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubov Avropa Şurası Siyasi Məsələlər Direktorluğunun rəhbəri Aleksandr Qesselin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dinamik inkişaf etdiyini bildirən Baş prokurorun birinci müavini Rüstəm Usubov ölkəmizin demokratiya və insan hüquq və azadlıqları prinsiplərinə daim sadiq olduğunu, Azərbaycan Respublikasının Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi baxımından belə görüşlərin çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı mütərəqqi qanunvericilik aktları, aparılan islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün yaradılan normativ-hüquqi baza, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən mühüm tədbirlər və bu sahədə prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə qonaqlara ətraflı məlumat verilib.

İnsan hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik bazasının daim təkmilləşdirildiyini, bu sahədə ölkəmizin beynəlxalq konvensiyalara qoşulduğunu, insan hüquq və azadlıqlarının qorunmasının prokurorluq orqanları qarşısında duran prioritet vəzifə olduğunu, eyni zamanda, bir sıra beynəlxalq, o cümlədən Avropa Şurasının GRECO təşkilatı ilə uğurlu əməkdaşlığını diqqətə çatdıran Rüstəm Usubov, Azərbaycan Prezidentinin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı Sərəncamının əhəmiyyətini xüsusi vurğulayaraq bu mühüm sənədin sistemli şəkildə həyata keçirilən hüquqi islahatların növbəti mərhələsinin əsasını, həmçinin prokurorluq orqanları qarşısında yeni öhdəliklər qoyduğunu bildirib.

Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamını maraqla qarşıladığını ifadə edən Aleksandr Qessel, Avropa Şurası ilə əməkdaşlığı təqdir edib. O, Avropa məkanında da insan hüquqlarının mövcud problemlərinə toxunaraq Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib.

Görüşdə əməkdaşlığın perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Avropa Şurası Katibliyinin nümayəndə heyəti Baş Prokurorluqda olub

Yanvarın 11-də Azərbaycan Respublikası Baş prokurorunun müavini Namiq Əsgərov Avropa Şurası Katibliyinin Hüquqi məsələlər və qanunun aliliyi üzrə direktoru Filip Buaya və Siyasi məsələlər üzrə direktoru Aleksandr Qessellə görüşüb.

Görüşdə Baş prokurorun müavini Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verildiyini bildirib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində imzaladığı mü-

tərəqqi qanunvericilik aktları, həyata keçirilən islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün yaradılan normativ-hüquqi baza və korrupsiyaya qarşı mübarizə sahəsində görülən konkret işlər barədə ətraflı məlumat verib.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinin prokurorluq orqanları qarşısında prioritet vəzifə olduğunu diqqətə çatdıran Namiq Əsgərov çıxışında, respublikamızda "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın implementasiyası, insan hüquqlarının qorunması istiqamətində aparılan işlər, o cümlədən "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar konkret işlərin həyata keçirildiyini, eyni zamanda cinayət təqibi zamanı insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində prokurorluğun rolu və bu istiqamətdə respublikanın digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqələrin qurulduğunu xüsusi vurğulayıb.

Azərbaycan Respublikasına səfərindən məmnunluğunu ifadə edən Filip Buaya əlaqələrimizin müxtəlif istiqamətlərdə uğurlu inkişafını, ölkəmizin Avropa Şurası ilə əməkdaşlığını təqdir edib. O, məhkəmə-hüquq sistemində aparılan islahatlara maraq göstərərək insan haqlarının müdafiəsinin daha da gücləndirilməsi ilə bağlı fikirlərini bildirib.

Tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Avropa Şurasının Bakı ofisinin rəhbəri Draqana Filipoviç iştirak edib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Avropa Şurası Parlament Assambleyasının həmməruzəçiləri ilə Baş Prokurorluqda görüş keçirilib

Yanvarın 13-də Azərbaycan Respublikası Baş prokurorunun müavini Namiq Əsgərov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Ştefan Şennak və Sezar Florin Predanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AŞPA ilə müxtəlif istiqamətlərdə, o cümlədən hüquqi sahədə sıx əməkdaşlıq etdiyini bildirən Baş prokurorun müavini Azərbaycanın Avropa Şurasına üzv qəbul olunduqdan sonra ölkəmizdə həyata keçirilən hüquqi islahatlar, qanunvericilik bazasının təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafı istiqamətində görülən genişmiqyaslı işlər barədə ətraflı məlumat verib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı mütərəqqi qanunvericilik aktları, həyata keçirilən islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün yaradılan normativ hüquqi baza, prokurorluq orqanlarının strukturunun daha da təkmilləşdirilməsi istiqamətində aparılan köklü islahatlar, o cümlədən şəffaf prosedurlar əsasında test yolu ilə qulluğa qəbul edilən gənc hüquqşünasların prokurorluğun kadr korpusunun yarıdan çoxunu təşkil etməsi müsbət hal kimi dəyərləndirilib.

AŞPA ilə Azərbaycan Respublikası arasında əməkdaşlıqdan və bu əlaqələrin daha da inkişaf etdirilməsindən məmnunluğunu ifadə edən qonaqlar ölkəmizdə insan hüquqlarının qorunması istiqamətində atılan addımları, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatları, xüsusilə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işləri yüksək qiymətləndiriblər.

Görüşdə qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə olunub, tərəfləri maraqlandıran suallar və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Tədbirdə Avropa Şurasının Bakı ofisinin rəhbəri xanım Draqana Filipoviç iştirak edib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

**Baş prokuror Sumqayıt şəhərində vətəndaşları qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş prokuror Zakir Qaralov yanvarın 30-da Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Abşeron, Qubadlı, Xızı və Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi ziyarət edilərək əziz xatirəsi ehtiramla yad edilib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda bölgədə yaşayan 32 vətəndaşın müraciətinə baxılıb.

## Baş prokuror Göyçay şəhərində vətəndaşları qəbul edib



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov fevralın 17-də Göyçay rayon prokurorluğunun inzibati binasında Göyçay, Kürdəmir, Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Göyçay rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 18 vətəndaş qəbul edilib.

## Baş prokuror Cəlilabad şəhərində vətəndaşları qəbul edib

Baş prokuror Zakir Qaralov martın 17-də Cəlilabad rayon prokurorluğunun inzibati binasında Cəlilabad, Biləsuvar, Neftçala və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Qəbulda 21 vətəndaş qəbul edilib.

***

Qəbullar zamanı vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

Müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib. Prokurorluğun səlahiyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin isə araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunub.

Vətəndaşlar yerlərdə qəbulun və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Baş prokuror tabe prokurorların iştirakı ilə keçirilən müşavirələrdə Prezident cənab İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı imzaladığı 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamından irəli gələn tövsiyə və tapşırıqların vaxtında və dürüst icrası ilə bağlı konkret göstərişlər verib.

Eyni zamanda dövlət başçısının məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı tələbləri diqqətə çatdırılmaqla vətəndaşlara daha həssaslıq və qayğı ilə yanaşılması tapşırılıb.

Bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

*Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevaya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi münasibəti ilə Baş prokuror Zakir Qaralov təbrik ünvanlayıb*

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya!

Hörmətli Mehriban xanım!

Sizi Möhtərəm Prezidentimiz zati-aliləri cənab İlham Əliyevin imzaladığı 21 fevral 2017-ci il tarixli Sərəncamla Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməyiniz münasibəti ilə Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti, Azərbaycanın xoşbəxt gələcəyi naminə yorulmaz, fədakar və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Bu gün şəxsi örnəyiniz və ictimai fəallığınızla müasir Azərbaycan qadınını bütün dünyada ləyaqətlə təmsil edir, Azərbaycan ailəsinin yüksək mənəvi dəyərlərə söykəndiyini və ümumbəşəri ideallar əsasında yaşadığını təcəssüm etdirirsiniz. Gənc nəslə bəslədiyiniz dərin məhəbbət və qayğı ilə hamıya nümunə göstərir və bütün bu işlər nəcib qəlbinizin və insanlara xeyirxah münasibətinizin ifadəsidir.

İstər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər ictimai, mesenatlıq fəaliyyətiniz, istərsə də elm, təhsil, mədəniyyət və səhiyyə sahələrinin inkişafına verdiyiniz əvəzsiz töhfələr Sizin əsl vətəndaşlıq mövqeyinizin, yüksək mənəvi məsuliyyətinizin bariz nümunəsidir.

2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıtdırılması və təbliği istiqamətində ardıcıl iş aparmaqla yanaşı, ölkəmizdə cəmiyyətin inkişafı üçün son dərəcə əhəmiyyətli olan bir sıra xeyirxah və nəcib layihələrin gerçəklənməsində yaxından iştirak etmiş, milyonlarla insanın hədsiz inam və etimadını qazanmışdır. Bəşəriyyətin nicatına, insanlığın yüksəlişinə xidmət edən fundamental dəyərlərin inkişafında Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı kimi Sizin xüsusi xidmətləriniz vardır. Məhz Sizin rəhbərliyiniz altında milli mədəniyyətin sadiq keşikçisinə çevrilmiş Heydər Əliyev Fondu, ilk növbədə, ulu öndərin müdrikliyinə əsaslanan həyat fəlsəfəsini, xalqa xidmət missiyasının əbədi yaşarlığını təmin edən mühüm ideoloji-humanitar mərkəzə çevrilmişdir.

Fondun vətəndaşların hər bir müraciətinə həssas münasibəti, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində əzmkar fəaliyyəti, təhsil, səhiyyə və idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verməsi bu qurumun ən ali ideallara xidmət etdiyinin əyani sübutudur.

UNESKO və ISESCO-nun xoşməramlı səfiri olaraq, Siz xalqlar arasında mədəni əlaqələrin daha da genişləndirilməsi, Azərbaycan mədəniyyətinin dünyada tanınması üçün əlinizdən

gələni edirsiniz. Prezidenti olduğunuz Heydər Əliyev Fondu Azərbaycanın sivilizasiyalar arasında dialoq körpüsünə çevrilməsinə yönəlmiş əhəmiyyətli addımlar atmaqdadır. Mədəniyyətlərarası əlaqələrin inkişafı istiqamətində gördüyünüz mühüm işlər Şərq və Qərb sivilizasiyaları arasındakı qarşılıqlı zənginləşmə prosesində xüsusi rol oynayan Azərbaycanın şərəfli tarixi missiyasının reallaşdırılmasına xidmət edir.

Milli Məclisin deputatı kimi fəaliyyətinizdə humanizm, mərhəmətlik və insanpərvərlik ənənələrini davam etdirərək təşəbbüsünüzlə qəbul edilmiş genişmiqyaslı amnistiya aktları ilə minlərlə insanın ailələrinə, cəmiyyətə qovuşması ümummilli lider Heydər Əliyevin zəngin mənəvi irsinə verdiyiniz əvəzsiz töhfənin əyani sübutudur.

2015-ci ilin birinci yarısı Azərbaycanın tarixinə möhtəşəm hadisənin – ilk Avropa Oyunlarının keçirildiyi vaxt kimi daxil olmuş və ölkəmizin belə genişmiqyaslı tədbirə ev sahibliyi etməsi, eyni zamanda idmançılarımızın qazandığı parlaq qələbələr müstəqil Azərbaycan Respublikasının son illərdə əldə etdiyi nailiyyətlərin, sosial-iqtisadi sahədəki müvəffəqiyyətlərin bariz nümunəsidir. Bu qələbələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin artan qüdrətini, böyük təşkilatçılıq tələb edən mötəbər tədbirləri yüksək səviyyədə keçirməyə qadir olduğunu bir daha təsdiqləmişdir.

Birinci Avropa Oyunlarının beynəlxalq standartlara cavab verən səviyyədə keçirilməsində fədakar əməyiniz danılmazdır. Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinizə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinizə görə dövlətimizin ali mükafatı – "Heydər Əliyev" ordeni ilə təltif edilməyiniz həyata keçirdiyiniz çoxşaxəli fəaliyyətiniz nəticəsində qazandığınız yüksək nüfuzun və şəxsiyyətinizə dərin ehtiramın parlaq təcəssümüdür. Uğurla başa çatmış ilk Avropa Oyunlarının ardınca eyni məkanda İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışların Təşkilat Komitəsinə rəhbər təyin olunmağınız bu tədbirin beynəlxalq səviyyədə keçirilməsinə dövlət səviyyəsində Sizə göstərilən etimadın bir daha əyani təzahürüdür.

Ümidvaram ki, təyin olunduğunuz yeni ali vəzifədə ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu Müstəqil Azərbaycan Respublikasının daha da qüdrətlənməsi və beynəlxalq nüfuzunun artması istiqamətində səmərəli fəaliyyət göstərərək möhtəşəm uğurlara imza atacaqsınız.

Hörmətli Mehriban xanım!

Sizi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə ailə səadəti, xoşbəxtlik diləyir, Azərbaycan Respublikası və azərbaycan xalqı naminə məsuliyyətli və şərəfli dövlətçilik fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

**Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından** **Zakir Qaralov**

Bakı şəhəri, 21 fevral 2017-ci il

**Hörmətli oxucular!**

Sizin diqqətinizə Rusiya Federasiyasının məhkəmə və prokuror nəzarəti təcrübəsindən bir nümunə təqdim edirik. Nümunə Rusiya Federasiyası Baş Prokurorluğunun internet saytından götürülüb[1]. Oxşar situasiya ilə prokurorlar, hakimlər, vəkillər və digər şəxslər rastlaşa bilərlər[2]. Nümunə ilə tanışlıq onların qarşısına çıxan ziddiyyətlərin aradan qaldırılmasına əvvəlcədən hazır olmağa kömək edə bilər. Qeyd edilməlidir ki, Azərbaycan Respublikası Konstitusiyasının 64-cü maddəsi (Maddə 64. Bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi) təsbit edib ki, "Heç kəs bir cinayətə görə təkrarən məhkum edilə bilməz.". İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına dair 7 saylı protokolun 4-cü maddəsində (İki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ) göstərilib ki, "Heç kəs hər hansı dövlətin qanunlarına və ya cinayət-prosessual normalarına müvafiq olaraq, artıq bəraət aldığı və ya məhkum edildiyi cinayətlərə görə həmin dövlətin yurisdiksiyası çərçivəsində cinayət qaydasında təkrar məhkum edilə və ya cəzalandırıla bilməz.". Nəzərə alınmalıdır ki, Avropa Məhkəməsi bu hüququn inzibati xəta haqqında üzrə icraatda da cinayət prosesindəki standartlar səviyyəsində müdafiəsi prinsipini təsbit edib (məsələn, bax: *Sergey Zolotuxin Rusiyaya qarşı* iş üzrə (14939/03 nömrəli ərizə) 10.02.2009-cu il tarixli qərar).

**Nazir Bayramov,**
*Baş redaktorun müavini*

# Rusiya Federasiyası Baş prokurorunun protestinə əsasən Rusiya Federasiyası Ali Məhkəməsi tərəfindən şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olan inzibati xəta haqqında iş üzrə məhkəmə qərarı ləğv edilib

Hakimin qanuni qüvvəyə minmiş qərarı ilə Qraçov Rusiya Federasiyası İnzibati Hüquqpozmalar Məcəlləsinin 12.26-cı maddəsinin 1-ci hissəsi ilə (sərxoşluq vəziyyətinin yoxlanması barədə polis əməkdaşının qanuni tələbinin yerinə yetirilməməsi)[3] təqsirli bilinib.

[1] Bax: http://www.genproc.gov.ru/documents/jurisprudence/supreme_court/document-1155666/

[2] Bax: Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair" 31.01.2017-ci il tarixli qərarı

[3] Bax: КоАП РФ, Статья 12.26. Невыполнение водителем транспортного средства требования о прохождении медицинского освидетельствования на состояние опьянения

1. Невыполнение водителем транспортного средства законного требования уполномоченного должностного лица о прохождении медицинского освидетельствования на состояние опьянения, если такие действия (бездействие) не содержат уголовно наказуемого деяния, – влечет наложение административного штрафа в размере тридцати тысяч рублей с лишением права управления транспортными средствами на срок от полутора до двух лет.

Sonradan onun barəsində Rusiya Federasiyası CM-nin 264-cü maddəsinin 2-ci hissəsi ilə nəzərdə tutulmuş cinayətin əlamətləri üzrə cinayət işi başlanıb, belə ki, Qraçov tərəfindən törədilmiş yol nəqliyyat hadisəsi nəticəsində sərnişinin sağlamlığına ağır zərər vurulmuşdu.

Yuxarıda göstərilən hallarla əlaqədar Smolensk vilayət prokurorunun müavini hakimin qərarının ləğvi və icraata Rusiya Federasiyası İXM-nin 24.5-ci maddəsinin 1-ci hissəsinin 7-ci bəndinə əsasən xitam verilməsi barədə Rusiya Federasiyası İXM-nin 30.12-ci maddəsi[4] ilə nəzərdə tutulmuş qaydada protest verib. Smolensk vilayət məhkəməsi sədrinin müavininin 16.08.2016-cı il tarixli qərarı ilə Smolensk vilayət prokurorunun müavininin protesti təmin edilməyib, belə ki, inzibati tənbeh tətbiq edilməsi barədə qərarın bu əsasla ləğv edilməsi barəsində təqsirli bilinməsi haqqında qanuni qüvvəyə minmiş və qismən icra edilmiş məhkəmə aktı olan şəxsin təkrar olaraq təqib olunmasını qadağan edən normalara zidd olar.

Bununla belə, şəxsin Rusiya Federasiyası İXM-nin 12.26-cı maddəsinin 1-ci hissəsi ilə inzibati məsuliyyətə cəlb edilməsi barədə hakimin ləğv edilməmiş qərarının mövcudluğu cinayət işi üzrə hökm çıxarılmasına mane olurdu.

Göstərilən hallar qanunun açıq-aşkar pozulması və bunun nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına ağır zərər vurulması kimi nəticələr şəraitində təqsirli şəxsin cinayət məsuliyyətindən azad olunmasına imkan verə və bununla cəzanın labüdlüyü prinsipi pozula bilərdi.

Qraçov tərəfindən hakimin qərarının qismən icra edilməsi (30 min rubl məbləğində cərimənin ödənilməsi) hüquqi əhəmiyyət kəsb etmirdi, çünki onun əməllərində cinayət qaydasında cəzalandırılan əməlin əlamətləri var idi və bu onun cinayət məsuliyyətindən azad edilməsi üçün əsas rolunda çıxış edə bilməzdi.

Yuxarıda göstərilənlərlə bağlı Rusiya Federasiyası Baş prokurorunun müavini tərəfindən 21.10.2016-cı ildə Rusiya Federasiyası Ali Məhkəməsinə protest verilib. Rusiya Federasiyası Ali Məhkəməsinin hakiminin 01.12.2016-cı il tarixli (№ 36-АД16-7 ) nömrəli qərarı ilə Rusiya Federasiyası Baş prokurorunun müavininin protesti tam həcmdə təmin olunub, çıxarılmış məhkəmə qərarları ləğv edilib, inzibati xəta haqqında iş üzrə icraata Rusiya Federasiyası İXM-nin 24.5-ci maddəsinin 1-ci hissəsinin 7-ci bəndinə[5] əsasən xitam verilib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

---

[3] КоАП РФ, Статья 30.12. Право на обжалование, опротестование вступивших в законную силу постановления по делу об административном правонарушении, решений по результатам рассмотрения жалоб, протестов

(...) 2. Вступившие в законную силу постановление по делу об административном правонарушении, решения по результатам рассмотрения жалоб, протестов могут быть опротестованы прокурором.

3. Право принесения протеста принадлежит прокурорам субъектов Российской Федерации и их заместителям, Генеральному прокурору Российской Федерации и его заместителям, а в отношении военнослужащих и граждан, призванных на военные сборы, - прокурорам военных округов, флотов и приравненным к ним прокурорам, Главному военному прокурору и их заместителям.

[3] Bax: КоАП РФ, Статья 24.5. Обстоятельства, исключающие производство по делу об административном правонарушении

1. Производство по делу об административном правонарушении не может быть начато, а начатое производство подлежит прекращению при наличии хотя бы одного из следующих обстоятельств: (...) 7) наличие по одному и тому же факту совершения противоправных действий (бездействия) лицом, в отношении которого ведется производство по делу об административном правонарушении, постановления о назначении административного наказания, либо постановления о прекращении производства по делу об административном правонарушении, предусмотренном той же статьей или той же частью статьи настоящего Кодекса или закона субъекта Российской Федерации, либо постановления о возбуждении уголовного дела;

# Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qondarma rejimin təşviq edilməsi, maddi-mədəni irsin və təbii sərvətlərin talan olunması faktları üzrə cinayət işi başlanılıb

Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ və onun ətrafındakı işğal olunmuş ərazilərinə əcnəbi vətəndaşların qanunsuz səfərlərini təşkil edərək qondarma rejimi təşviq etməyə cəhd göstərir, işğal olunmuş ərazilərin maddi-mədəni irsini və təbii sərvətlərini talan edir, iqtisadi və digər qanunsuz fəaliyyətləri həyata keçirir. Təəssüflər olsun ki, bir sıra ölkələrin vətəndaşları beynəlxalq hüququn norma və prinsiplərinə, habelə Azərbaycan Respublikasının qanunlarına zidd olaraq, eləcə də Azərbaycanın və vətəndaşlığını daşıdığı ölkələrin rəsmi xəbərdarlıqlarına məhəl qoymadan Ermənistanın təsiri altında Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyətə cəlb olunurlar.

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində bu kimi əməllərə cəlb etdiyi əcnəbi vətəndaşlara münasibətdə Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq zəruri hüquqi addımlar atılır.

Ermənistanın Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutunun əməkdaşı Levon Yepiskoposyan, İspaniyanın Milli Təbiət Elmi Muzeyinin tədqiqatçısı Yolanda Fernandes Xalvo (Yolanda Fernandez-Jalvo), Böyük Britaniyanın Blanford Muzeyinin "Azox layihəsi"nin direktoru Tanya Kinq (Tania King) və Londonda Təbiət Tarixi Muzeyinin elmi işçisi Piter Endryusun (Peter Andrews) 2002-ci ildən etibarən işğal edilmiş ərazilərimizdə yerləşən Azıx mağarasında arxeoloji qazıntı işlərini həyata keçirmələrinə, İspaniyanın Milli Təbiət Muzeyi və həmin ölkənin Elm və Texnologiya Nazirliyi, Böyük Britaniyanın Qaluay Universiteti, "Armenian General Benevolent Union"un London filialının qazıntı işlərinə maliyyə və digər dəstək vermələrinə əsaslı şübhələr müəyyən edildiyindən Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanılıb.

Bu şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxslər qismində cəlb olunmaqla məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək barələrində beynəlxalq axtarış elan olunması üçün "İnterpol"a müvafiq sorğu göndərilib.

Bundan başqa, Avropa Parlamentinin üzvləri - Lüksemburq Böyük Hersoqluğunun vətəndaşı Frank Engel, Kipr Respublikasının vətəndaşı Eleni Teoxarus və Çex Respublikasının vətəndaşı Yaromir Ştetina "Dağlıq Qarabağ Respublikası" adı altında yaradılmış qondarma rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə kütləvi informasiya vasitələrinə verdikləri müsahibələrində, iştirak etdikləri beynəlxalq tədbir və konfranslarda işğal edilmiş ərazilərdə qanunsuz fəaliyyət göstərən qurumu "müstəqil dövlət" kimi təqdim etmələrinə, Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda dəfələrlə, xüsusən son dəfə 2017-ci il fevralın 20-də Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "referendum"da "müşahidəçi" qismində iştirak etmək üçün keçmələrinə əsaslı şübhələr olduğundan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxslər qismində cəlb olunmaqla məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək barələrində beynəlxalq axtarış elan olunması üçün "İnterpol"a müvafiq sorğu göndərilib.

# Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində hüquqi şəxslərin qanunsuz iqtisadi fəaliyyətlə məşğul olması faktları üzrə cinayət işi başlanılıb

Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərində hüquqi şəxslərin qeyri-qanuni iqtisadi fəaliyyətlə məşğul olmalarına dair Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən daxil olmuş material Baş Prokurorluqda araşdırılıb.

İsveçrə, Bolqarıstan, Uruqvay, Argentina, Rumıniya və digər ölkələrin bir sıra şirkətlərinin, o cümlədən

"Haik Watch and Jewelry Co", "Rodino Haskovo" JIC, "Centro Ceibal", "Deccan Gold Mines Ltd" və "Cosmote Romanian Mobile Telecommunications S.A" şirkətlərin rəhbərlərinin 1999-2017-ci illərdə Azərbaycanın dövlət sərhədini Ermənistan Respublikası ərazisindən qanunsuz olaraq dəfələrlə keçmələrinə, işğal altındakı ərazilərdə olan digər şəxslərlə mütəşəkkil dəstə halında Xankəndi, Şuşa şəhərləri, Laçın, Kəlbəcər rayonları və digər yaşayış məntəqələrində Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatına alınmadan müəssisələr yaradıb təbii sərvət və faydalı qazıntıların istismarı da daxil olmaqla apardıqları fəaliyyətləri ilə külli miqdarda ziyan vurmalarına və qanunsuz gəlir əldə etmələrinə, habelə işğalın möhkəmləndirilməsinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn hərəkətlər etmələrinə dair faktlar müəyyən edilib.

Bu faktlar üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və hazırda ibtidai istintaq aparılır.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi beynəlxalq hüququn norma və prinsiplərinə, Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun olaraq işğal altındakı ərazilərə qeyri-qanuni səfərlər etməklə qanunsuz iqtisadi fəaliyyətlə məşğul olan, habelə ölkəmizin ərazi bütövlüyünü şübhə altına alan şəxslərə qarşı zəruri tədbirləri bundan sonra da davam etdirəcək.

**Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi**

# Aleksandr Lapşinin Rusiyanın Azərbaycandakı səfirliyinin əməkdaşları ilə görüşü təmin edilib

Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaqı aparılan cinayət işi üzrə bir neçə dövlətin vətəndaşlığını daşıyan Aleksandr Lapşin Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə təqsirləndirilən şəxs qismində cəlb edilib beynəlxalq və dövlətlərarası axtarışa verilmiş, 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya olunmuşdur.

Təqsirləndirilən şəxs A.Lapşin beynəlxalq qanunvericiliyin tələblərinə əsasən Azərbaycan Respublikasına ekstradisiya olunduqdan dərhal sonra – fevralın 8-də Xarici İşlər Nazirliyi vasitəsilə vətəndaşı olduğu ölkələrin Azərbaycan Respublikasındakı səfirliklərinə rəsmi məlumatlar təqdim edilib.

Fevralın 8-də cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada təqsirləndirilən şəxs A.Lapşinin hüquqi yardım almaq və müdafiə hüququ tam təmin edilərək müdafiəçi və tərcüməçinin iştirakı ilə ona ittihamlar elan edilib, ittihamın mahiyyəti, təqsirləndirilən şəxs kimi hüquq və vəzifələri izah olunmaqla dindirilib.

A.Lapşin Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı istintaq təcridxanasına daxil olan zaman tibbi müayinədən keçirilib və praktiki sağlam hesab edilməklə hər hansı müalicəyə zərurət yaradan patologiya aşkar olunmayıb.

Konsulluq əlaqələrinə dair Vyana Konvensiyasının tələblərinə əsasən, Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyinin Azərbaycanın Xarici İşlər Nazirliyinə müraciəti ilə əlaqədar fevralın 9-da təqsirləndirilən şəxs A.Lapşinin səfirlik əməkdaşları ilə görüşü təmin edilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

**Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi**

# *Namiq Əsgərov:*
# Prezidentin Sərəncamı dövlətimizin humanist siyasətinin növbəti təzahürüdür



Azərbaycan Respublikası Baş prokurorunun müavini, II dərəcəli dövlət ədliyyə müşaviri Namiq Əsgərov Prezident İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə bağlı AZƏRTAC-a müsahibə verib. Azərbaycan Prezidentinin müvafiq Sərəncamının əhəmiyyətini və onunla bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələri şərh edən Namiq Əsgərov deyib:

– Dünyada və regionda ölkələrin inkişafına neqativ təsirə malik faktorların mövcudluğuna baxmayaraq, respublikamızın dayanıqlı tərəqqisi Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik dövlət siyasətinin, hərtərəfli və genişmiqyaslı mühüm islahatların nəticəsində mümkün olub. Təsadüfi deyil ki, bu islahatlar ölkə həyatının bütün sahələrini, dövlət idarəetməsini, hüquq sistemini, normativ tənzimetməni və sair məsələləri əhatə etməklə daha intensiv şəkildə həyata keçirilir. Azərbaycan Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı vaxtında qəbul edilmiş, mühüm məsələləri əhatə etməklə onların həlli yollarını müəyyənləşdirən proqram xarakterli çox aktual bir sənəd olmaqla, ölkədə ardıcıl həyata keçirilən sistemli hüquqi islahatların növbəti mərhələsinin əsasını qoyub. Sərəncamın məzmunundan və mahiyyətindən də göründüyü kimi bu mühüm sənədin əhəmiyyəti qeyd olunanlarla məhdudlaşmır.

Sərəncam ölkənin hüquq sisteminin müasir dövrün ən yüksək tələbləri səviyyəsində yenilənməsinin və təkmilləşdirilməsinin strateji istiqamətlərini müəyyən edən, bu sahədə yol xəritəsi əhəmiyyətinə malik dövlət sənədidir. Burada dövlətimizin həyata keçirdiyi sosialyönümlü siyasətə tam uyğun olaraq insan və vətəndaşın əmin-amanlığına və mənafeyinə xüsusi önəm verilir. Sərəncam cinayət-hüquq siyasətinin liberallaşdırılması, cinayətlərin dekriminallaşdırılması, yəni cinayət hesab edilməyərək həmin əməlləri törədən şəxslər barədə daha yüngül məsuliyyət növlərinin tətbiqi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların tam aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsini nəzərdə tutur. Prezident İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü olan bu Sərəncamın əsas tələbi ondan ibarətdir ki, cinayət təqibi və cəzaların icrası prosesində cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan vasitələrdən daha çox istifadə edilməklə həbslə bağlı tədbirlərin tətbiqi məhdudlaşdırılsın.

Sərəncamda nəzərdə tutulan bir sıra mühüm məsələlər prokurorluq orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olduğundan qarşımızda çox ciddi vəzifələr müəyyən edilib. Belə ki, Sərəncamın 10-cu bəndində prokurorluq orqanlarına digər müvafiq dövlət orqanları ilə yanaşı, cinayətlərin, xüsusi ilə iqtisadi cinayətlərin dekriminallaşması, cinayətlərin törədilməsinə görə azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların tətbiqi əsaslarının genişləndirilməsi, cinayət zamanı vurulmuş ziyan tam ödənilirsə həbslə əlaqədar olmayan qətimkan

tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması, habelə həbsə alternativ qətimkan tədbirlərinin tətbiq edilməsi əsaslarının genişləndirilməsi, cinayətlərin ağır olmayan növlərinə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılmasına, digər məsələlərə dair qısa müddət ərzində qanun layihələrinin hazırlanıb təqdim olunması tapşırılıb.

Azərbaycan Respublikası Ali Məhkəməsi və Ədliyyə Nazirliyi ilə birlikdə üzərimizə düşən, Sərəncamdan irəli gələn bu vəzifələrin icrası ilə bağlı Baş prokurorun və həmin orqanların rəhbərlərinin imzaladığı birgə əmrlə geniş tərkibdə birgə işçi qrupu yaradılaraq fəaliyyətə başlayıb.

Sərəncamın 12-ci bəndində həbs qətimkan tədbirinin seçilməsi hallarının məhdudlaşdırılması ilə bağlı prokurorluq orqanlarına xüsusi tövsiyə edilib ki, onlardan irəli gələn mühüm vəzifələrin icrası istiqamətində səmərəli tədbirlər həyata keçirilməklə Baş Prokurorluq üzrə müvafiq əmrlərə bir sıra dəyişikliklər və əlavələr hazırlansın.

Bu vəzifələrin icrasının təmin edilməsi üçün Baş prokuror Zakir Qaralovun 2017-ci il 10 fevral tarixli müvafiq Sərəncamı ilə mənim rəhbərliyimlə işçi qrupu yaradılaraq konkret tapşırıqlar verilməklə 20 gün ərzində müvafiq qanun layihələrinin hazırlanması həvalə edilib.

Bununla yanaşı, Prezidentin qeyd olunan Sərəncamından irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsi yollarının və mexanizminin müəyyən edilməsi ilə bağlı prokurorluqda müvafiq vəzifəli şəxslərin iştirakı ilə bir neçə əməliyyat müşavirələri keçirilib. Həmçinin fevralın 16-da Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Ali Məhkəmənin, Ədliyyə Nazirliyinin, digər hüquq-mühafizə orqanlarının, onların istintaq qurumlarının nümayəndələrinin iştirakı ilə geniş iclas olub. İclasda Baş prokuror tərəfindən istintaq qurumlarına cinayət işlərinin istintaqı zamanı, ilk növbədə, digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün nəzərdən keçirilməsi və yalnız bu, mümkün olmadıqda və qanuni əsaslar olduqda həbs qətimkan tədbirinin seçilməsinə, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin müstəsna hallarda seçilməsinə dair konkret göstərişlər verilib.

Sərəncamın icrası ilə bağlı görülən işləri qısa şəkildə qeyd etməklə demək istərdim ki, bu mühüm əhəmiyyətə malik dövlət sənədinin bütün tələblərinin tam və dəqiq icrasının təmin olunması istiqamətində intensiv tədbirlərin həyata keçirilməsi davam etdirilir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Korrupsiyaya qarşı mübarizə tədbirləri uğurla davam etdirilir

Yanvarın 16-da Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2016-cı il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ümummilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulan və ali dövlətçilik dəyərlərinə əsaslanan uğurlu daxili və xarici siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksələn xətlə davam etdirilməsi nəticəsində ötən illərdə olduğu kimi 2016-cı il ərzində də ölkə həyatının bütün sahələrində davamlı inkişafa təkan verildiyini vurğulayıb.

Dövlət başçısının təşəbbüsü ilə milli iqtisadiyyatın liberallaşdırılması və rəqabət qabiliyyətliyinin yüksəldilməsi, şəffaflığın və azad rəqabətin təmin olunması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi, daha çevik və keyfiyyətli idarəetmənin təmin edilməsi məqsədilə islahatlar ardıcıl olaraq uğurla davam etdirilib.

Bildirilib ki, prokurorluq orqanları, o cümlədən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ölkədə həyata keçirilən siyasi, iqtisadi və institusional islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi istiqamətində fəaliyyətini eyni intensivliklə davam etdirib.



2016-cı il ərzində Baş İdarə tərəfindən vətəndaşların 9.360 müraciətinə baxılıb, 251 korrupsiya cinayəti haqqında məlumat üzrə araşdırma aparıb. Araşdırılan məlumatın 159-u (63,3%) üzrə cinayət işləri başlanılıb, digər məlumatlar üzrə isə müvafiq prokuror təsiri tədbirləri görülüb.

Baş İdarənin "161 - Qaynar xətt" əlaqə mərkəzinə 5.492 müraciət daxil olub; onların 23-ü üzrə cinayət işləri başlanıb, digər müraciətlər üzrə əlaqəli dövlət qurumları ilə birgə görülən tədbirlər nəticəsində vətəndaşların pozulmuş hüquqları bərpa edilib, aşkar edilən qanun pozuntularının aradan qaldırılması və gələcəkdə təkrarlanmaması məqsədi ilə aidiyyəti təşkilatlara təqdimatlar göndərilib.

Qeyd edilib ki, 2015-ci illə müqayisədə daxil olan müraciətlərin sayında 1.700 vahiddən çox azalma "Asan Xidmət" mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi ilə bağlı olub.

2016-cı il ərzində keçirilən 6 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 6 şəxs cinayət başında yaxalanıb; Baş İdarənin əməliyyat qurumları tərəfindən aparılan araşdırmalar üzrə fakta görə 32 cinayət işi başlanılıb.

Baş İdarənin əməliyyat qurumları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində axtarışda olan 24 şəxs tutulub.

Baş İdarə tərəfindən 480 cinayət işinin ibtidai istintaqı aparılıb. Onlardan dövlət və özəl sektorda çalışan 313 vəzifəli şəxs barəsində 201 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

Həmin cinayət işlərindən 110 şəxs barəsində 62 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və ya israf etmə, 61 şəxs barəsində 56 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə dələduzluq, 34 şəxs barəsində 24 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və aşma, 52 şəxs barəsində 10 iş rüşvət alma, 17 şəxs barəsində 14 iş rüşvət vermə, 3 şəxs barəsində 3 iş vəzifə saxtakarlığı, 1 şəxs barəsində 1 iş səhlənkarlıq, 35 şəxs barəsində 31 iş isə digər faktlarla bağlı olub.

Məhkəmələrə göndərilən cinayət işləri üzrə vurulan 202 milyon 629 manat məbləğində ziyanın 33 milyon 249 manat və ya 16,6 %-nin ödənilməsi təmin edilib, qalan ziyanın ödənilməsi məqsədilə 78 milyon 283 manat məbləğində əmlak üzərinə həbs qoyulub.

Baş İdarədə 2.241 vətəndaş qəbul edilib.

Bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilib, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə müvafiq qurumlara 88 təqdimat verilib, habelə digər prokuror təsir aktlarından istifadə edilməklə 12 inzibati icraat açılıb, 11 şəxsə qanun pozuntularından çəkindirmək məqsədilə rəsmi xəbərdarlıq edilib.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov bildirib ki, 2016-cı il ölkəmiz üçün geniş miqyaslı islahatlar ili olub. Gömrük və vergi sahələrində şəffaflığın daha da artırılması məqsədilə iqtisadiyyatımızda şaxələndirən isahatlar həyata keçirilib. Korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyətin Planının 86%-i və Açıq hökumətin təşviqi üzrə Milli Fəaliyyət Planının 82%-i dövlət



orqanları tərəfindən icra olunub. Azərbaycan Respublikasının Beynəlxalq Şəffaflıq təşkilatının “Korrupsiya Qavrama İndeksi” və “Qlobal Korrupsiya Barometri” hesabatlarında mövqeyininin irəliləməsini, “2016-cı il Qlobal Korrupsiya Barometri”nə əsasən, sorğuda iştirak edən respondetlərin 79%-nin korrupsiyanın ölkəmizin üzləşdiyi əsas problemlərdən hesab etmədiyini bildirib. Əldə edilən nailiyyətlərin Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində mövcud güclü siyasi iradə ilə bağlı olduğu, korrupsiyaya qarşı mübarizəyə dair Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlarla təsdiq edilən dövlət proqramları və onların effektiv icrası, dövlət başçısının təşəbbüsü ilə yaradılan “ASAN xidmət” mərkəzlərinin uğurlu fəaliyyəti, bu sahədə hüquq-mühafizə orqanlarının səmərəli işi, beynəlxalq standartlara cavab verən qanunvericilik və beynəlxalq təşəbbüslərdə aktiv iştirakı ilə bağlı olduğu xüsusi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli qarşılıqlı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi barədə göstəriş və tövsiyələrinə müvafiq olaraq Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq-mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilib.

2016-ci ilin sentyabr ayında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsinin (ACN) İstanbul Fəaliyyət Planı çərçivəsində ölkəmiz III monitorinq mərhələsini uğurla tamamlayaraq IV qiymətləndirmə mərhələsinə keçən ilk 2 ölkədən biri olub, eyni zamanda dekabr ayında Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) tərəfindən Azərbaycan Respublikası üzrə 4-cü dəyərləndirmə raundu üzrə Uyğunluq hesabatı qəbul edilib.

Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə qarşılıqlı əməkdaşlıq uğurla davam etdirilib, Azərbaycan Respublikasının nümayəndəsi Akademiyanın Bürosuna üzv qəbul olunmaqla Akademiyanın Assambleyasının 5-ci sessiyasının sədr müavini seçilib.

Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə əməkdaşlıq daha da inkişaf etdirilib, Azərbaycan Respublikasının nümayəndəsi növbəti müddətə Assosiasiyanın ali orqanı olan İcraiyyə Komitəsinə üzv seçilib, habelə Baş İdarə tərəfindən internet səhifəsinin rus versiyasının yaradılması, qurumun korrupsiyaya qarşı mübarizə aparan prokurorların şəbəkəsinin (NACP) saytının aparılması istiqamətində fəaliyyət uğurla davam etdirilib.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), Beynəlxalq Anti-Korrupsiya Orqanları

Assosiasiyasının (IAACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC), Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla səmərəli əməkdaşlıq aparılmış, Moldova Respublikasının Milli Antikorrupsiya Mərkəzinin, Misir Ərəb Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış İnzibati Nəzarət Qurumunun, Türkiyə Ali Məhkəməsinin, Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin məsul əməkdaşlarının daxil olduğu nümayəndə heyətləri ölkəmizə səfər etməklə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

2016-cı il fevralın 4-də Malayziya Antikorrupsiya Komissiyasının Putracaya şəhərində yerləşən baş qərargahında "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Malayziyanın Antikorrupsiya Komissiyası arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

Tədbirdə Korrupsiyaya qarşı Mübarizə aparan QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin koordinatoru – "Konstitusiya Araşdırmalar Fondu"nun rəhbəri Əliməmməd Nuriyev, "Şəffaflıq Azərbaycan" təşkilatının icraçı direktoru Rəna Səfərəliyeva, digər vətəndaş cəmiyyəti institutlarının nümayəndələri çıxış edərək korrupsiyaya qarşı mübarizənin aktual məsələlərinə toxunmuşlar. .

Mətbuat konfransında əminlik ifadə olunub ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi bundan sonra da öz fəaliyyətinin göstərilən yüksək etimada layiq səviyyədə qurulması üçün zəruri tədbirlərin görülməsini təmin edəcək, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində üzərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirərək cinayətkarlığa qarşı ciddi və səmərəli mübarizə tədbirlərinin həyata keçirilməsini təmin edəcək.

Sonda qeyri-hökümət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları cavablandırılıb.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Azərbaycan üçün qəbul edilmiş hesabatı təqdim olunub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsi ilə səmərəli əməkdaşlığını uğurla davam etdirir.

Fevralın 20-də Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu çərçivəsində Azərbaycan üçün qəbul edilmiş hesabatı təqdim olunub.

Tədbirdə OECD-nin rəsmiləri xanım Tatyana Xvanska və xanım Rusudan Mikelidze, dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və KİV-lərin nümayəndələri iştirak ediblər.

OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin Azərbaycan Respublikası üzrə milli koordinatoru - Azərbaycan Respublikası Baş prokurorunun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, ölkəmizdə korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və bu məqsədlə Azərbaycan Respublikası 2003-cü ildən OECD ilə təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində əməkdaşlıq edir. Bildirilib ki, İstanbul Fəaliyyət Planı Şəbəkəyə üzv ölkələrdə mərhələli şəkildə antikorrupsiya islahatlarının həyata keçirilməsini və nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur və indiyədək respublikamız üç monitorinq mərhələsini uğurla tamamlayaraq uyğunluq hesabatı əldə edib. Bununla yanaşı, Baş prokuror




yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçiləri indiyədək qeyd edilən təşkilatın xətti ilə dörd ölkənin dəyərləndirmə mərhələlərində ekspert qismində çıxış edib, daha iki ölkə üzrə isə dəyərləndirmələrdə əməkdaşların ekspert qismində iştirakı nəzərdə tutulub.

Vurğulanıb ki, ötən ilin iyun ayında OECD-nin geniş tərkibli ekspert qrupunun ölkəmizə səfəri baş tutmuş, səfər çərçivəsində bir sıra dövlət qurumlarının, eləcə də vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşlər və müzakirələr aparılıb, nəticədə Azərbaycan Respublikası üzrə müvafiq hesabat hazırlanaraq ötən ilin sentyabrında Parisdə keçirilən müzakirələr nəticəsində qəbul edilib. Əvvəlki mərhələlərdə ölkəmizə dair tövsiyələrin böyük əksəriyyətinin uğurla icra edilməsi nəticəsində Azərbaycan Respublikası Gürcüstanla yanaşı III Monitorinq Raundunu uğurla tamamlayaraq IV Monitorinq mərhələsinə ilk keçən iki ölkədən biri olmuş və hazırkı hesabatda korrupsiyaya qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsində "ASAN" xidmət mərkəzlərinin mühüm rol oynaması və ixtisaslaşmış cinayət təqibi orqanı kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti geniş işıqlandırılaraq hər iki qurum region ölkələri üçün nümunəvi model kimi təqdim edilib.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov çıxış edərək bildirib ki, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən geniş miqyaslı islahatlar, beynəlxalq standartlara cavab verən institusional və qanunvericilik tədbirləri, o cümlədən vətəndaş cəmiyyəti institutları ilə səmərəli əməkdaşlıq, eləcə də aparılan maarifləndirmə tədbirləri hazırkı hesabatda öz əksini tapıb.

OECD-nin rəsmiləri xanım Tatyana Xvanska və xanım Rusudan Mikelidze çıxış edərək hesabatı təqdim etmişlər. Azərbaycan Respublikası ilə səmərəli əməkdaşlıqdan məmnunluqlarını ifadə edən qonaqlar həyata keçirilən geniş miqyaslı və sistemli hüquqi, institusional və inzibati islahatlar nəticəsində Azərbaycan Respublikasında beynəlxalq standartlara cavab verən antikorrupsiya qanunvericiliyinin formalaşdırılması, korrupsiyanın qarşısının alınması və bu sahədə cinayət təqibinin həyata keçirilməsi, dövlət qulluğunda və məhkəmə hakimiyyəti sistemində şəffaflığın artması, informasiya əldə edilməsi, təhsil, gömrük və sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sahələrində əhəmiyyətli uğurlar əldə edilməsini müsbət iş təcrübəsi kimi xüsusi vurğulayıblar.

Bildirilib ki, hazırkı IV Monitorinq Raundu üzrə hesabatda antikorrupsiya siyasəti, korrupsiyanın qarşısının alınmasına yönəlmiş qabaqlayıcı tədbirlər və korrupsiyaya görə cinayət məsuliyyəti, dövlət qulluğunda şəffaflıq, biznesdə dürüstlük istiqamətlərində ölkəmizdə həyata keçirilən islahatların möhkəmləndirilməsi və əməkdaşlığın gücləndirilməsinə istiqamətlənmiş 31, o cümlədən təhsil sahəsində 11 yeni tövsiyə öz əksini tapıb. Həmin tövsiyələrin əksəriyyəti Azərbaycan Respublikası



Prezidentinin 2016-cı il 27 aprel tarixli Sərəncamı ilə təsdiq edilən Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illəri əhatə edən növbəti Milli Fəaliyyət Planının müddəaları ilə uyğunluq təşkil edir və 2019-cu ilədək bu tövsiyələr üzrə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Daha sonra dövlət qurumları və qeyri-hökümət təşkilatları nümayəndələrinin çıxışları dinlənilib, kütləvi informasiya vasitələrinin sualları cavablandırılıb.

Sonda əminlik ifadə edilib ki, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq Azərbaycan Respublikası bundan sonra da korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşəbbüslərə öz töhvəsini verərək əməkdaşlığını gücləndirəcək.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla hüquqi əməkdaşlığa böyük önəm verir

Fevralın 27-də Bakı şəhərində Avropa İttifaqı və Avropa Şurası tərəfindən həyata keçirilən “Proqram Əməkdaşlıq Çərçivəsi” layihəsi üzrə “Hüquqpozmalarla bağlı məlumat verən şəxslərin müdafiəsi” mövzusunda seminar keçirilib.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının dəstəyi ilə keçirilən tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğunun, Ədliyyə, Daxili İşlər, Vergilər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidmətinin nümayəndələri iştirak etmişlər.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev tədbirdə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, institusional və cinayət təqibi tədbirləri haqqında məlumat verib, korrupsiyaya qarşı mübarizənin Azərbaycanda dövlət siyasətinin prioritet istiqaməti olduğunu və bu sahədə ölkə daxilində, həm də beynəlxalq səviyyədə əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Avropa Şurasının ekspertləri Con Devit və Paul Zoubkov hüquqpozmalarla əlaqədar məlumat vermə sahəsində imkanlar və çətinliklər, bu barədə məlumat verən şəxslərin müdafiəsi ilə bağlı beynəlxalq təcrübənin ölkəmizdə tətbiqi yolları barədə çıxış ediblər.

Hüquqpozmalarla bağlı məlumat verən şəxslərin müdafiəsi ilə əlaqədar tədris tapşırıqları iştirakçılar

tərəfindən müvəffəqiyyətlə icra edilib, faydalı fikir mübadiləsi aparılıb.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, digər dövlətlərin hüquq-mühafizə orqanları və ixtisaslaşdırılmış antikorrupsiya qurumları ilə əməkdaşlığın daha da gücləndirilməsi və bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fəaliyyət bundan sonra da davam etdiriləcək.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstə üzvlərinin iştirakı ilə seminar keçirilib

Martın 10-da Baş Prokurorluğun hərbiləşdirilməmiş mülki müdafiə dəstə üzvlərinin iştirakı ilə seminar keçirilib. Baş Prokurorluğun və Fövqəladə Hallar Nazirliyinin işçiləri tədbirdə iştirak etmişlər.

Hərbiləşdirilməmiş mülki müdafiə dəstəsinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqlərinin keçirilməsində məqsəd şəxsi heyətin komplektləşdirilməsi, təchizatı, rabitə və xəbərdarlıq sisteminin hazırlığı vəziyyətinin yoxlanılmasının təmini, onların təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsidir.

Seminarda hərbiləşdirilməmiş mülki müdafiə dəstəsinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verilib. Suallar cavablandırılıb, fikir mübadiləsi aparılıb.

## Tabe rayon (şəhər) prokurorluqlarında "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması" mövzusunda seminarlar keçirilib

Bölgə prokurorluqları işçilərinin iştirakı ilə fevralın 13-də Neftçala rayon prokurorluğunda "Vətəndaşların yaşayış yerləri üzrə qəbulu işinin təşkili" mövzusunda, fevralın 20-də Balakən, martın 6-da Beyləqan, Yevlax rayon prokurorluqlarında "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" seminarlar keçirilib.

Seminarda Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Pərviz Nərimanov və həmin idarənin Vətəndaşların qəbulu şöbəsinin prokuroru Yaqut Əliyeva çıxış ediblər.

Prokurorluq orqanlarında vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat verilib, Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin müddəaları izah olunub, vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsinə dair konkret tövsiyələr verilib. Əmrin müddəalarına uyğun olaraq vətəndaşların həm prokurorluqlarda, həm də yaşayış yerlərində qəbulu prosedurları, qəbulların planlaşdırılması, təşkili və həyata keçirilməsinin xüsusiyyətləri, onların təşkilində yaranan çətinliklər, rayon (şəhər) prokurorlarının və vətəndaşların qəbuluna məsul olan prokuror köməkçilərinin vəzifələri, bu sahədə tabe prokurorluqların fəaliyyətində tez-tez rast gələnən nöqsanlar müzakirə edilib. Vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti, prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə məlumat verilib. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası qanununun tələbləri müzakirə edilib.

Azərbaycan Respublikasının Baş prokuroru yanında 2016-cı il dekabrın 26-da keçirilən əməliyyat müşavirəsinin qərarına uyğun olaraq, yaşayış yerləri üzrə vətəndaşların qəbulları həyata keçirilərkən aztəminatlı ailələrin kommunal xidmətlərində yaranan problemlərlə əlaqədar daha çox müraciətlər daxil olduğu yaşayış məntəqələrində qəbulların keçirilməsinə üstünlük verilməsi tövsiyə edilib.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

## Azərbaycan Prokurorluğunun nümayəndə heyəti Rusiya Prokurorluğunun 295-ci illiyinə həsr olunan rəsmi tədbirində iştirak edib

Yanvarın 11-dən 13-dək Rusiya Federasiyası Baş prokurorunun dəvəti ilə Rusiya Prokurorluğunun 295 illiyinə həsr olunan tədbirlərdə iştirak etmək üçün Baş prokurorun birinci müavini Rüstəm Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti Moskva şəhərinə səfər edib.

Səfər çərçivəsində nümayəndə heyəti Rusiya Federasiyasının Baş prokuroru Yuri Çayka ilə görüşərək, azərbaycanlı həmkarının yubiley münasibəti ilə təbriklərini ona çatdırıb. Görüşdə iki ölkə arasında formalaşmış zəngin tarixə malik və ilbəil daha da genişlənməklə dərinləşən münasibətlər diqqətə çatdırılmaqla, prokurorluqlar arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

Azərbaycanın nümayəndə heyəti Dövlət Kreml Sarayında keçirilən təntənəli yubiley mərasimində iştirak edib. Tədbirdə Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev çıxış edərək Rusiya Prokurorluğunun əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib.

Nümayəndə heyəti mərasimdə iştirak edən Çin, İsrail, İtaliya, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan və digər ölkələrin nümayəndə heyətləri, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının rəhbər vəzifəli şəxsləri, MDB iştirakçı dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi ilə işgüzar görüşlər keçirib, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ilə görüş keçirilib.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

## Azərbaycan Prokurorluğu kibercinayətkarlıq, cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələlərində beynəlxalq hüquqi əməkdaşlığa həsr edilmiş beynəlxalq konfransda təmsil olunub

27 fevral - 1 mart tarixlərdə Avropa Şurası və İnterpolun təşkilatçılığı ilə İnterpolun Sinqapur şəhərində yerləşən qərargahında kibercinayətkarlıq, cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələlərində beynəlxalq hüquqi əməkdaşlığa həsr olunan konfrans keçirilib.

İnterpolun Sinqapur Qlobal İnnovasiyalar Kompleksi (İGCİ) rəhbərinin müavini Silvino Şlikman çıxış edərək konfransın əhəmiyyəti, qarşıda duran vəzifələr, eləcə də İGCİ-nin fəaliyyəti barədə iştirakçılara ətraflı məlumat verib.

ABŞ, Filippin, Belarus, Moldova, Gürcüstan, Mərakeş, Şri Lanka və sair ölkələrin prokurorluq, ədliyyə, polis orqanlarının, beynəlxalq təşkilatların rəhbər şəxsləri, həmçinin “Facebook” və “Microsoft” şirkətlərinin nümayəndələri iştirak ediblər. Tədbirdə Azərbaycanı Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov təmsil edib.

O, konfransda çıxış edərək, Azərbaycanın mühüm beynəlxalq və regional konvensiyaları ratifikasiya etdiyini, kibercinayətkarlıq və digər transmilli cinayətlərə qarşı mübarizəyə, o cümlədən ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın göstərilməsinə böyük önəm verdiyini, beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirildiyini diqqətə çatdırıb.

Tədbir çərçivəsində iştirakçı ölkələrin nümayəndələri ilə görüşlər keçirilib, cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri ətrafında faydalı fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsininI hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 326-VQD, 11 noyabr tarixli 407-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1. 1-ci maddə üzrə:**

**1.1.1.** birinci hissəsinin 32-ci bəndi aşağıdakı redaksiyada verilsin:

**"32)** parklanma - nəqliyyat vasitəsinin parklanma yerlərində durmasıdır.";

**1.1.2.** aşağıdakı məzmunda 32-1-ci bənd əlavə edilsin:

**"32-1)** parklanma yeri – yaşayış məntəqələrinin hüdudlarında avtomobil yolunun hərəkət hissəsində və ya ona bitişik hissədə nəqliyyat vasitələrinin durması üçün ayrılmış, bu Qanunla müəyyən edilmiş qaydada işarələnmiş və təchiz edilmiş yerdir;".

**1.2.** 53-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 53. Parklanma**

**I.** Dövlət avtomobil yollarında parklanma yerləri müvafiq icra hakimiyyəti orqanlarının təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi siyahıya uyğun olaraq təşkil edilir.

**II.** Parklanma yerləri bələdiyyə yollarında bələdiyyələr, özəl avtomobil yollarında isə mülkiyyətçi tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla təşkil edilir.

**III.** Parklanma yerlərinin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**IV.** Parklanma yerləri 5.15 yol nişanı və müvafiq nişanlama xətləri ilə işarələnməklə parklanma yerinin başlanğıcı və sonu göstərilir. Nəqliyyat vasitəsinin parklanma yerində parklanma üsulu 7.6.1-7.6.9 əlavə məlumat nişanları ilə müəyyən edilir. Parklanma yerində nəqliyyat vasitələri yolun hərəkət hissəsinə paralel şəkildə parklanır. Yolun hərəkət hissəsinin eni nəzərə alınmaqla parklanma yerində nəqliyyat vasitələrinin yolun hərəkət hissəsinin kənarına bucaq altında parklanması nişanlama xətləri ilə müəyyən edilə bilər.

**V.** Parklanma yerləri dayanma və ya durmanın qadağan edildiyi yerlərdə təşkil edilə bilməz.

**VI.** Parklanma yerləri 24 saat fəaliyyət göstərir.

**VII.** Parklanma yerləri təşkil edildiyi avtomobil yollarının kənarlarında yerləşən evlərdə və ya binalarda yaşayan minik avtomobillərinin istifadəçiləri üçün onların müraciətinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən pulsuz parklanma yerləri ayrılır və onlara nəqliyyat vasitəsinin istifadəçisi, markası, dövlət qeydiyyat nişanı, parklanma ərazisi və etibarlıq müddəti göstərilməklə fərdi parklanma talonu verilir. Bir şəxsə yalnız bir fərdi parklanma talonu verilir. Fərdi parklanma talonuna dair məlumatlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə ötürülür. Bu maddənin XIX hissəsinin tələbləri fərdi parklanma talonu olan nəqliyyat vasitəsinin istifadəçilərinə şamil edilmir. Fərdi parklanma talonu nəqliyyat vasitəsinin salonunda, ön şüşənin arxasında aydın görünən və oxunan yerə qoyulur.

**VIII.** Fərdi parklanma talonlarının forması, habelə onların verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**IX.** Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən dövlət orqanlarının yerləşdiyi inzibati binaların ətrafında müvafiq icra hakimiyyəti orqanının hər biri üçün ayrılıqda müəyyən etdiyi radius çərçivəsində ödənişli parklanma yerlərinin təşkili qadağandır.

**X.** Parklanma yerlərinin 5 faizi (bir parklanma yerindən az olmayaraq) əlillər üçün ayrılır. Əlillər üçün ayrılmış parklanma yerləri göy rəngli kvadrat üzərində 1.24 nişanlanma simvolunun ağ boya ilə təsviri vasitəsilə işarələnir. Əlillər üçün ayrılan parklanma yerlərində yalnız əlil avtomobili nişanı ilə nişanlanmış nəqliyyat vasitələri dura bilərlər. Sürücülər "əlil" tanınma nişanından qanunsuz istifadəyə görə məsuliyyət daşıyırlar.

**XI.** Parklanma yerləri ödənişli və ödənişsiz ola bilər. Parklanmaya görə ödəniş parkomat (nağd qaydada və ya plastik kartla), SMS, elektron ödəmə sistemləri və ya internet vasitəsilə həyata keçirilir. Bu zaman ödənişə dair məlumatlar dərhal müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə ötürülür.

**XII.** Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən parklanma yerinin yerləşdiyi ərazi, parklanmanın müddəti və vaxtı nəzərə alınmaqla müəyyən edilir. Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitin istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**XIII.** Ödənişli parklanma yerlərində nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının oxunması, foto və ya video çəkilişin aparılması, parklanma müddətinin ölçülməsi, parklanmaya görə ödənişin edilməsi, ödəniş və parklanma qəbzlərinin verilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən sertifikatlaşdırılmış parkomatlar və foto və ya video qeydiyyat funksiyalarına malik olan xüsusi texniki vasitələr yerləşdirilir. Parkomatlar və foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələr müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə inteqrasiya olunur.

**XIV.** Ödənişli parklanma yerlərində istifadəçilər üçün aydın görünən yerdə və oxuna bilən ölçülərdə aşağıdakı məlumatlar yerləşdirilir:

**1)** ödənişli parklanma müddəti, parklanmaya görə ödənişin məbləği və parklanmaya görə ödəniş üsulları;

**2)** parklanma yerlərindən istifadə qaydaları;

**3)** bu maddənin XIX hissəsində nəzərdə tutulduğu halda nəqliyyat vasitəsinin aparılacağı müvafiq icra hakimiyyəti orqanının ən yaxın mühafizə olunan duracağı barədə məlumat;

**4)** parklanma qaydalarının pozulmasına görə məsuliyyət tədbirləri.

**XV.** Ödənişli parklanma yerlərində nəqliyyat vasitələrinin 15 dəqiqəyədək parklanması üçün ödəniş tələb olunmur. Nəqliyyat vasitəsinin istifadəçisi parklanma yerini tərk edərkən parklanma müddətindən asılı olaraq bu maddə ilə müəyyən edilmiş üsullardan biri vasitəsilə ödəniş edir.

**XVI.** Nəqliyyat vasitəsinin istifadəçisi parklanmaya görə ödənişi parklanma yerinə daxil olarkən də apara bilər. Bu zaman ödəniş parklanma müddətindən asılı olaraq bu maddə ilə müəyyən edilmiş üsullardan biri vasitəsilə həyata keçirilir və ödəniş qəbzi nəqliyyat vasitəsinin salonunda, ön şüşənin arxasında aydın görünən və oxunan yerə qoyulur. Ödəniş edilmiş müddətdən artıq parklanma yerindən istifadə edən şəxs parklandığı müddətə müvafiq əlavə ödəniş etməlidir. Nəqliyyat vasitəsinin istifadəçisi ödəniş edilmiş müddətdən sonra 10 dəqiqə ərzində parklanma yerini tərk etməlidir və bu müddət üçün əlavə ödəniş tələb olunmur.

**XVII.** Parklanmaya görə ödəniş zamanı parkomatlarda baş vermiş texniki nasazlıq səbəbindən ödənişin həyata keçirilməsi mümkün olmadıqda, nəqliyyat vasitəsinin istifadəçisi ödəniş etmədən parklanma yerini tərk edir. Bu halda nəqliyyat vasitəsinin istifadəçisi parklanmaya görə ödənişin edilməməsinə görə məsuliyyət daşımır. Ödənişin edilməsinin mümkünsüzlüyü barədə məlumat dərhal müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə ötürülür.

**XVIII.** Parklanmaya görə ödəniş qəbzində nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı, parklanma tarixi, nəqliyyat vasitəsinin parklanma yerinə daxil olduğu və oranı tərk etməli olduğu vaxt, parklanmaya görə edilmiş ödənişin məbləği göstərilməlidir. Nəqliyyat vasitəsinin istifadəçisi ödəniş etmədən nəqliyyat vasitəsinin parklanma yerinə daxil olmasına dair parkomatdan parklanma qəbzi ala bilər. Bu zaman parklanma qəbzində nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı, parklanma tarixi və parklanma yerinə daxil olduğu vaxt göstərilir.

**XIX.** Bir parklanmanın müddəti 24 saatdan artıq ola bilməz. Nəqliyyat vasitəsi parklanma yerində 24 saatdan artıq saxlandıqda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-2.4-cü maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib olunur, nəqliyyat vasitəsi müvafiq icra hakimiyyəti orqanının ən yaxın mühafizə olunan duracağına aparılır və nəqliyyat vasitəsinin istifadəçisinə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 125.2-ci maddəsinə nəzərdə tutulmuş qaydada məlumat verilir. Nəqliyyat vasitəsinin istifadəçisi nəqliyyat vasitəsinin aparıldığı müvafiq icra hakimiyyəti orqanının ən yaxın mühafizə olunan duracağı barədə məlumatı parkomat vasitəsilə də əldə edə bilər.

**XX.** Bu Qanunun XIX hissəsində nəzərdə tutulmuş müddətin bitməsinə 1 saat qalmış Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 125.2.2-ci maddəsinə nəzərdə tutulmuş qaydada nəqliyyat vasitəsinin istifadəçisinə məlumat verilir.

**XXI.** Sürücülər nəqliyyat vasitəsinin parklanmasına görə müəyyən edilmiş ödəniş edilmədən və ya ödəniş edilmiş müddətdən artıq parklanma yerindən istifadə üçün bu maddənin XVI hissəsi nəzərə alınmaqla əlavə ödəniş etmədən parklanma yerinin tərk edilməsinə görə məsuliyyət daşıyırlar.

**XXII.** Operativ nəqliyyat vasitələri ödənişli parklanma yerlərindən pulsuz istifadə edirlər.

**XXIII.** Parklanma yerlərində icazə verilmiş maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinin parklanması, habelə parklanma yerlərinin rezervasiya edilməsi və ya digər üsullarla nəqliyyat vasitələrinin sərbəst parklanmasına maneələr yaradılması qadağandır.

**XXIV.** Parklanma yerində nəqliyyat vasitələri yol nişanları və nişanlama xətləri ilə müəyyən edilmiş qaydada parklanmalıdır. Parklanma yerlərində hər bir nəqliyyat vasitəsinin parklanması üçün işarələnmiş yerlərin sərhədlərini pozmaqla parklanmasına yol verilmir.

XXV. Parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair bu maddədə göstərilən tələblərə əməl olunmasına nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.".

**1.3.** 72-ci maddəyə aşağıdakı məzmunda qeyd hissəsi əlavə edilsin:

**"Qeyd:** "Əlil" tanınma nişanı I və II qrup əlillərə nəqliyyat vasitəsi dövlət qeydiyyatına alınarkən və ya onların müraciəti və müvafiq əlillik dərəcəsini təsdiq edən sənəd əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən ödənişsiz təqdim olunur. "Əlil" tanınma nişanı yerləşdirilmiş nəqliyyat vasitəsini idarə edən şəxs əlillik dərəcəsini təsdiq edən sənədi özündə saxlamalı və müvafiq icra hakimiyyəti orqanı əməkdaşının tələbi ilə yoxlanılması üçün ona təqdim etməlidir.".

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanun (bu Qanunla "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyada verilmiş 53-cü maddəsinin XX hissəsi istisna olmaqla) 2017-ci il iyulun 1-dən qüvvəyə minir.

**2.2.** Bu Qanunla "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyada verilmiş 53-cü maddəsinin XX hissəsi 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2016-cı il
№ 467-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddə 1247, 1249, № 10, maddə 1608; Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 341-VQD, 346-VQD, 353-VQD, 355-VQD, 359-VQD, 361-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 122.1-ci maddədə "346.3," rəqəmlərindən sonra "346-1.1, 346-1.5," rəqəmləri əlavə edilsin;

**1.2.** 124-cü maddə üzrə:

**1.2.1.** 124.5-ci maddənin birinci cümləsində "yanında deyilsə" sözləri "yanında olmadığı və həmin nəqliyyat vasitəsi yol hərəkəti və piyadaların hərəkətinə maneə yaratdığı hallarda, habelə bu Məcəllənin 346-1.5-ci maddəsində nəzərdə tutulmuş hallarda" sözləri ilə əvəz edilsin;

**1.2.2.** 124.6-cı maddənin birinci cümləsində "və ya 346.2-ci" sözləri "346.2, 346-1.2, 346-1.3-cü və 346-1.4-cü" sözləri ilə əvəz edilsin və "və nəqliyyat vasitəsinin mühafizə olunan duracağa aparılması mümkün olmadığı" sözləri çıxarılsın;

**1.2.3.** 124.5-ci maddəyə aşağıdakı məzmunda qeyd hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 124.5-ci maddəsində "yol hərəkəti və piyadaların hərəkətinə maneə yaratdığı hallar" dedikdə dayanma və ya durma qaydalarını pozmuş nəqliyyat vasitəsinin mühafizə olunan duracağa aparılmamasının tıxac yaranmasına və digər nəqliyyat vasitələrinin və piyadaların hərəkətini mühüm dərəcədə məhdudlaşdırılmasına səbəb olduğu hallar başa düşülür.

**1.3.** Aşağıdakı məzmunda 127-2-ci maddə əlavə edilsin:

**"Maddə 127-2.** Parklanmaya görə ödənişin edilməməsi və ya parklanma yerindən ödəniş edilmiş müddətdən artıq istifadə üçün əlavə ödənişin edilməməsi, habelə nəqliyyat vasitəsinin 24 saatdan artıq parklanma yerində saxlanılması ilə əlaqədar inzibati xəta hadisəsi parkomatlar və foto və ya video qeydiyyat funksiyalarına malik texniki vasitələrin köməyi ilə aşkar edildikdə icraatın aparılması qaydası

**127-2.1.** Bu Məcəllənin 346-1.1-ci və 346-1.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanın törədilməsi barədə elektron protokol parklanma yerlərində quraşdırılmış parkomatlar və foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin məlumatları əsasında bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir. Bütün parkomatlar və foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələr müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminin proqram təminatı əsasında həmin mərkəzi informasiya sisteminə inteqrasiya edilməlidir.

**127-2.2.** Parklanma yerlərində quraşdırılmış parkomat və foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanına, parklanma müddətinə (parklanma yerinə daxil olması və oranı tərk etməsinə) və parklanmaya görə edilmiş və ya edilməmiş ödənişlərə, habelə 24 saatdan artıq müddətdə parklanma yerində saxlanılan nəqliyyat vasitələrinə dair məlumatları müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminin proqram təminatı əsasında real vaxt rejimində elektron formada birbaşa həmin mərkəzi informasiya sisteminə ötürülür.

**127-2.3.** Bir parklanma üçün müəyyən edilmiş 24 saatlıq parklanma müddətinin bitməsinə 1 saat qalmış nəqliyyat vasitəsinin istifadəçisinə bu Məcəllənin 125.2.2-ci maddəsinə uyğun olaraq məlumat verilir.

**127-2.4.** Bu Məcəllənin 346-1.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsi barədə bu Məcəllənin 122.1-ci maddəsinə uyğun olaraq elektron protokol tərtib edildikdən sonra həmin nəqliyyat vasitəsinin müvafiq icra hakimiyyəti orqanının ən yaxın mühafizə olunan duracağına aparılması üçün bu barədə məlumat müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemindən müvafiq icra hakimiyyəti orqanının yol hərəkəti təhlükəsizliyinə nəzarət edən əməkdaşına ötürülür. Bu cür nəqliyyat vasitələrinin yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının əməkdaşı tərəfindən müvafiq icra hakimiyyəti orqanının ən yaxın mühafizə olunan duracağına aparılması təmin edilir və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş qaydada bu barədə məlumat verilir.

**127-2.5.** Bu Məcəllənin 346-1.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətmiş nəqliyyat vasitəsinin istifadəçisi inzibati cəriməni (müvafiq olaraq hesablanmış dəbbə pulu daxil olmaqla) və nəqliyyat vasitəsinin mühafizə olunan duracağa gətirilməsi və orada saxlanılması üçün haqqı həmin yerdə bank və ya ödəmə terminalı vasitəsilə ödəyə bilər. Bu halda nəqliyyat vasitəsi dərhal onun istifadəçisinə qaytarılır.

**127-2.6.** Müvafiq icra hakimiyyəti orqanı inzibati cəriməni və nəqliyyat vasitəsinin mühafizə olunan duracaqda saxlanılması üçün haqqı həmin duracaqda bank və ya ödəmə terminalı vasitəsilə ödəmək üçün şərait yaratmalıdır.".

**1.4.** 322.0.7-ci maddədə "görə –" sözü nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 322.0.8-ci maddə əlavə edilsin:

**"322.0.8.** taksilərin xüsusi olaraq müəyyən edilmiş və 5.14 nişanı ilə işarələnmiş duracaq yerlərindən kənar yerlərdə sifariş qəbul etmək məqsədilə durmasına görə –".

**1.5. 342.1.**10-cu maddədə "görə –" sözü nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 342.1.11-ci maddə əlavə edilsin:

**"342.1.11.** "əlil" tanınma nişanından qanunsuz istifadə edilməsinə görə –"

**1.6.** Aşağıdakı məzmunda 346-1-ci maddə əlavə edilsin:

**"Maddə 346-1. Parklanma qaydalarının pozulması**

**346-1.1.** Nəqliyyat vasitəsinin parklanmasına görə müəyyən olunmuş ödəniş edilmədən və ya ödəniş edilmiş müddətdən artıq parklanma yerindən istifadə üçün əlavə ödəniş edilmədən sürücünün parklanma yerini tərk etməsinə görə –

on manat məbləğində cərimə edilir.

**346-1.2.** Nəqliyyat vasitəsinin qanunla müəyyən edilmiş parklanma üsulunu pozmaqla parklanmasına görə –

on manat məbləğində cərimə edilir.

**346-1.3.** Əlillərin nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş parklanma yerlərində digər nəqliyyat vasitələrinin parklanmasına görə –

on manat məbləğində cərimə edilir.

**346-1.4.** Parklanma yerlərində icazə verilmiş maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinin parklanmasına, habelə parklanma yerlərinin rezervasiya edilməsi və ya digər üsullarla nəqliyyat vasitələrinin sərbəst parklanmasına maneələr yaradılmasına görə –

on manat məbləğində cərimə edilir.

**346-1.5.** Nəqliyyat vasitəsinin 24 saatdan artıq parklanma yerində saxlanılmasına görə -

iyirmi manat məbləğində cərimə edilir.".

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanun (bu Qanunla Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavə edilmiş 127-2.3-cü maddə istisna olmaqla) 2017-ci il iyulun 1-dən qüvvəyə minir.

**2.2.** Bu Qanunla Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə yeni əlavə edilmiş 127-2.3-cü maddə 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2016-cı il
№ 468-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270 VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, №6, maddə 1005, № 7, maddə 1248) aşağıdakı məzmunda 109.18-ci maddə əlavə edilsin:

"109.18. Kənd təsərrüfatı kooperativlərinin təşkili və fəaliyyəti bu Məcəllə və "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2016-cı il
№ 492-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklikər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12,

maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 144.1-ci maddə üzrə:

**1.1.** ikinci cümlədə "notarius" sözündən sonra "və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin;

**1.2.** üçüncü cümlədə "O, təsdiqlədiyi" sözləri "Onlar təsdiqlədikləri" sözləri ilə əvəz edilsin.

**2.** 144.2-ci maddənin dördüncü cümləsində, 144.3-cü maddənin ikinci cümləsində və 148.3-cü maddənin birinci cümləsində "notarius" sözündən sonra "və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin.

**3.** 144.2-1-ci və 144.3-cü maddələrin birinci cümlələrində "Notarius" sözündən sonra "və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin.

**4.** 146.8-ci maddənin birinci cümləsində "notarius" sözündən sonra ", qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2016-cı il
№ 494-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016; Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 335-VQD nömrəli və 16 dekabr tarixli 455-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 231.3-cü maddənin birinci cümləsində "İcra üzrə icraatın dayandırılması" sözləri "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsi ilə müəyyən edilmiş əsaslara uyğun olaraq icra sənədi üzrə icraatın məhkəmələr tərəfindən dayandırılmalı olduğu hallarda icra üzrə icraatın dayandırılması (bundan sonra – icra üzrə icraatın dayandırılması)" sözləri ilə əvəz edilsin.

**2.** 234-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 234. Qətnamənin icra edilməsi**

**234.1.** Bu Məcəllənin 234.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, qətnamə qanuni qüvvəyə mindikdən sonra icra edilir.

**234.2.** Aşağıdakı qətnamələr dərhal icra olunur:

**234.2.1.** şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında;

**234.2.2.** məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2016-cı il
№ 496-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 98-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001; Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 365-VQD nömrəli, 11 noyabr tarixli 386-VQD, 395-VQD və 408-VQD nömrəli, 29 noyabr tarixli 444-VQD nömrəli və 16 dekabr tarixli 456-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 99-5.2-ci maddədə "15-2" rəqəmləri "15-1" rəqəmləri ilə əvəz edilsin.

**2.** 308-ci maddənin "Qeyd" hissəsi üzrə:

**2.1.** 3-cü bənddə "digər" sözü "o cümlədən publik hüquqi şəxslərin, həmçinin" sözləri ilə əvəz edilsin;

**2.2.** 4-cü bənddə "digər" sözü "o cümlədən publik hüquqi şəxslərdə, həmçinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2017-ci il
№ 508-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2015-ci il 29 dekabr tarixli 98-VQD nömrəli və "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 14 iyun tarixli 290-VQD nömrəli qanunlarının tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608; № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788; Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 366-VQD nömrəli, 11 noyabr tarixli 387-VQD nömrəli, 396-VQD nömrəli, 29 noyabr tarixli 429-VQD nömrəli və 16 dekabr tarixli 457-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.1-ci və 5.2-ci maddələrdə "(vəzifəli şəxslər)" sözləri", qurumları və vəzifəli şəxslər" sözləri ilə əvəz edilsin.

**2.** 10-cu maddəyə "orqanları" sözündən sonra "(qurumları)" sözü əlavə edilsin.

**3.** 17-ci maddənin "Qeyd" hissəsinə "müəssisələrində" sözündən sonra ", o cümlədən publik hüquqi şəxslərdə" sözləri əlavə edilsin.

**4.** 46.2-ci və 115.4.2-ci maddələrə "orqanlarına" sözündən sonra "(qurumlarına)" sözü əlavə edilsin.

**5.** 99.1.2-ci maddədə "və təşkilatlarından" sözləri "(qurumlarından)" sözü ilə əvəz edilsin.

**6.** 288.0.1-ci maddədə ", satışına və tətbiq edilməsinə" sözləri "və satışına" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2017-ci il
№ 509-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001; Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 365-VQD nömrəli, 11 noyabr tarixli 386-VQD, 395-VQD və 408-VQD nömrəli, 29 noyabr tarixli 444-VQD nömrəli və 16 dekabr tarixli 456-VQD nömrəli qanunları) 237.1-ci maddəsinin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"237.1.** Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri xeyli miqdarda kultivasiya etmə (əkmə, yetişdirmə və ya onları (onların hissələrini) toplama) –".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2017-ci il
№ 523-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608; № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788; Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 366-VQD nömrəli, 11 noyabr tarixli 387-VQD nömrəli, 396-VQD nömrəli, 29 noyabr tarixli 429-VQD nömrəli və 16 dekabr tarixli 457-VQD nömrəli qanunları) 208-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 208.** Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin az miqdarda kultivasiyası

Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin az miqdarda kultivasiyasına (əkilməsinə, yetişdirilməsinə və ya onların (onların hissələrinin) toplanılmasına) görə -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə iki ayadək müddətə inzibati həbs tətbiq edilir.

**Qeyd:** Bu maddədə "az miqdarda" dedikdə, tərkibində narkotik maddələr olan bitkilərin müvafiq qanunla müəyyən edilmiş xeyli miqdarından aşağı miqdar başa düşülür.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2017-ci il
№ 524-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 697, № 12, maddə 1085; 2010, № 5, maddə 382; 2016, № 6, maddə 996) ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nın "III SİYAHI Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilər" fəsli aşağıdakı redaksiyada verilsin:

**"III SİYAHI**
**Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilər**

| Bitkilərin adı | Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin miqdarı | |
|---|---|---|
| | xeyli miqdar | külli miqdar (daxil olmaqla aşağı hədləri) |
| Azərbaycan Respublikasında bitən, lakin kultivasiyası qadağan olunmuş tərkibində narkotik maddələr olan bitkilər:<br>1. tiryək xaşxaşı, yağlı xaşxaşın digər növləri<br>2. çətənə növlü bitkilər | 2-10 ədəd<br>3-15 ədəd | 11 ədəd<br>16 ədəd |
| Yetişdirmək məqsədilə qanunsuz becərilməsi təşkil edilmiş, çoxillik xaşxaşın və yabanı bitmiş çətənənin kol-kosları | 3-50 ədəd | 51 ədəd |
| Azərbaycan Respublikasının ərazisində iqlim şəraitinə görə bitməyən və kultivasiyası qadağan olunan bitkilər:<br>1. kokain kolu<br>2. kat | 1 ədəd<br>2 ədəd | 1 ədəd<br>2 ədəd |

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2017-ci il
№ 525-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608; № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788; Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 366-VQD nömrəli, 11 noyabr tarixli 387-VQD nömrəli, 396-VQD nömrəli, 29 noyabr tarixli 429-VQD nömrəli və 16 dekabr tarixli 457-VQD nömrəli qanunları) 596-cı maddəsinə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu maddədə nəzərdə tutulmuş inzibati xəta müvafiq icra hakimiyyəti orqanının əməkdaşı tərəfindən törədildikdə inzibati xəta haqqında iş üzrə materiallar bu şəxsin intizam məsuliyyətinə cəlb edilməsi üçün həmin orqana göndərilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 fevral 2017-ci il
№ 529-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364; 2005, № 6, maddə 466; 2006, № 12, maddə 1005; 2007, № 10, maddə 938; 2011, № 3, maddə 162; 2012, № 11, maddə 1051) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci maddədə doqquzuncu – on beşinci bəndlər müvafiq olaraq on yeddinci – iyirmi üçüncü bəndlər hesab edilsin və aşağıdakı məzmunda doqquzuncu - on altıncı bəndlər əlavə edilsin:

"internet informasiya ehtiyatı – internet şəbəkəsində yaradılan, informasiyanın yayılması üçün istifadə olunan, müraciət edilməsi üçün domen adına və sahibi tərəfindən müəyyənləşdirilmiş digər işarələnməyə malik olan informasiya ehtiyatı;

internet informasiya ehtiyatının sahibi – internet informasiya ehtiyatından istifadə edilməsi, o cümlədən burada informasiya yerləşdirilməsi qaydalarını sərbəst olaraq müəyyən edən, internet informasiya ehtiyatına sahiblik və istifadə hüquqlarına malik olan şəxs;

domen adı – internet şəbəkəsində yerləşdirilən informasiya ehtiyatına müraciətin təmin olunması üçün verilən unikal simvol düzülüşü;

domen adının sahibi – müqaviləyə əsasən domen adına müddətli sahiblik edən şəxs;

internet provayder – internet şəbəkəsinə telekommunikasiya vasitələri ilə qoşulmaq üçün texniki imkanı təmin edən təchizatçı;

host provayder – internet informasiya ehtiyatının istifadəsinin təmin edilməsi üçün öz informasiya sistemlərində yerləşdirilməsi xidmətini göstərən təchizatçı;

domen adlarının milli inzibatçısı – "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında domen adlarının inzibatçılığını həyata keçirən səlahiyyətli şəxs;

domen adlarının qeydiyyatçısı – domen adların milli inzibatçısı ilə bağlanılmış müqaviləyə əsasən "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında domenlərin qeydiyyatı üzrə xidmət göstərən şəxs;".

**2.** 2-ci maddənin on doqquzuncu bəndində, 6-cı maddənin onuncu hissəsində, 11-ci maddənin birinci hissəsində, 13-cü maddənin adında və mətnində, 18-ci maddənin birinci və dördüncü hissələrində, 19-cu maddənin ikinci hissəsində və 20-ci maddənin birinci hissəsində ismin müvafiq hallarında "sahibkar" sözü ismin müvafiq hallarında "sahib" sözü ilə əvəz edilsin.

**3.** 2-ci maddənin iyirmi ikinci bəndində, 6-cı maddənin səkkizinci hissəsində ismin müvafiq hallarında "sahibkarlar" sözü ismin müvafiq hallarında "sahiblər" sözü ilə əvəz edilsin.

**4.** 6-cı maddənin beşinci hissəsində "sahibkarlıq" sözü "sahiblik" sözü ilə əvəz edilsin.

**5.** aşağıdakı məzmunda III-I fəsil əlavə edilsin:

**"III-I fəsil**

**İNTERNET İNFORMASİYA EHTİYATLARI**

**Maddə 13-1. İnternet informasiya ehtiyatının yaradılması və uçotu**

**13-1.1.** İnternet informasiya ehtiyatı üçün domen adı "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında və ya digər domen adları zonalarında seçilə bilər.

**13-1.2.** "az" ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı domen adlarının milli inzibatçısı və qeydiyyatçıları tərəfindən həyata keçirilir. Domen adlarının milli inzibatçısı qeydiyyatdan keçmiş domen adlarının reyestrini aparır və reyestr məlumatlarından sorğu əsasında istifadəni təmin edir.

**13-1.3.** "az" ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı və istifadəsi qaydaları, habelə domen adlarının reyestrinə daxil edilən məlumatlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 13-2. İnternet informasiya ehtiyatında informasiyanın yayılması**

**13-2.1.** İnternet informasiya ehtiyatının sahibi həmin informasiya ehtiyatında yerləşdirilən informasiyanın tərkibi və onun yerləşdirilməsi qaydasının müəyyən edilməsində müstəqildir. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatının qanunauyğun fəaliyyətini təmin etməlidir və buna görə şəxsən məsuliyyət daşıyır.

**13-2.2.** İnternet informasiya ehtiyatının və onun domen adının sahibi hüquqi şəxsdirsə adı, təşkilati-hüquqi forması, elektron poçt ünvanı, fiziki şəxsdirsə adı, soyadı və atasının adı və elektron poçt ünvanı həmin saytda aydın oxuna bilən yerdə və formada yerləşdirməlidir.

**13-2.3.** İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatında aşağıdakı yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verməməlidir:

**13-2.3.1.** terrorçuluğun təbliği və maliyyələşdirilməsi, terrorçuluğun həyata keçirilməsinin üsul və vasitələri, terrorçuluq məqsədi ilə təlim təşkil etmə və ya keçirmə barədə məlumatlar, habelə terrorçuluğa açıq çağırışlar;

**13-2.3.2.** zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatlar, milli, irqi və ya dini nifrət və düşmənçiliyin

salınmasına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə yönələn açıq çağırışlar;

**13-2.3.3.** dövlət sirri təşkil edən məlumatlar;

**13-2.3.4.** odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların hazırlanma qaydası və ya üsulları barədə məlumatlar;

**13-2.3.5.** narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının hazırlanma və ya istifadə üsulları və qaydası, onların qanunsuz əldə edilməsi yerləri, habelə tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya yerləri və ya üsulları barədə məlumatlar;

**13-2.3.6.** pornoqrafiyaya, o cümlədən uşaq pornoqrafiyasına aid məlumatlar;

**13-2.3.7.** qumar və digər qanunsuz mərc oyunlarının təşkilinə və həmin oyunlarda iştiraka təhrik edən məlumatlar;

**13-2.3.8.** intiharı problemlərin həlli üsulu qismində təbliğ edən, intihara bəraət qazandıran, onu əsaslandıran və ya törədilməsinə təhrik edən, intiharın törədilməsi üsullarını izah edən və ya qrup şəklində bir neçə şəxsin intihar etməsini təşkil etmək məqsədi ilə yayılan məlumatlar;

**13-2.3.9.** təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar;

**13-2.3.10.** əqli mülkiyyət hüquqlarını pozan məlumatlar;

**13-2.3.11.** Azərbaycan Respublikasının qanunları ilə yayılması qadağan edilən digər informasiya.

**13-2.4.** İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın olduğunu aşkar etdikdə və ya bu barədə ona müraciət daxil olduqda, belə informasiyanın informasiya ehtiyatından götürülməsini təmin edir.

**13-2.5.** Host provayder öz informasiya sistemlərində yerləşdirilmiş internet informasiya ehtiyatlarında yayılması qadağan edilən informasiya aşkar etdikdə və ya ona bu barədə məlumat daxil olduqda, dərhal onun informasiya ehtiyatının sahibi tərəfindən götürülməsi üçün tədbirlər görür.

**Maddə 13-3. İnternet informasiya ehtiyatlarında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinin qarşısının alınması**

**13-3.1.** Müvafiq icra hakimiyyəti orqanı yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi hallarını bilavasitə aşkar etdikdə və ya fiziki, hüquqi şəxslərdən, yaxud dövlət qurumlarından daxil olmuş əsaslandırılmış məlumatlar əsasında müəyyən etdikdə, bu barədə internet informasiya ehtiyatının və onun domen adının sahibinə və host provayderə yazılı xəbərdarlıq edir.

**13-3.2.** Xəbərdarlıq edildiyi vaxtdan 8 saat ərzində yayılması qadağan edilən informasiya internet informasiya ehtiyatından götürülmədikdə müvafiq icra hakimiyyəti orqanı həmin orqanın yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsinə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə müraciət edir.

**13-3.3.** Dövlətin və cəmiyyətin qanunla qorunan maraqlarına təhdid yarandığı və ya insanların həyat və sağlamlığı üçün real təhlükə olduğu təxirəsalınmaz hallarda internet informasiya ehtiyatına müraciət müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında müvəqqəti olaraq məhdudlaşdırılır.

**13-3.4.** Müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 13-3.3-cü maddəsində nəzərdə tutulmuş qərarı qəbul etdikdə, eyni zamanda, internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə məhkəməyə müraciət edir. İnformasiya ehtiyatına müraciətin müvəqqəti məhdudlaşdırılması barədə qərar məhkəmə tərəfindən internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə müraciətə baxılanadək və ya həmin qərar ləğv edilənədək qüvvədə qalır.

**13-3.5.** Məhkəmə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə müraciətə 5 günədək müddətdə baxır və qərar qəbul edir. Qərar qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qərardan şikayətin verilməsi onun icrasını dayandırmır.

**13-3.6.** Məhkəmə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında, müvafiq icra hakimiyyəti orqanı isə internet informasiya ehtiyatına müraciətin müvəqqəti məhdudlaşdırılması barədə qərar qəbul etdikdə, müvafiq icra hakimiyyəti orqanı həmin informasiya ehtiyatını "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edir. Siyahıdakı məlumatların tərkibi, siyahının tərtibi, tətbiqinə nəzarət edilməsi və host və internet provayderlərlə qarşılıqlı əlaqənin təşkil edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**13-3.7.** İnternet informasiya ehtiyatı "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edildikdən dərhal sonra host provayder və internet provayderlər internet informasiya ehtiyatına müraciəti məhdudlaşdırmalı və bu barədə internet informasiya ehtiyatının sahibinə məlumat verməlidirlər.

**13-3.8.** İnternet informasiya ehtiyatının sahibi məlumatın götürülməsini bu Qanunun 13-2.4-cü maddəsində nəzərdə tutulmuş qaydada təmin etmədikdə və informasiyanın internet informasiya ehtiyatında yayılmasının qadağan edilməsi ilə əlaqədar qüvvəyə minmiş məhkəmə qərarı mövcud olduqda, müvafiq icra hakimiyyəti orqanı həmin informasiya ehtiyatını şəxsin müraciəti əsasında "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edir. Həmin internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün bu Qanunun 13-3.7-ci maddəsində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.

**Maddə 13-4. İnternet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi ilə əlaqədar məsuliyyət**

Bu fəslin müddəalarının pozulmasına görə internet informasiya ehtiyatının sahibi, domen adının sahibi, host və internet provayderlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 mart 2017-ci il
№ 539-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685; 2006, № 11, maddə 932; 2007, № 5, maddə 442, № 11, maddə 1053; 2016, № 6, maddə 969; № 12, maddə 1989) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** aşağıdakı məzmunda 6.1.7-1-ci maddə əlavə edilsin:

**“6.1.7-1.** internet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması;”;

**1.2.** aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilsin:

**“Maddə 13-1. İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotu**

**13-1.1.** İnternet telekommunikasiya xidməti göstərən operatorlar və provayderlər xidmət göstərməyə başladıqları vaxtdan 15 gün müddətində müvafiq icra hakimiyyəti orqanında uçota durmalıdırlar, habelə uçot məlumatlarında baş vermiş dəyişiklik barədə müvafiq icra hakimiyyəti orqanına dəyişikliyin baş verdiyi vaxtdan 10 gün müddətində məlumat verməlidirlər.

**13-1.2.** İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada aparılır.”;

**1.3.** 33-cü maddə üzrə:

**1.3.1.** aşağıdakı məzmunda 33.1.9-1-ci və 33.1.9-2-ci maddələr əlavə edilsin:

**“33.1.9-1.** bu Qanunun 13-1.2-ci maddəsində nəzərdə tutulmuş qaydada uçota durmaq, habelə uçot məlumatlarında baş vermiş dəyişiklik barədə dəyişikliyin baş verdiyi vaxtdan 10 gün müddətində məlumat vermək;

**33.1.9-2.** müvafiq icra hakimiyyəti orqanının, habelə məhkəmələrin və ya hüquq mühafizə orqanlarının sorğularına 3 iş günündən gec olmayaraq cavab vermək və tələb olunan məlumatları təqdim etmək (bu müddətdə həmin informasiyanın aktuallığını itirməsi ilə əlaqədar sorğunun təcili olması barədə sorğu verənin qeydi olduqda, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab vermək);”;

**1.3.2.** 33.2-ci maddədə “32.1.4-cü” sözləri “33.1.4-cü” sözləri ilə əvəz edilsin;

**1.4.** aşağıdakı məzmunda 43.4-cü və 43.5-ci maddələr əlavə edilsin:

**“43.4.** İnternet telekommunikasiya xidməti göstərən operatorlar və provayderlər xidmət göstərməyə başladıqları vaxtdan 15 gün müddətində müvafiq icra hakimiyyəti orqanında uçota durmadıqda qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**43.5.** İnternet telekommunikasiya xidməti göstərən operatorlar və provayderlər uçota alınması üçün zəruri olan sənədlərdəki çatışmazlıqları aradan qaldıraraq 15 gün müddətində yenidən müraciət etmədikdə və ya uçot məlumatlarında baş vermiş dəyişiklik barədə müvafiq icra hakimiyyəti orqanına dəyişikliyin baş verdiyi gündən 10 gün müddətində məlumat vermədikdə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.”.

**Maddə 2. Keçid müddəası**

“Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun 13-1.2-ci maddəsində nəzərdə tutulmuş qaydalar qüvvəyə mindiyi tarixədək internet telekommunikasiya xidməti göstərməyə başlamış operatorlar və provayderlər həmin qaydaların qüvvəyə mindiyi tarixdən sonrakı 2 ay ərzində müvafiq icra hakimiyyəti orqanına müraciət edərək uçota durmalıdırlar.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 mart 2017-ci il
№ 540-VQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 529-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 529-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun-

laşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1613, 1638; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1232 nömrəli Fərmanı) aşağıdakı məzmunda 4.47-1-ci bənd əlavə edilsin:

**"4.47-1.** həmin Məcəlləsinin 596-cı maddəsinin "Qeyd" hissəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 mart 2017-ci il
№ 1273

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanını "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 335-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045) 2-ci hissəsinin onuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on birinci abzas əlavə edilsin:

"həmin Məcəllənin 355-11.1-ci və 355-14-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 mart 2017-ci il
№ 1274

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 1374 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında sənədlərlə iş barədə Təlimat"da dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Res-

publikasının 2016-cı il 30 sentyabr tarixli 304-VKQD nömrəli Konstitusiya Qanununun tətbiqi və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 oktyabr tarixli 1070 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 1374 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 613; 2010, № 2, maddə 80; 2014, № 2, maddə 113; 2016, № 5, maddə 928) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında sənədlərlə iş barədə Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.7-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Konstitusiya qanunları və Azərbaycan Respublikasının qanunları "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu"nda və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanının 6.1-ci və 6.2-ci bəndlərində müəyyən edilən rəsmi qəzetlərdə dərc olunur.".

**2.** 4.14-cü bəndin birinci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu"nda və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanının 6-cı hissəsində müəyyən edilən rəsmi qəzetlərdə dərc olunur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 fevral 2017-ci il
№ 2641

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə

Dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir.

Cəzaların icrası sahəsində həyata keçirilən islahatlara baxmayaraq, son zamanlar aparılmış təhlillər göstərir ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti təmin olunmur, ictimai işlər cəzasının icrası prosesində çətinliklər yaranır, cəzanı icra edən orqan və müəssisələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından kifayət qədər istifadə edilmir.

İbtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, müasir texnoloji vasitələrin tətbiq edilməsi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirləri davam etdirilsin. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılsın.

**2.** Cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələri tətbiq olunsun.

**3.** Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş qaydada çəkilməsi və məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət olunması təmin edilsin, bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması üçün tədbirlər görülsün.

**4.** İctimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısı alınsın, ictimai işlər və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarət təmin edilsin.

**5.** Azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması imkanları araşdırılsın, bu fəaliyyətdə sahibkarların iştirakının stimullaşdırılması üçün tədbirlər görülsün.

**6.** Penitensiar xidmətin yüksək peşəkar kadr korpusunun formalaşdırılması, vəzifələrə təyinatın daha çevik və qısa müddətdə aparılması, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi, işçilərin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, habelə onların sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri tədbirlər görülsün.

**7.** Penitensiar müəssisələrin etibarlı mühafizəsinin təşkil edilməsi məqsədilə penitensiar xidmətin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə tam komplektləşdirilməsi təmin olunsun.

**8.** İbtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunsun, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqi genişləndirilsin.

**9.** Cinayət qanunvericiliyinin prinsiplərinə və cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət edilsin, cinayət təqibi və cəzaların icrası zamanı qeyri-prosessual münasibətlərə yol verilməsin, korrupsiya və vəzifədən sui-istifadə hallarına qarşı mübarizədə daha ciddi tədbirlər görülsün.

**10.** Cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, aşağıdakı istiqamətlərdə qanun layihələrini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər:

**10.1.** cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması;

**10.2.** cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi;

**10.3.** törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması;

**10.4.** azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi;

**10.5.** həbsə alternativ olan qətimkan tədbirinin tətbiq edilməsi hallarının genişləndirilməsi, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi qaydasının sadələşdirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması.

**11.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

**11.1.** probasiya xidmətinin təşkili ilə əlaqədar təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**11.2.** elektron nəzarət vasitələrinin tətbiqi məqsədilə normativ hüquqi aktlara dəyişikliklərin edilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birlikdə hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**11.3.** "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sistemini təşkil etsin, həmin sistem vasitəsilə cəzaları icra edən orqan və müəssisələr arasında real vaxt rejimində qarşılıqlı məlumat mübadiləsini təmin etsin, informasiya sisteminə məlumatlar toplanarkən bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatların müəyyən etdiyi meyarları nəzərə alsın;

**11.4.** ictimai işlər növündə cəza çəkən məhkumların iş yerlərində dəqiq qeydiyyatının təşkil edilməsi, həmin işlərdən yayınmanın qarşısının alınması və işlənmiş vaxtın dəqiq uçotunun aparılması üçün tədbirlər görsün;

**11.5.** məhkumların ictimai işlər növündə cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən qanun layihəsini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**11.6.** azadlıqdan məhrum edilmiş məhkumların və həbs edilmiş şəxslərin saxlanma şəraitinə, yemək, tibbi-sanitariya, maddi-məişət təminatına nəzarəti gücləndirsin;

**11.7.** bu Sərəncamın 3-6-cı hissələrində nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etsin və nəticəsi barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**12.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki:

**12.1.** həbs qətimkan tədbirinin seçilməsi barədə vəsatətlərə baxılarkən ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsi mümkünlüyü araşdırılsın;

**12.2.** böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatlar müstəsna hallarda həbsin tətbiq edilməsinə dair cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş əsaslar mövcud olduqda verilsin.

**13.** Məhkəmələrə tövsiyə edilsin ki:

**13.1.** həbs qətimkan tədbiri seçilərkən şəxsin ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və həmin qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğunu araşdırsınlar;

**13.2.** həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimatlara baxarkən digər qətimkan tədbirlərinin seçilməsinin qeyri-mümkün olduğuna dair dəlilləri yoxlasınlar;

**13.3.** cəzanın növü və həddini müəyyən edərkən cəzanın sosial ədalətin bərpası, məhkumun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə tətbiq edildiyini əsas tutsunlar;

**13.4.** cəzanın təyin edilməsi əsaslarına dair Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinə riayət olunmasına xüsusi diqqət yetirsinlər.

**14.** Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, həbs qətimkan tədbirinin seçilməsi və azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi ilə bağlı məhkəmə təcrübəsini mütəmadi ümumiləşdirsin və bu sahədə ədalətli məhkəmə təcrübəsinin formalaşdırılmasını təmin etsin.

**15.** Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təklifləri əsasında penitensiar xidmətin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə tam komplektləşdirilməsini təmin etsin.

**16.** Yerli icra hakimiyyəti orqanları tərəfindən ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahıları təxirəsalınmadan müəyyən olunsun və həmin siyahıların mütəmadi olaraq icra məmurları ilə razılaşdırılması təmin edilsin.

**17.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**17.1.** elektron nəzarət vasitələrinin tətbiqi ilə əlaqədar maliyyələşmə məsələlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Baş Prokurorluğunun təklifləri əsasında həll etsin;

**17.2.** məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanması və təminatına dair Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin müddəalarına riayət olunmasının təmin edilməsi məqsədilə tikinti və təchizat işlərinin yerinə yetirilməsi üçün vəsaitin ayrılması mümkünlüyünə baxsın;

**17.3.** ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydasını təsdiq etsin;

**17.4.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 fevral 2017-ci il
№ 2668

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

**QƏRARI**

31 yanvar 2017-ci il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin,maraqlı subyektlərin nümayəndələri Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Vidadi Cəfərovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun, ekspert Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sübhan Əliyevin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun və Azərbaycan Respublikası Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzinin rəisi Nazir Bayramovun, Sumqayıt şəhər prokuroru Sərdar İmanovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 54.3-cü maddəsinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilir ki, 18 aprel 2016-cı il tarixində İ.Abbasova Sumqayıt şəhər Polis İdarəsinin 3-cü Polis Bölməsinə müraciət edərək qardaşı V.Abbasov tərəfindən döyüldüyünü göstərmiş, onun cinayət məsuliyyətinə cəlb edilməsini xahiş etmişdir.

Həmin müraciət üzrə polis bölməsində təhqiqat aparılmış və Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət Prosessual Məcəllə) 39.1.2-ci maddəsinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edilmişdir.

Sonradan polis bölməsi tərəfindən V.Abbasov barəsində 7 iyun 2016-cı il tarixli inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün Sumqayıt Şəhər Məhkəməsinə göndərilmişdir.

Sumqayıt Şəhər Məhkəməsinin 7 iyun 2016-cı il tarixli qərardadı ilə V.Abbasov barəsində İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsi ilə tərtib edilmiş inzibati xəta haqqında protokol və digər sənədlər inzibati xəta haqqında protokol tərtib edilməzdən əvvəl zərər çəkmiş şəxsin ərizəsinin alınmaması əsası ilə onu tərtib etmiş orqana – Sumqayıt şəhər Polis İdarəsinin 3-cü Polis Bölməsinə qaytarılmışdır.

Sumqayıt şəhər prokuroru apellyasiya protesti verərək Sumqayıt Şəhər Məhkəməsinin həmin qərardadının ləğv edilməsini və yeni qərar qəbul edilməsini xahiş etmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsi prokurorluq orqanlarından belə xarakterli protestlərin daxil olması hallarının artmasını və prokurorun İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq belə qərardaddan protest vermək hüququnun olması ilə bağlı qeyri-müəyyənliyi nəzərə alaraq Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir. Müraciətedənin qənaətinə görə, prokurorun iştirak etdiyi işlərlə yanaşı, daha hansı qərardadlardan protest vermək hüququnun olması qanunvericilikdə aydın müəyyən edilməmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən edilmişdir.

Dövlət orqanları insan hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılmasından çəkinməklə yanaşı, cəmiyyətdə qanunçuluğun təmin edilməsini həyata keçirməlidirlər. Konstitusiyanın 71-ci maddəsinin I hissəsinə görə, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Konstitusiyanın bu norması insan hüquq və azadlıqlarının müdafiə vasitələri ilə yanaşı, həmin hüquqların təminatı kimi cinayət, inzibati və digər repressiv və preventiv hüquq sahələrinin qoruyucu normalarını da nəzərdə tutur.

İnzibati idarəçilik sahəsində inzibati münasibətlərin qoruyucu normaları 1 mart 2016-cı il tarixindən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsində əks olunmuşdur.

Həmin Məcəllənin 2-ci maddəsinə görə, Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

Bu Məcəllə insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət orqanları (vəzifəli şəxslər) tərəfindən pozulmasının qarşısının alınmasını və onlara hörmət olunmasını təmin edir (İnzibati Xətalar Məcəlləsinin 5.2-ci maddəsi).

İnzibati Xətalar Məcəlləsi insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır (İnzibati Xətalar Məcəlləsinin 4-cü maddəsi).

Məcəllənin maddi normaları xəta növünü müəyyən etməklə inzibati idarəçilik sahəsində hər bir subyektin hüquq və qanuni maraqlarını təmin edir. İnzibati xətalar (inzibati delikt) qanunvericiliyi səlahiyyətli orqanla fiziki, hüquqi və vəzifəli şəxslər arasında inzibati xətalarla bağlı yaranan mübahisələri tənzimləyir və bu münasibətlərdə əsas subyekt kimi səlahiyyətli dövlət orqanı çıxış edir.

İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər) İnzibati Xətalar Məcəlləsinin 40-cı maddəsində göstərilmişdir. Bu normaya əsasən, inzibati xətalar haqqında işlərə rayon (şəhər) məhkəmələri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan), müvafiq icra hakimiyyəti orqanları, Mərkəzi Bank, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum (vəzifəli şəxslər) baxırlar.

Səlahiyyətli orqan (vəzifəli şəxs) xəta törətmiş subyektə qarşı məsuliyyət tədbirlərini tətbiq edərkən inzibati xarakterli məcburetmə səlahiyyətlərinə malikdir. İnzibati Xətalar Məcəlləsinin 42.1-ci maddəsinə müvafiq olaraq, inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslər bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş inzibati tənbehləri yalnız xidməti vəzifələrinin icrası zamanı tətbiq edə bilərlər.

İnzibati xətalar qanunvericiliyinin tələbinə görə, inzibati tənbeh tətbiq edən orqan və vəzifəli şəxslərdən fərqli olaraq, rayon (şəhər) məhkəmələri nisbətən ağır sanksiya (tənbeh) ilə nəticələnən inzibati xətalara dair işlərə baxırlar. Baxılması rayon (şəhər) məhkəmələrinə aid edilən inzibati xətalar haqqında işlər İnzibati Xətalar Məcəlləsinin 43-cü maddəsində nəzərdə tutulmuşdur.

Eyni zamanda, inzibati məsuliyyətə cəlb edilməsi mümkün sayılan subyektlərin dairəsi İnzibati Xətalar Məcəlləsinin 16, 17 və 18-ci maddələrində göstərilmişdir. Bu subyektlərə fiziki, vəzifəli, habelə hüquqi şəxslər aid edilir.

İnzibati xətalar haqqında işlərə baxılmasının prosessual qaydaları isə bu Məcəllənin III və IV bölmələrində müəyyən edilmişdir.

Göründüyü kimi, inzibati xətalar qanunvericiliyi inzibati xətalara dair işlər üzrə icraatın həyata keçirilməsinin prosessual qaydalarını tənzimləyərək inzibati xətalar üzrə işlərə baxmağa səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) və inzibati məsuliyyətə cəlb edilməsi mümkün sayılan subyektlərin dairəsini dəqiq müəyyən etmişdir.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələrinin həyata keçirilməsində qanunçuluq prinsipi xüsusi əhəmiyyətə malikdir. İnzibati Xətalar Məcəlləsinin qanunçuluq prinsipindən bəhs edən 6-cı maddəsinə görə, inzibati xətaya görə inzibati tənbeh bu Məcəlləyə uyğun olaraq tətbiq edilir. İnzibati xəta haqqında iş üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir.

İnzibati Xətalar Məcəlləsində prokuror nəzarətinə xüsusi yer verilmişdir. Belə ki, Məcəllənin 54.1-ci maddəsinə əsasən, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Konstitusiyanın və qanunların tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir.

İnzibati xətalara dair işlər üzrə icraatda qanunçuluğun təmin edilməsində prokuror nəzarətinin həyata keçirilməsi Konstitusiyanın 133-cü maddəsinin müddəalarına əsaslanır.

Konstitusiyanın 133-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla

nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Prokurorluq haqqında" Qanun) 4-cü maddəsində prokurorluğun digər fəaliyyət istiqamətləri ilə yanaşı, məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etmək; məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak etmək, dövlət ittihamını müdafiə etmək; məhkəmə qərarlarından protest vermək səlahiyyəti də göstərilmişdir.

Həmin Qanunun 27-ci maddəsinə görə, prokuror prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hallarda məhkəmə qərarlarından protest verir. Protest prokurorun iştirak etdiyi iş üzrə məhkəmə qərarından onun yuxarı məhkəməyə verdiyi şikayətdir və öz hüquqi statusuna, hüquqi nəticələrinə görə digər tərəfin şikayətinə bərabər tutulur.

İnzibati xətalara dair işlər üzrə icraat zamanı prokuror nəzarətinin hədləri İnzibati Xətalar Məcəlləsi ilə dəqiq müəyyən edilmişdir.

İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsində konkret inzibati xəta növləri üzrə icraatın prokuror tərəfindən başlanması müəyyən edilmişdir. Həmin maddəyə görə, bu Məcəllənin 191.1, 195.1, 197.3, 197.4, 197.5, 205, 249, 284.2, 339.2 - 339.5, 340.2, 341, 376, 399, 410.3, 531, 558.2, 558.3, 559, 563.2, 567, 568, 569, 573, 594-1, 595.2, 596, 601 və 606.1-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar prokuror tərəfindən qəbul edilir. Prokuror bu Məcəllənin 99.3-cü maddəsinə əsasən digər inzibati xətalar haqqında işlər üzrə də icraatın başlanması haqqında qərar qəbul etmək hüququna malikdir.

Həmin Məcəllənin 99.1 və 99.2-ci maddələrində inzibati xəta hadisəsinin mövcudluğunu göstərən kifayət qədər halların səlahiyyətli vəzifəli şəxs tərəfindən bilavasitə və ya xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilməsi; dövlət orqanlarından və təşkilatlarından və ya bələdiyyələrdən məlumatların daxil olması; fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilən, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar inzibati xəta haqqında iş üzrə icraata başlamağa səbəb kimi göstərilmişdir. Məlumatlara inzibati xəta haqqında iş üzrə icraata başlamaq səlahiyyəti olan vəzifəli şəxs tərəfindən baxılır. Həmin məlumatlarda inzibati xətanın əlamətlərinin olması və inzibati xəta haqqında iş üzrə icraatı rədd edən halların olmaması inzibati xəta haqqında işin başlanmasına əsasdır.

Bu Məcəllənin 99.1-ci maddəsində göstərilən səbəblərdən biri və bu Məcəllənin 99.2-ci maddəsində göstərilən kifayət qədər əsaslar olduqda, səlahiyyətli vəzifəli şəxs tərəfindən inzibati xəta haqqında iş üzrə icraat başlanılır (İnzibati Xətalar Məcəlləsinin 99.3-cü maddəsi).

İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsinin birinci cümləsində sadalanan inzibati xətaların təhlili göstərir ki, dövlət orqanları və ya təşkilatları, habelə onların vəzifəli şəxsləri tərəfindən üzərlərinə qoyulmuş funksiyaların yerinə yetirilməsi zamanı dövlət mənafelərinə, insanların hüquq və azadlıqlarına zərər vuran inzibati xəta törədildikdə prokuror bu inzibati xətalar üzrə icraatın başlanması haqqında qərar qəbul edir.

Məcəllənin 54.4-cü maddəsinə müvafiq olaraq, prokuror bu Məcəllənin 99.1.2 və 99.1.3-cü maddələrində nəzərdə tutulan məlumatlara baxaraq, on beş gün müddətində inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad qəbul edir. Qərardadın surəti məlumatları vermiş şəxslərə göndərilir. Həmin qərardaddan onun rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində yuxarı prokurora və ya məhkəməyə şikayət verilə bilər.

Göründüyü kimi, inzibati xətalar qanunvericiliyi prokurora qanunçuluğun təmin edilməsi məqsədilə Məcəllənin 99.1-99.3-cü maddələrində nəzərdə tutulmuş hallarda da inzibati xəta haqqında iş üzrə icraatın başlanması və ya bu icraatın başlanmasının rədd edilməsi haqqında qərar qəbul etmək hüququ vermişdir.

Bununla yanaşı, İnzibati Xətalar Məcəlləsinin 54.6-cı maddəsində qeyd edilir ki, yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış inzibati xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı prokurora bildirilir. Həmin işə prokurorun iştirakı olmadan yalnız o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddətinin ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın.

Eyni zamanda, inzibati xətalar qanunvericiliyi prokurorun inzibati xətalara dair işlər üzrə məhkəmə icraatında iştirakının hədlərini dəqiq müəyyən etmişdir.

Belə ki, Məcəllənin 54.3-cü maddəsinə görə, prokuror, həmçinin inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir.

Göründüyü kimi, prokurorun digər hüquqları ilə yanaşı, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsində daha üç hüququ nəzərdə tutulmuşdur: inzibati xətalara dair işlərin məhkəmədə baxılmasında iştirak etmək; işin baxılması zamanı rəy və ya vəsatət vermək; inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək.

Qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin prokurorun səlahiyyətlərini nəzərdə tutan 54.1-ci maddəsi və prokurorun hüquqlarını müəyyən edən 54.3-cü maddəsi bir-biri ilə sistemli əlaqədə olan və normativ vahidliyi ilə xarakterizə olunan müddəalardır.

Belə ki, prokuror yalnız inzibati xətalar haqqında işlər üzrə icraatı başladıqda (qərar qəbul etdikdə) həmin işə məhkəmədə baxılmasında iştirak etmək, rəy və ya vəsatət vermək, nəticə ilə razılaşmadıqda həmin iş üzrə çıxarılmış məhkəmə qərarından və ya qərardadından protest vermək hüququ əldə edir.

Bununla yanaşı, prokurorun məhkəmə qərarlarından protest vermək hüququ həmin Məcəllənin 128.1-ci maddəsində də müəyyən edilmişdir. Bu normaya görə, inzibati xəta haqqında iş üzrə barəsində qərar çıxarılmış fiziki şəxs, yetkinlik yaşına çatmayanların qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi, zərər çəkmiş şəxs, müdafiəçi və nümayəndə, həmçinin bu Məcəllənin 43.2-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs inzibati xəta haqqında iş üzrə qərardan şikayət, prokuror isə protest verə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərhinə dair" 2 noyabr 2016-cı il tarixli Qərarında belə nəticəyə gəlmişdir ki, həmin Məcəllənin 128.1-ci maddəsində şikayət vermək hüququ olan subyektlərin dairəsi dəqiq göstərildiyinə görə geniş təfsir edilə bilməz və yalnız həmin maddədə sadalanan şəxslər inzibati xəta haqqında iş üzrə qərardan şikayət, prokuror isə protest verə bilər.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə həmin işlər üzrə qəbul olunmuş məhkəmə qərarından və ya qərardadlarından yuxarı instansiya məhkəməsinə protest verə bilər.

Konstitusiya Məhkəməsi Plenumunun bu mövqeyi ölkəmizdə yeni Konstitusiyanın qəbulundan sonra həyata keçirilən məhkəmə-hüquq islahatlarına da uyğun gəlir. Belə ki, ölkəmizdə hüquqi dövlət və demokratik cəmiyyətin tələblərinə cavab verən və hüquq-mühafizə orqanlarının fəaliyyətini tənzimləyən yeni qanunvericilik aktları, o cümlədən Cinayət, Cinayət Prosessual, Mülki, Mülki Prosessual, İnzibati Xətalar və sair Məcəllələr qəbul edilmişdir. Yeni qanunvericilikdə əvvəlki sovet qanunvericiliyinin bir çox müddəalarından imtina olunmuş, prokuror nəzarəti institutunun mahiyyəti dəyişdirilmişdir.

Mülki mühakimə icraatında prokurorun iştirakı məhdudlaşdırılaraq yalnız xüsusi icraat işləri üzrə nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 306.3-cü maddəsinə görə, dövlət idarə və təşkilatlarının və ya təsisçiləri dövlət və ya dövlət idarələri, yaxud təşkilatları olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu halda dövlət mənafeyinin müdafiəsi üçün prokuror mülkiyyət hüququ üzrə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək haqqında işlər üzrə və daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında işlər üzrə ərizə verə bilər.

Mülki Prosessual Məcəllənin 50.2-ci maddəsinə əsasən, özünün və ya başqasının mənafeyi naminə iddia qaldırmış fiziki və hüquqi şəxslər, habelə dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror iddiaçılar hesab edilirlər.

Prokuror yuxarıda göstərilən hallarda məhkəmə baxışında iddiaçı və ya ərizəçi olarsa məhkəmə aktlarından protest verə bilər. Mülki Prosessual Məcəllənin 357.3-cü maddəsinə müvafiq olaraq, prokurorun protesti iştirak etdiyi iş üzrə onun tərəfindən apellyasiya instansiyası məhkəməsinə verilən şikayətdir və öz hüquqi mahiyyətinə, hüquqi nəticələrinə görə apellyasiya şikayətinə bərabər tutulur.

Cinayət Prosessual Məcəllənin 383.2-ci maddəsinə əsasən isə apellyasiya protesti vermək hüququna onun gəldiyi nəticələrin və təkliflərin nəzərə alınmadığı hissədə birinci instansiya məhkəməsində işə baxılmasında iştirak etmiş dövlət ittihamçısı malikdir.

Qeyd olunmalıdır ki, qanunverici prokurorluq orqanlarının fəaliyyətini ifadə etmək üçün "prokuror nəzarəti" terminindən istifadə etsə də, həmin terminin məzmununu açıqlamamışdır. Lakin prokuror nəzarətinin mahiyyəti və hədləri konkret olaraq sahəvi qanunvericilik aktlarında, baxılan məsələ ilə bağlı isə İnzibati Xətalar Məcəlləsində müəyyən edilmişdir.

Prosessual qanunvericilik, bir qayda olaraq, məhkəmə aktlarından şikayətin və ya protestin verilməsini şəxsin prosesdə tərəf olmasından asılı etmişdir. İnzibati xətalara dair işlər üzrə prokurorun protest vermək hüququ digər prosessual qanunvericiliklərdə olduğu kimi onun həmin prosesdə iştirakı ilə əlaqələndirilmişdir.

Göründüyü kimi, inzibati xətalar, mülki və cinayət prosessual qanunvericiliyin, eləcə də "Prokurorluq haqqında" Qanunun normaları prokurorun məhkəmə qərarlarından protest vermək hüququnu yalnız onun məhkəmədə konkret işin baxılmasında iştirakı ilə şərtləndirir.

Bununla yanaşı qeyd olunmalıdır ki, 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Cinayət Prosessual Məcəlləyə xüsusi icraatlar qaydasında "Məhkəmə nəzarətinin həyata keçirilməsi" adlı LII fəsil əlavə edilmişdir.

Cinayət Prosessual Məcəllənin 442.1-ci maddəsinə əsasən, məhkəmə nəzarəti istintaq hərəkətlərinin

məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi yer üzrə səlahiyyəti daxilində müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir.

Məhkəmə nəzarəti, eyni zamanda, "Prokurorluq haqqında" Qanunun 45-ci maddəsində də əksini tapmışdır. Həmin maddəyə əsasən, Konstitusiyada nəzərdə tutulmuş insan və vətəndaş hüquqlarını və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş qaydada və hallarda məhkəmənin qərarına əsasən yol verilir.

Konstitusiya Məhkəməsinin Plenumu yuxarıda göstərilən qanunvericilik aktlarını təhlil edərək belə qənaətə gəlir ki, inzibati xətalara dair işlər üzrə prokuror nəzarəti əvvəlki qanunvericilikdən fərqli olaraq heç də məhkəmələrin fəaliyyətinə, məhkəmələr tərəfindən inzibati xətalara dair işlərə baxılması zamanı Konstitusiyanın və qanunların tətbiqinə və icrasına nəzarət kimi qəbul edilməməlidir.

Qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan Konstitusiyanın və qanunların tətbiqinə və icrasına prokuror nəzarəti əsasən inzibati xətalara dair işlər üzrə icraatla bağlı müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyətini əhatə etməklə bu fəaliyyətin həyata keçirilməsi zamanı yol verilmiş qanun pozuntularının vaxtında aradan qaldırılması üçün tədbirlərin görülməsini ehtiva edir.

Analoji məsələ üzrə Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 24.6-cı maddəsi müəyyən etmişdir ki, Rusiya Federasiyasının Baş Prokuroru və onun tərəfindən təyin edilən prokurorlar öz səlahiyyətləri dairəsində inzibati xətalara dair işlər üzrə icraatda, məhkəmənin icraatında olan işlər istisna olmaqla, Konstitusiyanın və qanunların tətbiqinə və icrasına nəzarəti həyata keçirirlər.

Göründüyü kimi, Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyində olduğu kimi Rusiya Federasiyasının qanunvericiliyində də prokuror nəzarəti məhkəmə icraatında olan işləri əhatə etmir.

Lakin Azərbaycan Respublikası inzibati xətalar qanunvericiliyindən fərqli olaraq, Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsi prokurorun işdə iştirak edib-etməməsindən asılı olmayaraq inzibati xətalara dair iş üzrə qərarlardan protest vermək hüququnu nəzərdə tutmuşdur (Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 25.11-ci maddəsi).

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, prokurorun iştirak etmədiyi inzibati xətalara dair işlər üzrə çıxarılmış məhkəmə qərarlarından protest vermək hüququnun tanınması Konstitusiyanın 127-ci maddəsində nəzərdə tutulan hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin şərtləri, eləcə də tərəflərin hüquq bərabərliyi və çəkişmə prinsiplərinin pozulması və onların hüquqlarına, habelə məhkəmələrin müstəqil şəkildə fəaliyyətinə müdaxilə kimi qiymətləndirilə bilər.

Göstərilənlərlə yanaşı Konstitusiya Məhkəməsinin Plenumu məhkəmələrin diqqətinə bir daha çatdırır ki, inzibati xətalara dair işlərə sadələşdirilmiş qaydada baxılmasını, inzibati xəta törətmiş şəxs barəsində qanunvericiliyin tələbinə görə yalnız üç ay müddətində inzibati tənbeh tətbiq edilməsinin mümkünlüyünü və tərtib edilmiş materialların tamamlanmasının bilavasitə onların da vəzifəsinə aid edildiyini nəzərə alaraq, daxil olmuş materiallara qanunvericiliyə əməl olunmaqla obyektiv və qərəzsiz baxmalı, onların əsassız geri qaytarılmasından çəkinməli, məhkəmə qərarı və qərardadlarından verilmiş apellyasiya şikayətlərinin (protestlərinin) vaxtında yuxarı instansiya məhkəməsinə göndərilməsini təmin etməlidirlər. Eləcə də qeyd olunmalıdır ki, hazırkı iş üzrə Sumqayıt Şəhər Məhkəməsinin göstərilən qərardadından inzibati xəta haqqında protokol tərtib etmiş vəzifəli şəxs qanunvericilikdə nəzərdə tutulmuş müddətdə apellyasiya şikayəti verməklə öz mövqeyini müdafiə edə bilərdi.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir.
2. Qərar dərc olunduğu gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr** **Fərhad Abdullayev**